QAN YADDAŞI

VAQİF ARZUMANLI,

VƏLİ HƏBİBOĞLU,

KAMİL MUXTAROV

# 1918-ci il QIRĞINLARI

Bakı "ÖYRƏTMƏN" 1995

84.3
A 75

**Redaktoru: Cavad Zeynal**

**A 75 V. Arzumanlı, V. Həbiboğlu, K. Muxtarov**. 1918-ci il qırğınları. Tarixi araşdırmalar B.: “Öyrətmən”. 1995. 90 səh.

Əsrin əvvəlində xalqımızın soyqırımına məruz qalmasından, mahallarımızın, ərazilərimizin işğalından, həmin qanlı siyasət nəticəsində qurban gedən yüz minlərlə soydaşımızın faciə-fəlakətlərindən bəhs edən bu kitab hər bir kəs üçündür: kiçik oxumalıdır-gələcəyə hazırlanması üçün; yeniyetmə oxumalıdır - tarixini bilməsi və mübarizələrə hazır olması üçün; böyük oxumalıdır, bu faciələri unutmaması üçün; analar oxumalıdır, həmin hadisələri beşik başında körpələrinə danışmaları üçün-yalnız bu halda milli yaddaşımız özünə qayıda bilər.

A 470202400

©“Öyrətmən”1995

## ÖN SÖZ

Xalqımıza qarşı əsrimizin əvvəllərində iki dəfə soyqırımı siyasətinin həyata keçirilməsinə baxmayaraq, bugünkü nəsil yaxın vaxtlara qədər bu tarixi faciələr barədə, deməк olar, heç nə bilmirdi. Son illərin demokratik işığı soykökümüzə qarşı çevrilmiş bu mənfur siyasətin acı həqiqətləri üzərinə öz ziyasını saldı, mətbuat səhifələrində 1905 və 1918-ci illərdə olmuş qırğınlar barədə yazılar görünməyə başladı.

Sovet hakimiyyəti illəri ərzində bu tarixi faciələr barədə danışmaq qeyri-mümkün idi. Xalqın soykökünün məhvinə, Azərbaycan torpaqlarının zəbt edilməsinə aid məqalələr dərc etdirmək, kitablar buraxmaq qanunla qadağan olunurdu. Bu işi görməyə cəhd edən ayrı-ayrı şəxslər inzibati orqanlar tərəfindən təqib edilirdi, onların bu vətənpərvərlik fəaliyyəti o dövrdə partiyanın irəli sürdüyü beynəlmiləlçilik siyasəti ilə uyğun gəlmirdi.

Elə həmin dövrdə heç bir partiya və dövlət siyasətinə məhəl qoymayan ermənilər xalqımıza qarşı, bütövlükdə türk dünyasına qarşı həyata keçirtdikləri soyqırımı siyasəti ilə əlaqədar olaraq əhali arasında təbliğat işləri aparır, yeni nəsli sırf erməni millətçiliyi ruhunda tərbiyə etməyə çalışırdılar. Məhz buna görə də yaxın vaxtlara qədər, yəni Dağlıq - Qarabağ problemi meydana çıxana qədər hər bir erməni gənci türkə nifrət ruhunda böyümüş, 1905-1918-ci illərdə olmuş erməni-müsəlman qırğınları barədə tarixi həqiqətlər barədə uydurulmuş, şişirdilmiş təsəvvürlərə malik idi. Azərbaycanda isə başımıza açılan müsibətləri yazmaq qadağan edildiyindən gənclərimiz öz yaxın keçmişində baş vermiş faciələri öyrənə bilməmişdi, başqa sözlə desək, soykökümüzə, ərazimizə, torpaqlarımıza, tariximizə qarşı çevrilmiş bu faciədən süni surətdə məhrum olmuşdu.

1993-cü ildə 1918-ci ilin erməni-müsəlman qırğınından 75 il keçdi. Düz 75 il əvvəl erməni quldur dəstələri Azərbaycan türklərinə qarşı tarixdə görünməmiş bir vəhşilik etdi. Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, Qarabağ və Zəngəzurda, habelə Azərbaycanın digər şəhər və kəndlərində, qədim oğuz yurdu İrəvan torpaqlarında yüz minlərlə Azərbaycan türkü işgəncə ilə öldürüldü, evlər qarət edildi, yandırıldı. Daşnak silahlı dəstələri dinc əhaliyə qarşı elə vəhşiliklər tətbiq etdilər ki, bu gün həmin tarixi faciələr barədə söhbət açanda adamın nəbzi dayanır. Erməni vəhşiləri qocaları, qadınları, uşaqları qılıncdan keçirir, bu gün olduğu kimi, 1918-ci ildə də azərbaycanlıların yaşayış yerlərini yandıraraq ölü zona yaratmağa çalışırdılar. Həmin dövrdə daşnak hərbi qüvvələrinin vasitəsilə təşkil edilmiş bu soyqırımını başda Stepan Şaumyan olmaqla erməni bolşevikləri vətəndaş müharibəsi kimi qələmə verməyə və bununla da əsl tarixi həqiqəti ört-basdır etməyə çalışırdılar.

Lakin zaman hər şeyi öz yoluna qoydu. Erməni bolşeviklərinin əsl siması məlum oldu. Xalqımızın soyqırımına susamış bu vəhşilər öz tarixi cinayətlərini gizlədə bilmədilər.

1918-ci ilin mart soyqırımı günü vaxtilə Azərbaycan Demokratik Respublikası hökuməti tərəfindən milli matəm günü kimi keçirildi. Bu matəm iki il, yəni 1919 və 1920-ci illərdə Azərbaycanda milli matəm kimi qeyd edildi.

Azərbaycan Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunun əməkdaşları tərəfindən hazırlanan bu kitab həmin sahədə ilk təşəbbüs hesab olunur. Müəlliflər 1918-1920-ci illərdə Azərbaycanın bütün ərazisində Bakı, Quba, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və Zəngəzurda, eləcə də qədim oğuzların yaşayış məskəni olan İrəvan torpağında soykökümüzə qarşı dövlət səviyyəsində həyata keçirilən soyqırımı hadisələrini faktik materiallar əsasında təhlil edərək ümümiləşdirib oxuculara çatdırmağı özlərinə borc bilmişlər.

Şübhəsiz ki, adları çəkilən şəhərlərdə və ərazilərdə törədilən soyqırımı barədə daha böyük həcmli kitablar yazmaq mümkündür. Yəqin ki, tarixçilərimiz bu işin öhdəsindən layiqincə gələcəklər. İndiki halda isə, bu soyqırımı hadisələrini özündə geniş əks etdirən kitabın olmamasını nəzərə alaraq onun tezliklə nəşr olunub oxuculara çatdırılmasını vacib bilmirik. Çünki bu soyqırımı hər bir Azərbaycan vətəndaşının, xüsusilə böyüməkdə olan gənç nəslin qan yaddaşında möhkəmlənməlidir.

## BAKI QIRĞINI

1918-ci il martın sonu, aprelin əvvəlində Bakıda ermənipərəst bolşevik rəhbərliyinin iradəsi və fəal iştirakı ilə milli zəmində törədilmiş dəhşətli qırğın nəticəsində dinc azərbaycanlı əhalidən minlərlə adam ölmüş və yaralanmış, təhqir və işgəncələrə məruz qalmışdır. Tarixə "Mart faciəsi" kimi daxil olmuş bu qanlı hadisə tezliklə Bakı hüdudlarından çox-çox kənara çıxmış, Lənkaranın, Şamaxının və Qubanın tutulması, talan edilməsi və yandırılması, dinc əhalinin amansızcasına məhv edilməsi ilə nəticələnmişdi. Bu məqsədyönlü talanlar, qırğınlar zamanı nə qocaya, nə cavana, nədə körpələrə aman verilməmiş, adamları vəhşicəsinə qətlə yetirilmələri üçün onların müsəlman, azərbaycanlı olmaları tamamilə kafi hesab edilmişdir.

Bu dəhşətli cinayətlərin təşkilatçıları cürbəcür vasitələrlə Leninin rəğbət və etimadını qazanmış Şaumyanın başçılıq etdiyi Bakı bolşevikləri, başlıca icraçıları isə daşnak hərbi hissələri olmuşdur.

Belə bir sual ortaya çıxa bilər ki, bu cür qanlı cinayətə əl atmaq, yaxud da ona göz yummaq məgər bolşeviklərə çoxmu gərək idi? Axı, onlar artıq beş aydan artıq idi ki, hakimiyyəti ələ keçirmişdilər. Məgər onlar düşünmürdülərmi ki, törətdikləri qanlı cinayətlərdən ötrü, nə vaxtsa cavab verməli olacaqlar?

Bu suallara cavab vermək üçün bolşeviklərin Bakıda hakimiyyətə gəlmələri, hansı ictimai-siyasi qüvvələr tərəfindən müdafiə olunmaları, yerli əhaliyə-azərbaycanlılara, onların ictimai-siyasi təşkilatçılarına münasibəti məsələlərini bir qədər geniş şərh etmək lazımdır.

Tarixdən yaxşı məlumdur ki, hər yerdə olduğu kimi, Bakıda da bolşeviklərin hakimiyyətə gəlməsi heç vaxt demokratik ənənələrə əsaslanmamış, yəni geniş əhali kütləsinin onları müdafiə etməsinin nəticəsi olmamışdır. Sadəcə olaraq, Bakı bolşevikləri Rusiyada 1917-ci il oktyabr çevrilişi ərəfəsində yaranmış qarışıqlıq zamanı özlərinə xas olan demoqoqluq məharətlərini ustalıqla işə salaraq elə həmin ayın 13-də Bakı Sovetinin İcraiyyə Komitəsini istefa verməyə məcbur etmiş, oktyabrın 15-də isə Bakı Soveti ilə mədən-zavod komissiyaları konfransının birgə iclasını keçirərək müvəqqəti geniş Bakı Soveti yaradılmasına nail olmuşdular. Həmin dövrdə bolşeviklərin Bakı proletariatı arasında nüfuzuna gəlincə, göstərmək olar ki, onlar bu məsələdə təkcə özlərini tamam hörmətdən salmış menşevikləri arxada qoya bilmişdilər. Qalan partiyalarla, xüsusən "Müsavat" partiyası ilə müqayisədə onların nüfuzundan heç danışmağına dəyməzdi. Sözlərimizin təsdiqi üçün 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilmiş yeni seçkilərin nəticələrinə nəzər salaq. Həmin nəticələrə görə partiyalar arasında seçicilərin səsləri aşağıdakı qaydada müəyyənləşdirilmişdi:

Müsavat - 9617səs
Bolşeviklər - 3623 səs

Eserlər - 6305 səs
Menşeviklər - 687 səs
Daşnaksütyun - 5288 səs.

Göründüyü kimi, seçkilər zamanı digər partiyalarla müqayisədə bolşeviklərin topladığı səslər xeyli miskin nəzərə çarpır. Bunun tam əksinə olaraq, "Müsavat"ın çoxmillətli proletar Bakısında ümumi səslərin 40 faizini toplaması bu partiyanın reytinqinin yüksək olduğunu göstərirdi. Lakin məhz "Müsavat"ın Bakı Sovetinin və onun İcraiyyə Komitəsinin tərkibinə daxil olmaqdan imtina etməsi eser və daşnaklarla ümumi dil tapmaqda çətinlik çəkməyən bolşeviklərin işini xeyli yüngülləşdirmişdir. Əgər bura, demoqoq şüarlarla Bakı proletariatının iqtisadi vəziyyətinin tezliklə düzələcəyini bəyan edən vədləri də əlavə etsək, o zaman aydın olar ki, niyə Rusiyada 1917-ci il oktyabr çevrilişindən az sonra-oktyabrın 31-də Bakı Soveti Bakı rayonunda bütün hakimiyyətin Sovetlərin əlinə keçməsini zəruri sayan bolşevik qətnaməsini qəbul etmiş, noyabrın 2-də isə şəhər ərazisində S. Şaumyanın başçılığı ilə Sovet hakimiyyati elan edilməsinə səs vermişdi. Beləliklə, 22 oktyabr seçkilərinin ziddinə olaraq, səslərin heç 15 faizini də qazanmamış bir partiya, əslində, Bakı şəhərində real hakimiyyətə sahib olmuşdu. Bəs ən güclü müxalifət partiyası olan "Müsavat"ın hadisələrin bu məcrada cərəyan etməsinə münasibəti necə idi? Bu suala partiyanın lideri M.Ə.Rəsulzadənin sözləri ilə cavab verək: "Müsavat partiyası hakimiyyətin Sovetlərə verilməsinə prinsipcə etiraz etmir, lakin Bakı Soveti demokratik əsaslarla seçilmədiyindən, həmçinin, onda kəndlilər təmsil olunmadığından "Müsavat" hakimiyyətin göstərilən Sovetə verilməsinə etiraz edir və onun İcraiyyə Komitəsinə daxil olmayacaqdır".

Əlbəttə, əvvəllər, "Müsavat"ın geniş kütlələr, xüsusilə də Azərbaycan kəndliləri arasındakı böyük nüfuzundan qorxaraq, onun mövqeyinə sakit yanaşmağa üstünlük verən, daha çox hakimiyyəti öz əllərində cəmləşdirmək qayğısına qalan bolşeviklər, zaman keçdikcə, öz narahatçılıqlarını büruzə verməyə başlayırdılar. "Müsavat"ın, demək olar ki, gündən-günə artan nüfuzu onların hakimiyyətdə möhkəmlənmək arzusunun gerçəkləşməsi yolunda ciddi maneəyə çevrilmişdi. Bunu S.Şaumyan da etiraf etməyə məcbur olmuşdu. O, göstərmişdi ki, əvvəllər Zaqafqaziyada ən zəif partiya sayılan "Müsavat" Rusiyada fevral inqilabından bir il keçdikdən sonra Zaqafqaziyanın ən güclü siyasi partiyasına çevrilmişdi.

1918-ci il noyabrın 15-də S.Şaumyanın V.İ.Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin olunması və ona rus qoşunlarının işğal etdiyi Türkiyə Ermənistanın muxtariyyət və istiqlalını təmin etmək üçün fərman təqdim edilməsi vəziyyəti əsaslı surətdə dəyişdi. İndi arxasında Leninin nəfəsini duyan Şaumyan "Müsavat"a qarşı daha sərt mövqedən çıxış etməyə başladı. Hadisələrin sonrakı gedişi də bu münasibətləri kəskinləşdirməyə bilməzdi.

Hələ 1917-ci il noyabrın 9- 12-də "Müsavat"ın rəhbərliyi ilə Zaqafqaziya müsəlman milli komitələrinin Bakıda keçirilmiş konfransında azərbaycanlıların öz müqəddəratını təyinetmə hüququnu reallaşdırmaq və Azərbaycanın muxtariyyətinə nail olmaq məqsədilə Milli Müəssisələr Məclisini çağırmaq haqqında qərarı Şaumyanın qəzəbinə səbəb olmaya bilməzdi. Çünki o, bura Bakı neftinin qeyd-şərtsiz Rusiyaya axıdılmasına nail olmaq və Türkiyə, torpaqlarında ermənilərin muxtariyyəti məsələsini həll etmək üçün gəlmişdi.

Millətçilik mərəzinə tutulmuş bu adam "Azərbaycan" sözü barədə eşitmək belə istəmirdi. O, heç cür başa düşmək istəmirdi ki, Azərbaycan adlı ərazi, onun yerli əhalisi vardır, bu müstəqil bir xalqdır və onun da öz müqəddəratını təyinetmə hüqunu təmin edilməlidir.

"Müsavat"la Bakıdakı oyuncaq Sovet hakimiyyəti arasında düşmənçiliyi artıran ikinci güclü hadisə 1917-ci il noyabrın 26-28-də Zaqafqaziyada Müəssislər Məclisinə keçirilən seçkilər oldu. Seçkilərdə iştirak etmiş 2455274 nəfər seçicidən 615816 nəfəri "Müsavat"a, 159270 nəfəri isə Müsəlman Sosialist Blokuna səs vermişdi. Bolşeviklər isə bütün Zaqafqaziyada yalnız 95581 səs toplaya bilmişdilər. Seçkilərin nəticələri bir daha təsdiq etmişdi ki, bolşeviklər Zaqafqaziyada çox zəif ictimai bazaya malikdirlər və yalan vədlər hesabına hakimiyyətə gəldikləri Bakı rayonundan başqa digər heç bir yerdə nüfuza malik deyildilər. Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin və onun İcraiyyə Komitəsinin Bakının özündə də mövqeyinin kifayət qədər möhkəm olmadığını isə belə bir faktdan aydın görmək olar ki, bolşeviklərin 5 aylıq hakiməyyətləri dövründə (1918-ci il mart faciəsinə qədər) onlar şəhərdəki vəziyyətə tam nəzarət etməyə nail ola bilməmişdilər. Sovet hakimiyyəti kapitalistlərin müqavimətini qıra bilməmiş, şəhər dumasının və milli şuraların fəaliyyətini dayandırmamış, milli qoşun hissələrini tərkisilah etməmişdi. Şəhər duması maliyyə işlərinə rəhbərliyi əlində saxlayır, kağız pullar buraxmaqda davam edir, şəhər nəqliyyatına nəzarəti həyata keçirirdi.

Deməli, real hakimiyyətə yiyələnmək üçün Bakı Soveti, onun İcraiyyə Komitəsi birinci növbədə ciddi siyasi qüvvə olub, qısa müddətdə təkcə azərbaycanlılar arasında deyil, digər müsəlman xalqları arasında da böyük nüfuz qazanmış "Müsavat"ı öz yolundan kənar etməliydi.

Yuxarıda deyllənlərdən aydın olduğu kimi, bunu dinc vasitələrlə həyata keçirmək bolşeviklər üçün sadəcə olaraq imkan xaricində idi. Belə olan halda bolşevik rejimi üçün səciyyəvi olan bir yol-zorakılıq yolu qalırdı. Bunun üçün isə, ən əvvəl döyüş qabiliyyətli silahlı qüvvələrə malik olmaq, sonra isə əməliyyatlara "özünüm müdafiə" donu geyindirməklə onun labüdlüyün və proletariatın mənafeyinə xidmət etdiyini sübuta yetirmək tələb olunurdu.

Bəs facıə ərəfəsində Bakı Soveti öz bədxah niyyətlərini həyata keçirmək üçün: real silahlı qüvvələrə malik idimi? Faktlar bu suala müsbət cavab verir. Faciə ərəfəsində Bakı Soveti rəhbərliyi özünün sərəncamında olan silahlı qüvvələrin

təşkili və təchizatı sahəsində xeyli iş görə bilmişdi. Şaumyan bu məqsədlə RSFSR hökumətinə müraciət etmiş və kifayət qədər döyüş sursatı, göndərilməsinə nail olmuşdu. Bakı Soveti qoşunlarının sərəncamına hətta top, zirehli maşın və təyyarələr də göndərilmişdi.

Lakin bütün müsəlman əhalisini fəal müdafiə etdiyi müsavatçılara qarşı gələcək hərbi əməliyyatlarda Bakı Soveti qoşunlarının kifayət edəcəyinə əmin olmayan Şaumyan faciə ərəfəsində daşnaklarla taktiki ittifaqa girməyi də unutmamışdı. Onu da qeyd edək ki, həmin dövrdə Bakıda daşnakların sayı 4 min nəfərdən artıq olan yaxşı silahlanmış silahlı qüvvələri var idi. Daşnaksütyun liderləri öz ənənələrinə sadiq qalaraq Rusiyada mərkəzi hökumətə, Gürcüstanda menşeviklərə, Bakıda isə onların "əbədi" milli ehtiyaclarına həssaslıqla yanaşan Şaumyan hökumətinə eyni dərəcədə yaltaqlıqla qulluq göstərirdilər. Elə Şaumyanın özü də görkəmli daşnak liderləri ilə sıx əlaqə şəraitində işləməyi bir an belə unutmurdu. Bunun müqabilində Şaumyanda azərbaycanlılara nifrət hissi o qədər güclü idi ki, hətta bu sahədə daşnaklar belə ona həsəd apara bilərdilər. İş o yerə çatmışdı ki, Şaumyan ömrü boyu qul kimi itaətində durduğu Leninin də azərbaycanlıların muxtariyyəti məsələsinə diqqətlə yanaşmaq barədəki məsləhətinə əməl etməyi mümkün saymamışdı. Axı, 1918-ci il martın 18-də V.İ.Lenin və RK(b)P Mərkəzi Komitəsinin tapşırığı ilə İ.V.Stalinin "Stepana, Alyoşaya, başqa yoldaşlara" məktubunda aydınca yazılmışdı ki, "Müsəlmanlar muxtariyyət tələb etsələr mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz olaraq qəbul etmək razılığını almaqla, onlara muxtariyyət vermək lazımdır". Lakin Şaumyan bunları qulaqardına vurmuşdu. Daha sonra, həmin dövrdə Bakıda İran və Qərb cəbhəsindən qayıdan 7000 nəfərə qədər rus əsgəri (bunların da müəyyən hissəsi, bir neçə polkun isə hətta rəisləri ermənilərdən ibarətdi) ilişib qalmış, dəmir yolu bağlı olduğu üçün evlərinə gedə bilməmişdilər. Bolşeviklərin təşviqatı da bu işdə öz mənfur rolunu oynamış və sonralar həmin əsgərlərin bir çoxundan müsəlmanlara qarşı hərbi əməliyyatlarda istifadə olunmuşdu. Xəzər hərbi donanmasının matrosları eserlərin təsiri altında olduqlarından onların da gec-tez Bakı Sovetinin tərəfində vuruşacağı şübhə doğurmurdu. Öz növbəsində menşeviklər də Bakı Sovetini müdafiə etdiklərini gizlətmirdilər.

Ən dəhşətlisi bu idi ki, mart faciəsi ərəfəsində sayı 6 min nəfərə çatan Bakı Soveti silahlı qüvvələrinin, istər tərkibinin, istərsə də komandir heyətinin müəyyən hissəsini erməni millətindən olanlar təşkil edirdilər. Bunların arasında Bakı Soveti Qızıl Ordu qərargahının rəisi, çar ordusunun polkovniki "Daşnaksütyun" partiyasının üzvü Z.Avatisyan, 3-cü briqadanın komandanı Amazasp, daşnak partiyasının digər üzvü, qızıl qvardiyaçıların ümumi dəstəsinin başçısı, çar ordusunun məlum polkovniki Kazarov və başqaları var idi. Buradan məlum olurdu ki, daşnak qoşunlarından əlavə, Bakıda Qızıl Ordu sıralarında xidmət edənlərin də bir çoxu "Daşnaksütyun" partiyasının nəzarətinə tabe edilmişdi.

Beləliklə, yuxarıda göstərilənlərdən aydın olduğu kimi, mart faciəsi ərəfəsində Bakıda hərbi qüvvələr nisbəti müsavatçıların tam zərərinə olmuşdu. Daha doğrusu, bir tərəf müharibəyə yaxşı hazırlanmış özünün hərbi imkanlarını hərtərəfli ölçüb-biçmiş, toqquşma başlayarsa, müttəfiqlərinin kimlərdən ibarət olacağını dəqiq müəyyənləşdirmiş, digər tərəf isə, yarımçıq hərbi hazırlıq görmüş əsgərlərinin çoxluq təşkil etməsi, hərbi əməliyyatların gedişi planının olmaması, intizamın zəifliyi, pis silahlanmaları, ağır silahlarının isə, demək olar ki, olmaması ucbatından çox çətin vəziyyətə düşmüşdü. Toqquşma ərəfəsində hər iki tərəfin silahlı qüvvələrinin sayca bərabər olmasına (hər tərəfdən on min nəfər) dair indiyə qədər tarix ədəbiyyatında verilmiş rəqəmlərin dəqiqliyi barədə isə heç söhbət də ola bilməz. İstər canlı qüvvə, istərsə də texnika sahəsində hərbi üstünlük Bakı Soveti qoşunları tərəfində olmuşdur. Təsadüfi deyildir ki, mart faciəsi ərəfəsində bir tərəf (Bakı Soveti) müharibəni udacağına tam arxayın olduğu üçün onu tezliklə başlayıb, qalibiyyətlə qurtarmağa can atırdısa (hərbi toqquşmaların milli münaqişə zəminine keçə biləcəyi barədə N. Nərimanovun xəbərdarlıq və yalvarışlarına baxmayaraq), digər tərəf (müsavatçılar) şəhərdəki hərbi qüvvələr nisbətinin onlar üçün əlverişli olmadığını tamamilə dərk edərək hərbi-toqquşmaya yol verməmək, ya da heç olmazsa, onu bir qədər yubatmağa nail olmaqla, dinc əhalini, xüsusilə də qocaları, uşaqları, qadınları şəhər ətrafında yerləşdirmək üçün vaxt qazanmaq barədə daha çox düşünürdülər.

Nə qədər acınacaqlı olsa da, etiraf edilməlidir ki, müsavatçılar məğlub olacaqlarını sanki əvvəlcədən bilə-bilə həmin dəhşətli faciəyə cəlb edilmişdilər. Görünür, bu məsələdə erməni milli şurası üzvlərinin və daşnak liderlərinin xəyanətkar rolu da az iş görməmişdir. Onlar müsavatçıları Bakı Soveti ilə silahlı toqquşmaya təhrik etmək üçün özlərinə məxsus riyakarlıq, xainlik keyfiyyətlərindən bütün səviyyələrdə istifadə etmişdilər. Onlar əvvəlcə bolşeviklərlə mübarizədə müsavatçılarla ittifaqa girməyə hazır olduqlarını bildirmiş, sonra isə bitərəf qalacaqlarına söz vermişdilər. Səmimilikdən uzaq olmuş bu adamlar özlərinin əsl niyyətlərini isə, həmişə olduğu kimi, gizli saxlamışdılar. İndi isə faciə ərəfəsində erməni liderlərinin "diplomatik fəallığını" əks etdirən bir neçə fakta nəzər salaq:

"...Martın 18-də keçmiş şəhər rəisi Qaik müsəlmanların iclası keçirilən İslamiyyə binasına gələrək erməni milli şurası və daşnaksütyun partiyasının adından bildirmişdi ki, hərgah müsəlmanlar bolşeviklərin əleyhinə çıxsalar, onda erməni qoşun hissələri müsəlmanlara qoşunları və bolşevikləri Bakıdan qovub çıxarmaqda onlara kömək edər".

"Erməni milli şurasının başqa bir nümayəndəsi Ter Zaxaryan həmin gün müsəlman milli şurası və müsavat partiyasının binasına gələrək demişdi ki, daşnaklar müsavatçılarla birlikdə bolşeviklərin əleyhinə çıxmaq üçün məsləhətləşmək istəyirlər. Ter-Zaxaryan əlavə etmişdi ki, bu mübarizə siyasi əqidələr üstündə mübarizədir, müsəlman və erməni milli şuraları çıxış etmək üçün

sazişə gələ bilərlər. (Sitatlar Z.İ.İbrahimovun "Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi" (Bakı, 1957) kitabından götürülmüşdür).

Bəs ümumi düşmənə, (Sovet hakimiyyətinə) qarşı birgə çıxış müqabilində onlar hansı şərtlər irəli sürürdülər? Erməni milli şurasının da, daşnakların da başlıca şərti bundan ibarətdi ki, bolşeviklər qovulduqdan sonra Bakıda müsavat-daşnak hökuməti yaradılsın. Deməli, nə az, nə çox, müsavatçılar doğma şəhərləri olan Bakının idarə olunmasında ermənilərin də tam səlahiyyəti olduğunu rəsmi qaydada təsdiq etməli idilər. Əlbəttə, müsavatçılar belə milli xəyanət yolunu tuta bilməzdilər. Bunu, yəqin ki, həmin qəbuledilməz təklifi irəli sürənlər də yaxşı bilirdilər.

Müsavatçıların qəti mövqeyi ilə rastlaşan daşnaklar heç də "ruhdan düşmədilər". Onlar təhrikçilik əməllərini davam etdirərək yeni bir təklif irəli sürdülər. Həmin təklifin mahiyyəti bundan ibarətdi ki, müsavatçılarla bolşeviklər arasında vuruşmalar başlanacağı təqdirdə daşnaklar bitərəf qalacaqlar və guya rəğbət bəslədikləri azərbaycanlılara silah verməklə yardım göstərəcəklər. Bu təklif də riyakarlıqdan başqa bir şey deyildi. Əslində isə onların azərbaycanlılara silah vermək niyyətləri belə yox idi. O ki, qaldı, bitərəf qalmağa, mart hadisələrinin bütün sonrakı faciəli gedişi bu "bitərəfliyə" neçə "vicdanla" əməl olunduğuna şəhadət vermişdi. Deməli, bu təklif də sonrakı hadisələrin bir daha təsdiq etdiyi kimi, yalnız müsavatçılarla bolşevikləri toqquşdurmağa, müsavat hərbi hissələrini Bakı Soveti qoşunlarının əli ilə tərksilah etməyə, dinc müsəlman əhalisinə divan tutmağa yönəldilmişdi.

Deyildiyi kimi, müsavatçılar yaxınlaşmaqda olan fəlakəti görməyə bilməzdilər. Şəhərdə çoxlu erməni silahlı dəstələrinin toplanması azərbaycanlı əhalisinin əhval-ruhiyyəsinə son dərəcə mənfi təsir göstərirdi, onların bir çoxu sürətlə şəhəri tərk etməkdə idi. Beləliklə, şəhərdəki əhali tarazlığı pozulurdu. Müsavatçılar buna yol verməmək üçün öz qəzetləri "Açıq söz" vasitəsilə əhaliyə müraciət edərək onları fitnələrə uymamağa, sabitliş qoruyub saxlamağa çağırmışdılar. Lakin belə bir sabitlik artıq Bakı Sovetinin rəhbərliyini təmin etmirdi. Onlar müsavatçıları şəhərin siyasi həyatından tamamilə kənar etmək üçün çox dəhşətli bir plan hazırlamışdılar. Həmin plana görə, kiçik fitnəkarlıqlar törətməklə siyasi şüurca yetişməmiş azərbaycanlı əhalini cavab tədbirlərinə sövq etmək, sonra isə hərbi qüvvə və texnika üstünlüyündən istifadə edərək bütün cəbhə boyu hücuma keçmək və əlbəttə, bu zaman təqsiri müsavatçıların üzərinə yıxmaq nəzərdə tutulurdu. Beləliklə, Bakıda müsavatçıların siyasi rəqiblər siyahısından silinməsi üçün hər şey edilmiş, əməliyyat planları ən xırda təfərüatı ilə işlənib hazırlanmışdı. Güman etməyə tamamilə əsas vardır ki, daşnak hərbi hissələrinin Bakı Soveti tərəfində müharibəyə qoşulacağı məsələsi də hələ hərbi toqquşmalar başlanmazdan xeyli əvvəl azılaşdırılmışdı. Əgər belə olmasaydı, hələ 1918-ci il martın ortalarında Bakı Soveti şəhərin mühasirəsini yarmaq bəhanəsi altında öz qoşunlarını Lənkərana, Şamaxı və Muğan düzünə göndərməyə cəsarət etməzdi.

Erməni milli şurasının və "Daşnaksütyun" partiyası nümayəndələrinin qeyri-məqbul şərtlər irəli sürməklə müsavatçılarla, başladıqları danışıqlar isə, görünür, gözə kül üfürmək və iz azdırmaqdan başqa bir şey deyilmiş.

Bakı faciəsinə başlamaq üçün bəhanə tapmaq çox da çətin olmadı. Çünki Bakı Sovetinin şəhər daxilində dözülməz amirlik mövqeyindən çıxış etməsinin güclənməsi onsuz da müsəlman əhalisi arasında gərginliyi son həddə çatdırmışdı. Lakin Bakı Soveti rəhbərliyinin davakar mövqeyi hər dəfə müsavatçıların sağlam düşüncəyə əsaslanan soyuqqanlı, təmkinli mövqeyi qarşısında öz məqsədinə nail ola bilmirdi. Belə olduqda Bakı Soveti rəhbərliyinin açıq şantaj tədbirinə əl atmaqdan başqa çarəsi qalmadı.

Bakıda vətəndaş müharibəsi adı altında milli qırğının başlanğıcını qoymuş həmin fitnəkar tədbir bundan ibarət olmuşdu ki, 1918-ci il martın 29-da Bakı Soveti İcraiyyə Komitəsinin sərəncamı ilə "Evelina" gəmisində Lənkərana üzməyə hazırlaşan müsəlman diviziyasının ("Dikaya diviziya"nın azərbaycanlı süvari polku nəzərdə tutulur. - K. M.) bir neçə yüz nəfərlik zabit və əsgəri tərksilah edilmişdi. Bu, açıq-aşkar meydan oxumaq, öz gücünü nümayiş etdirmək, əsl amirlik hərəkəti idi. Şəhərdə minlərlə yaxşı silahlanmış daşnak hərbi hissələri sərbəst hərəkət etdikləri halda, müsəlmanların kiçik bir dəstəsinin tərksilah edilməsi müsəlman əhalisi arasında narazılığı artırmış və ciddi etirazlar doğurmuşdu. Çünki bu tədbir, əslində, üstün daşnak hərbi qüvvələri qarşısında şəhərin azərbaycanlı əhalisinin tərksilah edilməsi tələbi idi. Digər tərəfdən bu fitnəkar tədbirin məntiqsizliyi orada özünü göstərirdi ki, axı, müsəlman hərbi hissələri Bakıdan gedirdilər, şəhərə kiməsə köməyə gəlmirdilər.

Martın 30-da səhər tezdən Bakı məscidlərində etiraz mitinqlərinin keçirilməsinə başlandı. Belə bir gərgin şəraitdə "Müsavat" partiyası rəhbərliyinin azərbaycanlı əhalini sakitliyə və əminamanlığa çağırması da arzu olunan nəticəni vermədi. Silahların geri qaytarılması tələbinin uzanması (görünür, N. Nərimanovun vasitəçiliyi ilə bolşeviklərin silahları qaytarmağa əvvəlcə razılaşmaları da onların növbəti fitnəkarlıq manevri olmuşdu) narazılığı son həddə çatdırdı. Günortadan sonra Şamaxı yolunda (C. Cabbarlı küçəsi) və Tatarski küçəsində Qızıl Ordunun süvari hissəsinə fitnəkarların təşkil etdiyi hücum şəhərdə əminamanlığın bərpa olunacağına bütün ümidləri puça çıxardı. Bununla da, Şaumyan və daşnaklar istədiklərinə nail oldular.

Bu hücuma bəndmiş kimi Qızıl Ordu hissələri dərhal müsəlman məhəllələrinə soxularaq fəal hərbi əməliyyatlara başladılar. Sonralar həmin qanlı hadisələrlə bağlı Şaumyanın etirafı məsələnin əsl mahiyyətini dərk etmək üçün çox əhəmiyyətlidir. O yazmışdır: "Biz süvari birləşmələrimizə ilk silahlı basqına qarşı hər cür hazırlıq görmüşdük və dərhal bütün cəbhə boyu hücuma başladıq". Zənnimizcə, bu sözlərin əlavə izaha ehtiyacı yoxdur. Həqiqətən də Şaumyana və onun həmfikirlərinə ilk atəşin hansı tərəfdən açılması olduqca lazım idi ki,

özlərinin çoxdan ürəklərində gəzdirdikləri bədxah niyyətlərini sərbəst həyata keçirsinlər.

Beləliklə, əvvəlcədən hazırlanmış ssenari üzrə Bakı faciəsinin həyata keçirilməsinə başlandı. Elə həmin gün, yəni martın 30-da bolşeviklərin rəhbərliyi ilə Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitənin tərkibinə Şaumyan, Korqanov, Caparidze, Nərimanov, Suxartsev (bu həmin Suxartsev idi ki, mart günlərindən sonra keçirilən bolşevik yığıncaqlarından birində "Müsavat" partiyasının bayrağını çeynəyə-çeynəyə "Türkiyənin Bakı cəbhəsi alındı" - deyə şadlığını bildirmişdi) daxil edilmiş, sağ eser Saakyan, daşnak Yolçiyan onun işində iştirak etmək üçün dəvət olunmuşdu. Komitənin sərəncamı ilə daşnak Martikyan bolşevik dəstəsinin komandiri təyin edilmişdi. Görünür, komitənin də tərkibi əvvəlcədən hazırlanmış, son məqamda isə Nərimanovun da siyahıya əlavə edilməsi zəruri sayılmışdı.

Bolşeviklərin daşnaklar, sağ eserlər və başqa anti azərbaycanlı qüvvələrlə əlbir işlədiyini belə bir faktdan da aydın görmək olar ki, İnqilabi Müdafiə Komitəsinin "inqilaba sadiq qüvvələrə" müraciətindən dərhal, sonra, martın 31-də "bitərəflər" - daşnak hərbi hissələri və Xəzər hərbi donanması matrosları Bakı Soveti tərəfində vuruşacaqlarını bildirmiş və fəal surətdə hərbi əməliyyatlara qoşulmuşdular. Həmin "inqilaba sadiq qüvvələrin" həmrəyliyi sovet qoşunlarına elə həmin gün müsavatçıların qeyri-mütəşəkkil silahlı qüvvələrinə qarşı bütün cəbhə boyu qəti hucuma keçməyə imkan vermişdi. Döyüşlərdə zirehli maşınlardan, top və aviasiyadan istifadə edilməsi azərbaycanlı əhali arasında çaşqınlıq yaratmış, qorxu və təlaşa səbəb olmuşdu. Axı, kim güman edə bilərdi ki, kiçik bir münaqişə şəhər hüdudları daxilində dinc əhalinin gözü qarşısında əsl müasir müharibəyə çevriləcəkdir. Bakı Soveti qoşunlarının sərəncamında olan topların lülələri şəhərin müsəlman məhəllələrinə tərəf tuşlandı, hərbi gəmilərin topları isə şəhərin yuxarı məhəllələrini atəşə tutmağa başladılar. Onlar hətta tarixi binaları, məscidləri belə dağıtmaqdan çəkinmirdilər. Müsavatçıların səngər etdikləri İçərişəhər ətrafında, Şamaxı yolunda və şəhərin digər hissələrində şiddətli küçə vuruşmaları başlandı. Dinc, əhali arasında ölənlər və yaralananlar çox idi.

Düşmənin üstün qüvvələri qarşısında müqavimət göstərməyin yalnız günahsız qurbanların sayını artıra biləcəyini görən müsavatçılar martın 31-də atəşi dayandıraraq sülh danışıqlarına başlamağı təklif etdilər. İnqilabi Müdafiə Komitəsinin ultimatumu (Bakı Soveti Hakimiyyətinin qeyd-şərtsiz tanınması və onun sərəncamlarına tam tabelik; müsəlman hərbi birləşmələrin, bunun ardınca isə erməni qüvvələrinin şəhərdən çıxarılması; Bakıdan Tiflisə və Petrovska dəmir yolunun açılması) müsavat rəhbərliyi tərəfindən qəbul edildi. Bununla da güman etmək olardı ki, bolşeviklərlə ilk hərbi toqquşmada hədsiz olmasa da, xeyli qurban vermiş azərbaycanlılar) yenidən dinc yaşayış dövrünə qayıda biləcəklər. Lakin hadisələrin əsl faciəli davamı ultimatumun qəbulundan sonra, daşnak-bolşevik

ittifaqının şəhərin müsəlman hissələrində qarətlər, yanğınlar, qətllər törətməsi ilə baş verdi.

Müsavat hərbi birləşmələrinin şəhərdən çıxarılmasına nail olmuş daşnak hissələri elə martın 31-də şəhərdə fitnə-fəsad, nizamsızlıq törətməyə, milli qırğını qızışdırmağa əl atdılar. Onlar şəhərdə dinc əhalini talan edir və öldürürdülər. Beləliklə, İnqilabi Müdafiə Komitəsinin irəli sürdüyü şərtlərin müsavatçılar tərəfindən imzalanması və yerinə yetirilməsi silahlı toqquşmalara son qoya bilmədi. Bakı bolşeviklərinin xəyanətkar, ermənipərəst mövqe tutmaları daşnakların əl qolunu açmış, dinc azərbaycanlı əhaliyə vəhşi üsullarla divan tutmaq üçün onlara hədsiz imkanlar vermişdi. Daşnak dəstələrindən olan talançılar və soyğunçular özləri yandırır, dinc əhalini qarət edib qırırdılar. Onlar uşaqları, körpələri süngülərə taxıb göyə qaldırır, qadınları saçlarından bağlayıb küçə boyu çılpaq qaçmağa məcbur edir, qocalara rəhm etmirdilər. Bu insanabənzərlər, hətta adamları öldürməklə kifayətlənmir, onların qulaqlarını, burunlarını kəsir, qarınlarını yırtır və sair vəhşiliklər törədirdilər. Bunlar barədə o dövr hadisələrinin salamat qalmış bir çox şahidlərinin söylədiklərini sakitcə dinləmək sadəcə mümkün deyildir. Bu vəhşilikləri öz gözləri ilə görmüş bir çox xristian əhali nümayəndələri da həmin qeyri-insani hərəkətlər barədə əsl həqiqəti tam çılpaqlığı ilə qələmə almışlar.

Ermənilərin Bakıda törətdikləri özbaşınalıqlar dövründə bir çox görkəmli memarlıq nümunələri dağıdılmış, yandırılmış, yararsız hala salınmışdı. Bunların sırasında Xalq evini, Müsəlman Xeyriyyə Cəmiyyətinin binasını, müsəlman siyasi partiyaları iqamətgahlarını, qəzet - redaksiyalarını (rusca çıxan “Kaspi”, azərbaycanca çıxan “Açıq söz” qəzetləri) göstərmək olar. Bakının ən böyük məscidlərindən biri top mərmiləri ilə dəlik-deşik edilmişdi. Bu vəhşiliklərin nəticəsi olaraq çoxlu azərbaycanlı Bakını və onun neft mədənlərini tərk etməli olmuşdular. Ən görkəmli müsəlman siyasi xadimlər həbs edilmiş və güllələnmişdi. Yerli azərbaycanlı əhalinin rəhmsizliklə məhv edilməsi və öz doğma şəhərindən didərgin salınması, heç şübhəsiz, uzaq məqsədlər güdən, erməni millətçilərinin, siyasi niyyətlərinə xidmət edirdi. Onlar bu yolla Bakını yerli əhalidən təmizləmək, onun sərvətlərinə sahib çıxmaq, hadisələrin özləri üçün sonrakı uğurlu cərəyanı təqdirində isə bu qədim Azərbaycan şəhərini Ermənistan torpağı elan etmək istəyirdilər. Erməni Milli Şurası Bakı bölməsinin göstərişi ilə azərbaycanlılara qarşı vəhşiliklərdə nizami erməni ordusu əsgərlərinin də Bakı ermənilərinə yaxından yardım göstərməsi, erməni qoşunlarına başçılıq edən Amazasp, Stepan Lalayan və başqaları kimi bədnam ad çıxarmış daşnakların şəraitin tələblərindən, bolşeviklərin rəğbətindən istifadə edərək Qızıl Ordunun komandirlərinə çevrilməsi, erməni polkları da daxil olmaqla, bütün milli qoşun dəstələrinin Qızıl Ordu sıralarına cəlb edilməsi nə qədər sərsəm görünsə də, belə bir planın həqiqətən mövcud olduğuna dəlalət edir.

“Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: “Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir”. Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər”. Bu sözlərin müəllifi İnqilabi Müdafiə Komitəsi üzvləri sırasında adı çəkilən Nəriman Nərimanov olmuşdur. Onun münaqişanin ikinci dövrü haqqında bu qeydləri sadəcə daşnaklara qəzəbini ifadə etmirdi, həm də müsəlmanlar əleyhinə bolşevik-daşnak ittifaqına mənfi münasibətini bildirirdi.

Deyildiyi kimi, martın 31 - də müsavatçılar Bakı Sovetinin ultimatumunu qəbul etdikdən sonra sanki şəhər orta əsr qaydaları ilə iki günlüyə qaliblərin ixtiyarına verilmiş və bundan istifadə edən silahlı daşnaklar saysız-hesabsız cinayətlər törətmişdilər. Yalnız ayrı-ayrı yerlərdə azərbaycanlı əhalinin fədakarlıqla müdafiə olunması onların tamamilə məhv edilməsinin qarşısını almışdı. Beləliklə, azərbaycanlı əhali 15 min nəfər itki versə də, öz şərəfinin, ləyaqətinin axıra qədər tapdalanmasına yol verməmişdi (itkilərin sayı barədə rəqəmlər müxtəlifdir).

Bolşevik-daşnak alyansına dair başqa bir nümunə, İnqilabi Müdafiə Komitəsinin, indiyə qədər tarix kitablarında oxuduğumuz kimi, “fəal səyləri sayəsində” guya aprel ayının 2-də Bakı şəhərində qayda-qanun bərpa olunmuş və talanların qarşısı alınmışdı. Əgər erməni milli şurası və daşnak polkları buraxılmamışdısa, deməli, qayğıkeş hamilərin köməyi sayəsində fitnə-fəsad yuvaları və mənbələri saxlanılmışdısa, o zaman qayda-qanunun bərpa olunmasından axı necə danışmaq olardı?

Belə məlum olur ki, İnqilabi Müdafiə Komitəsi yalnız 1918-ci il 18 aprel tarixli məktubunda erməni milli şurasından bir hakimiyyət orqanı (?!) kimi təxirə salınmadan öz varlığına son qoymağı tələb etmiş və ona müsadirə etmək, vergi qoymaq, həbsə almaq, axtarış aparmaq və başqa bu kimi hökumət vəzifələrini (?!) yerinə yetirməyi qadağan etmişdi. Belə çıxmırmı ki, həmin talanlar və qırğınlar bir qədər yüngül formada olsa da, aprelin 18-dək davam etdirilmişdi (bəlkə elə buna görə Şaumyan yalnız qırğının 13-cü günü V.İ.Leninə yazmışdı ki, “Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir”). Yaxud əgər etməni milli şurası hökumət funksiyalarını yerinə yetirirdisə, bu o demək deyildimi ki, Bakıda o vaxt ikihakimiyyətlilik mövcud olmuşdur?

Lakin Bakı bolşevikləri 18 gün sonra verdikləri bu sərəncamın da yerinə yetirilməsində təkid göstərməmişdilər. Hətta daşnak qoşun hissələrinin yenidən təşkil edilərək Sovet qoşunlarına qatılması belə başa çatdırılmamışdı. Nəticədə daşnak polkları əslində mütstəqil və əlahiddə dəstələr kimi qalmış, erməni milli şurası isə öz fəaliyyətini əvvəlki qaydada davam etdirmişdi. Bütün bunlar isə bir məntiqi nəticəyə gəlib çıxmaq üçün tam əsas verir ki, 1918-ci il aprelin 25-də təşkil

edilmiş və fəaliyyətə başlamış Bakı Xalq Komissarları Soveti ilə əslində bolşevik-daşnak alyansının icraedici orqanı olmuşdur.

Elə üç aylıq hakimiyyəti dövründə onun qan və zorakılığa əsaslanmış bütün fəaliyyəti və şərəfsizliklə hakimiyyətdən gedərək öz yerini eser-menşevik-daşnak sağ alyansına təhvil verməsi də bu deyilənlərin bir daha təsdiq edir.

## ŞAMAXI QIRĞINI

XVIII əsrin əvəllərində erməni siyasətbazları İsrail Ori və Minas Tiqranyants Qafqazı, o cümlədən, Azərbaycanı ələ keçirmək üçün I Pyotra müxtəlif işğalçılıq planları hazırlayıb təqdim edərkən, Şamaxı şəhərini qədim erməni şəhəri kimi qələmə verirdilər. Onlar Rusiya imperatoruna göndərdikləri məktublarda bu şəhərin son dərəcə strateji əhmiyyətə malik olduğunu qeyd edir, Şamaxıda xeyli erməni əhalisinin yaşadığını göstərirdilər. Lakin erməni siyasətbazlarının məktublarında Şamaxı şəhərinin Azərbaycanın orta əsrlərdə siyasi-iqtisadi həyatında oynadığı rol, bu qədim tarixə malik yaşayış məskəninin uzun müddət Şərqdə mərkəzi şəhər olması faktı barədə Rusiya imperatoruna heç bir məlumat verilmirdi. Buna görə də elə həmin vaxtdan başlayaraq həm ermənilərin, həm də Rusiya hakim dairələrinin beyninə belə bir yanlış fikir yeridilmişdi ki, guya Şamaxı həqiqətən erməni şəhəri olmuş, sonralar azərbaycanlıların əlinə keçmişdir. Halbuki heç bir rus ziyalısı, erməni millətçisi XII əsrdə Şamaxı şəhərindən çıxmış bir nəfər belə erməni şairinin, mədəniyyət xadiminin adına çəkə bilməz. Çünki bu şəhərdə həmin dövrdə heç bir erməni yaşamayıb. Bu şəhər tarixən Azərbaycan türklərinin yaşayış məskəni olmuşdur. XII əsrdə Şamaxıdan çıxmış bir çox görkəmli şairlər, o cümlədən, Xaqani Şirvani, Fələki Şirvani və bir çox başqa-başqa sənətkarlar bu qədim yaşayış məskəninin yalnız Azərbaycan türklərinə məxsus olduğunu aydın göstərir.

Erməni siyasətbazlarının Şamaxı şəhərini bir obyekt kimi seçib burada qırğın törətmələri heç də təsadüfi deyildir.

Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra onun bir çox şəhərlərində Türkiyədən və İrandan köçürülmüş ermənilər məqsədyönlü şəkildə yerləşdirilməyə başlandı. Bu dövrdə çarizm Azərbaycanda müstəmləkəçilik siyasətini işğal etdikləri torpaqlarda qeyri-müsəlman millətlərini yerləşdirməklə həyata keçirməyə çalışırdı. Çarizmin məhz bu məqsədyönlü siyasəti sayəsində Şamaxı şəhərində də xeyli erməni məskunlaşdırıldı.

Tarixi faktlar aydın göstərir ki, ermənilər bu qırğını həyata keçirmək üçün əvvəlcədən möhkəm hazırlaşmışdılar. Şamaxı şəhəri də başqa iri sənaye mərkəzləri kimi qırğın üçün əsas obyekt seçilmişdi.

Xalqımızın qəddar düşməni olan Stepan Şaumyanın rəhbərliyi altında respublikamızın bir çox ərazisində, eləcə də Şamaxı şəhərində müsəlman əhalisinin qırılması aktı hazırlanıb, 1918-ci ilin ilk aylarından başlayaraq planlı şəkildə

həyata keçirilmişdir. Bolşevik siması altında Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçrən S.Şaumyan öz erməni soydaşları ilə əlaqəyə girərək bu mənhus planı hazırlamışdı. Onun müavini Atabekov bu soyqırımın proqramını hazırladıqca bolşevik maskası arxasında gizlənən daşnak əqidəli S.Şaumyana məlumat verir, ondan lazımi məsləhətlər alırdı. Atabekov məhz S.Şaumyanın yaxından köməyi və məsləhəti ilə Şamaxı qəza rəisinin köməkçiləri Serebryakov və Gülbəndov ilə əlaqə saxlamış, qısa müddət ərzində bu regionda bütün erməni əhalisni qabaqcadan silahlandırmışdı. Cəmi bir həftə ərzində Bakıdan göndərilən xeyli pulemyot və güllə ilə təchiz olunmuş Şamaxının erməni kəndləri mərkəzdən veriləcək əmri gözləyirdilər.

Şamaxı qırğınının başlıca təşkilatçıları bu ərazidə soyqırımı siyasətini həyata keçirmək üçün heç də təkcə erməni kəndlərinə arxalanmırdılar. İllər boyu qonşuluq şəraitində mehribancasına yaşayan bu xalqları birdən-birə düşmən edib ayağa qaldırmaq, bir-birinə qarşı vuruşdurmaq heç də asan məsələ deyildi, hətta soyqırımın təşkilatçıları bu işdə kəndlilərə bir o qədər də bel bağlamırdılar. Onlar bu məqsədlə xüsusi təşkil edilmiş quldur dəstələrinə daha çox ümid bəsləmişdilər. Çünki bu dəstələr başkəsən cəlladlardan təşkil edilmişdi.

Artıq 1918-ci ilin əvvəllərindən etibarən Şamaxının bir sıra kəndlərində soyqırımın həyata keçirilməsi üzrə ciddi hazırlıq işləri görülməyə başlandı. Bakıdan, habelə Ermənistanın müxtəlif nahiyələrindən Mədrə kəndinə, xeyli silahlı erməni dəstəsi gətirildi.

İnsan qanına susamış bu cəlladlar erməni kəndliləri arasında təbliğat işini gücləndirir, onların bu siyasətini rus bolşeviklərinin müdafiə etdiklərini bildirirdilər.

Erməni silahlı dəstələrinin Şamaxıda görünməsi, təbiidir ki, yerli müsəlman əhalisini narahat etməyə bilməzdi. Çünki 1905-1907-ci illərdə baş vermiş qanlı faciələrdən cəmi 10-12 il keçirdi. O vaxt baş verən milli faciənin canlı şahidləri hələ də Şamaxıda yaşayırdılar. Köhnə faciənin yenidən təkrar olunmaq təhlükəsi göz qarşısında idi.

Şəhərin müsəlman əhalisi baş verəcək qırğının qarşısını almaq məqsədilə təcili olaraq ermənilərlə danışıqlar aparılmasını zəruri hesab etdi. Məsləhətləşib öz aralarından nümayəndə heyəti ayırdılar və Mədrəsə kəndinə göndərdilər.

Erməni silahlı qüvvələrinin başçıları öz milli psixologiyalarına uyğun olaraq müsəlmanlara yalandan vəd verdilər, arxayın etdilər ki, guya onların yerli Azərbaycan əhalisi ilə heç bir işi olmayacaqdır. Riyakarlıqdan uzaq olan azərbaycanlılar ermənilərin bu vədlərinə inandılar.

Lakin erməni məkri çox davam edə bilmədi, danışıqlar hələ başa çatmamış azğın erməni quldurları öz vəhşi niyyətlərini həyata keçirməyə başladılar. Tezliklə Şamaxı şəhəri top atəşinə tutuldu. Axşamüstü isə silahlı erməni dəstələri şəhərə daxil olub, əvvəlcədən nəzərdə tutduqları qırğını həyata keçirtdilər.

İki gün ərzində şəhərdə azərbaycanlıların evi yandırıldı, talan edildi, günahsız insanlar amansızcasına qətlə yetirildilər.

Heç bir silahı olmayan dinc əhali özünü müdafiə edə bilmədi.

Hadisənin üçüncü günü soyqırımı müvəqqəti olaraq dayandırıldı. Vahimə içində olan şəhər əhalisi qorxudan küçəyə çıxa bilmir, müqavimət göstərmirdi. Hadisələrin qarışıqlığından istifadə edən ermənilər Şamaxıda özlərinin yerli hökumətini yaratdılar. Qondarma erməni hökuməti hamıya evdə oturmaq, küçəyə çıxmamaq barədə göstəriş verdi. Əhaliyə belə bir fikir aşılandı ki, küçəyə çıxmayanlara qarşı heç bir cəza tədbirləri görülməyəcəkdir. Əslində isə bu, qondarma erməni hökumətinin məkrli niyyəti idi. Bir qədər sonra bu niyyət üzə çıxdı. Şəhərə tam hakim kəsildikdən, yəni yiyələndikdən sonra erməni silahlı dəstələri salamat qalmış, yandırılmamış müsəlman evlərinə soxuldular, silah, hədə qorxu gücünə soyğunçuluq etməyə başladılar. Onlar kişiləri guya "idarəyə aparırıq" adı ilə evdən çıxarıb kütləvi şəkildə öldürdülər.

Şamaxı qırğınının sədası tezliklə hər tərəfə yayıldı. Ermənilər Gəncədən müsəlmanların silahlı dəstələri gələnə qədər öz çirkin fəaliyyətlərinin davam etdirir, hər yerdə azərbaycanlıları vəhşicəsinə öldürürdülər. Gəncədən köməyə gələn silahlı dəstələr Şamaxı şəhərini tezliklə bu qaniçənlərdən azad etdilər. Xalq bu qırğın zamanı qətlə yetirilənləri hələ ayırd etməmiş, dəfn eləməyə macal tapmamış Bakıdan gələn erməni silahlı dəstələrinin təzyiqi altında Gəncə silahlıları şəhəri tərk etməyə məcbur oldular, Şamaxı yenə də ermənilərin əlinə Şamaxı əhalisinin başına bu dəfə daha dəhşətli bəlalar açıldı. Şəhərdən qaça azərbaycanlılar qarşılarına çıxan müsəlman əhalisinə öz canlarını xilas etməyə, Şamaxının mərkəzində ermənilərin görünməmiş vəhşiliklər elədiuini bildirdilər. Amma - Göyçaydan gəlmiş bir nəfər axund bu şayiələrə inanıb qaçmamağı, ermənilərlə danışıqlar aparacağını və bundan sonra müsəlman əhalisinə heç bir xətər toxunmayacağını vəd etdi.

Başlarına min bir müsibət gətirilən azərbaycanlılar axundun dediyinə, danışıqların bir səmərə verəcəyinə inanıb qaçmadılar. Şəhər sakinlərinin xeyli hissəsi ev eşiklərini tərk etməyib daha bu dəhşətli qırğına məruz qalmayacaqlarına inandılar.

Bir neçə gün sonra isə Şamaxı ikinci dəfə qan ocağına çevrildi. Azərbaycanın başqa ərazilərində qırğınlar törədən erməni quldurları Şamaxıda misli görünməmiş cinayətlərə əl atdılar. Onlar qadınların və kişiləri tənasüf üzvlərini kəsmiş, körpə uşaqları yerə mıxlamış, meyidlərin başına min bir oyun açmışdılar.

Əhalinin qabağını kəsib şəhərdən çıxmağa qoymayan, onlara şirin vədlər verən axundun özü də ermənilərin qəzəbinə düçar olmuşdu. Əvvəlcə onun dilini, qulaqlarını, burnunu kəsmiş, sonra isə başının dərisini soymuşdular.

Şamaxı qırğınının başlıca təşkilatçılarından biri Stepan Lalayev, Samson Aspirov və Saatsazbəyov ilə birlikdə böyük bir erməni silahlı dəstəsi şəhərə

gələrək yerli erməni sakinlərinin başçısı Gülbəndov və başqalarına məscidi mühasirəyə almağı tapşırdı. S.Lalayev yaxşı bilirdi ki, Azərbaycan əhalisinin böyük bir qismi-qocalar, qadınlar və uşaqlar qırğından salamat qalmaq üçün Allahın evinə-məscidə pənah gətirib, burada gizlənmişlər. Qaniçən quldur azərbaycanlıları öldürməkdən həzz alırdı. O, məscidi yandırmağı, eşiyə çıxanlara aman vermədən güllə ilə öldürməyi əmr eləmişdi.

Məscidə toplanmış yüzlərlə dinc əhali, xüsusən qocalar, qadınlar, uşaqlar, bir sözlə, dəhşətli qırğından qaçıb canlarını xilas edə bilməyən və ümidlərini Allahın dərgahına bağlayan günahsız insanlar diri-diri bu məsciddə yandırıldılar. Eşiyə qaçmaq istəyənlər isə dərhal güllələndilər.

S.Lalayevi əmri ilə erməni quldurları cavan qadınları, qızları onun Şamaxıdakı evinə aparırdılar. Burada onları soyunduraraq, əvvəlcə spirtli içki içdirir, sonra da silah gücünə onları zurna altında rəqs elətdirir, elə oradaca zorlayır və bir qismini öldürür, bir qismini isə hündür eyvandan küçəyə atırdılar. Şamaxıya türk qoşunlarının gəlməsi ilə bu qadınlardan cəmi 8 nəfəri xilas edilə bildi. Erməni azğınları bu köməksiz qadınları, qızları öz vəhşətlərinin, ehtiraslarının qurbanı etdikdən sonra, vəhşicəsinə öldürmüşdülər.

S.Lalayev Şamaxı əhalisinin əlindən çox yanıqlı idi. 1905-ci ildə baş vermiş erməni-müsəlman qırğını zamanı onun atası və əmisi müsəlmanlar tərəfindən öldürülmüşdü. Həmin dövrdə Atabekov isə Şamaxı müsəlmanlarının köməyi sayəsində şəhər komissarı vəzifəsindən çıxarılmışdı.

Hər iki cəllad bu tarixi faktı yaddan çıxarmayıb, əllərinə fürsət düşən kimi Şamaxı əhalisindən bu cür qisas aldılar, onlar minlərlə günahsız insanı vəhşicəsinə qətlə yetirdilər, evlərini yandırdılar, kəndlərini dağıtdılar. Bir sözlə, Şamaxı şəhəri görünməmiş faciələrlə qarşılaşdı.

Bu qanlı hadisədən bir neçə ay sonra, Şamaxı qırğınından xilas olmuş Hacı Soltan Zamanov, Hacı Mir İsmayıl və başqaları Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı Tomsona yazdıqları məktubda Stepan Lalayev barədə bildirirdilər ki, vəhşiləşmiş bu insanı şamaxılıların başına gətirdiyi müsibətlərə görə hərbi məhkəməyə vermək lazımdır. Məktubda göstərilir ki, S.Lalayev mart ayında özü quldur dəstəsi ilə Şamaxıya gələrək bütün kəndləri, yaşayış məskənlərini dağıtmış, yandırmış, əhalisini isə, demək olar, bütünlüklə qırdırmışdır. Bütün kişiləri şəhərdə qılıncdan keçirmiş, hətta oğlan uşaqlarına belə rəhm etməyərək öldürmüşlər. Kişilərin və qadınların gözü qarşısında qadınları, qızları zorlamışlar. Şəhər tam soyulub talandıqdan sonra yandırılmış, bir məscid belə salamat qalmamışdır. Şəhərdə mövcud olan beş min evdən yalnız məktəbin binası salamat qalmışdı. Hazırda Şamaxı şəhəri qəbiristanı xatırladır. Bütün bu faciənin əsas günahkarı yalnız S.Lalayevdir. Belə bir cəllad cəzasız qalmamalıdır.

Şamaxı qırğınında təsadüfən salamat qalmış şahidlər bu qanlı faciənin təfsilatı barədə elə o vaxt hökumət dairələrinə müəyyən məlumat vermişdilər. Bu

gün əlimizdə artıq ifşaedici sənədlərə çevrilmiş bu məlumatlar uzun illər boyu arxivlərdə yatıb qalmış, xalqdan gizlədilmişdir.

Erməni təbliğatçıları bizim əleyhimizə hər cür bədnam məqalələr yazdığı, uşaqlarını türklərə qarşı nifrət ruhunda böyütduyü bir halda, Azərbaycanda başımıza açılmış müsibətləri özündə əks etdirən tarixi sənədlər arxivlərdə öz tədqiqatçılarının yolunu gözləmişdir. Həmin sənədlərin bir neçəsinə diqqət yetirək.

Şamaxı şəhərinin sakini Mövsüm bəy Sadıqbəyov Azərbaycan hökuməti yanında təşkil edilmiş fövqəladə İstintaq Komissiyası tərəfindən dindirilərkən bildirmişdir ki, mən hələ Kürdəmirdə olduğum vaxt eşitdim ki, ermənilər Mədrəsəyə yanvar ayının əvvəllərindən başlayaraq on iki, yaxud on altı araba silah gətirmişlər. Bundan ehtiyat edən müsəlmanlar ermənilərə öz etirazlarını bildirərkən, onlar özünümüdafiə dəstələri yaratmaq üçün hazırlıq gördüklərini, müsəlmanlara heç bir xətər toxunmayacağını demişlər.

1918-ci il martın ortalarında şəhərdə belə bir fikir yayıldı ki, iki min nəfərə yaxın erməni əsgəri silah, hərbi sursat yüklənmiş altmışa yaxın araba ilə Şamaxıya gəlir.

Beləliklə, bu xəbəri eşidən Şamaxının müsəlman əhalisi silah arabalarının gətirilməsinin hər bir vəchlə qarşısını almağa çalışdı. Lakin böyük silahlı qüvvəyə malik olan ermənilər bütün maneələrə baxmayaraq, gətirdikləri yükləri Mədrəsə kəndinə çatdırdılar.

M.Sadıqbəyovun istintaqından məlum olur ki, ermənilər ertəsi gün müsəlman əhalisi ilə danışıqlar aparıb sülh bağlamışlar. Elə bu da onlarda arxayınlıq yaratmışdır. Müsəlmanlar sülh bağlamaqla təhlükənin sovuşduğunu güman etmişlər.

Lakin martın 18-də sübh tezdən ermənilər Mədrəsədə yerləşdirilmiş toplardan Şamaxı şəhərinə atəş açdılar. Yuxudan hövlnak duran şəhər əhli pal-paltarını geyinmədən hara gəldi qaçmağa başladı. Şamaxıda yaşayan molokanlar da ermənilərə qoşularaq şəhərin müsəlman əhalisinə qarşı vuruşdular. Demək olar, heç bir silahlı müqavimətə rast gəlməyən ermənilər şəhərin aşağı hissəsinə daxil oldular. Onlar evlərə soxulub, qabaqlarına çıxan müsəlmanları öldürür, evləri talan etdikdən sonra yandırırdılar.

Bu hadisənin şahidi olan Şamaxı sakini Məhiyyəddin Əfəndi oğlu isə bu barədə belə ifadə vermişdir: “Ermənilər Şamaxını top atəşinə tutduqdan sonra əhali küçəyə qaçdı və gördü ki, erməni silahlıları şəhəri üç tərəfdən, molokanlar isə bir tərəfdən mühasirəyə almışlar. Bir neçə saatdan sonra ermənilər şəhərə basqın edib, evləri yandırmağa və adamları güllələməyə başladılar. Bu qırğına Qavril, Qaraoğlanov, poçt-teleqraf idarəsinin rəisi Gülbəndov, Qaramanov, dəllək Samvel, dəllək Ovanes, Stepan Lalayev, mədrəsəli Sidrak və bir çox başqaları rəhbərlik edirdilər.

Bu qırğından birtəhər canlarını qurtarıb qaçan azərbaycanlılar Kürdəmirdə, Gəncədə özlərinə sığınacaq tapmaqla Şamaxıya erməni əsirliyində qalmış

müsəlmanları xilas etmək üçün lazımi tədbirlər görürdülər. Martın 28-də İsmayıl xan çox da böyük olmayan bir dəstə ilə Şamaxıya daxil oldu. Ermənilər silahlı toqquşmadan ehtiyat edərək Qozluçay kəndinə çəkildilər və burada qüvvə

toplamağa başladılar. İsmayıl xan Qozluçay kəndindən nümayəndə çağırıb erməni quldurlarını təhvil verməyi tələb etdi. Molokanlar vəziyyətin çox kəskin şəkil aldığını görüb onlara iki gün möhlət verilməsini bildirdilər. İki gündən sonra isə molokanlar erməniləri verməyəcəklərini və onlarla birgə Şamaxıdan gedəcəklərn barədə xəbər göndərdilər.

İsmayıl xan məcburiyyət qarşısında qalıb Qozluçaykəndi üzərinə hücum əmri verdi. Lakin atışma başladıqdan bir qədər sonra o, erməni silahlı qüvvələrinin ona üstün gələcəyini görüb, Şamaxıya geri çəkildi.

Həqiqətən, ermənilərin hərbi qüvvəsi İsmayıl xanın dəstəsindən bir neçə dəfə çox idi. İsmayıl xanın dəstəsi elə həmin gün axşamüstü Şamaxını tərk elədi. Yenidən Şamaxının qara günləri başlandı.

Gəncə silahlı qüvvələrinin başçısı İsmayıl xan Ziyadxanov Şamaxıdan gedərkən əhaliyə şəhəri tərk etməyi tapşırmışdı. Qozluçay kəndindən molokanların himayəsində olan ermənilər Bakıdan xeyli hərbi qüvvə almaqlarına baxmayaraq, yenə də Şamaxıya bir müddət hücum etməyə cəsarət eləmədilər. Onlar İsmayıl xan Ziyadxanovun dəstəsinin hələ orada olmasından ehtiyat edirdilər. Gəncə silahlı dəstəsi getdikdən yalnız altı gün sonra ermənilər şəhərə daxil oldular. İ. Ziyadxanovun sözünə məhəl qoymayıb şəhərdə qalan əhalinin, demək olar ki, hamısı vəhşicəsinə qırğına məruz qaldı”.

Şahid Siracəddin Əfəndiyevin dediyi məlumatdan aydın olur ki, ermənilər insanları təkcə öldürməklə kifayətlənmirdilər, onlar qadın və kişi meyidləri üzərində xüsusi vəhşiliklər törədirdilər, öz əməllərinə baxıb həzz alırdılar, azyaşlı uşaqlara və qadınlara paz çalırdılar.

Şamaxı qırğınından salamat qalan qaçqınlar Göyçay qəzasının müxtəlif rayon və kəndlərinə pənah aparmışdılar. Qaçqınların bir qismi Kürdəmirə gəlmişdi. Lakin bu qırğından təxminən iyirmi-otuz gün sonra ermənilər Kürdəmirə də basqın edib evləri yandırdılar, əhalini gülləboran etdilər.

Əhali xilas olmaq üçün Göyçay qəza mərkəzinə qaçdı. Amma Qarasu deyilən bataqlığı keçə bilmədiklərindən elə oradaca qalmalı oldular. Qaçqınlar həftələrlə burada qalıb, hər cür məhrumiyyətə dözdülər, bataqlığın suyundan içdiklərinə görə xəstələndilər. Qarasu yüzlərlə qaçqını öz ağuşuna aldı... Beləliklə, qırğından xilas olub, aclığa, soyuğa, hər cür ağır məhrumiyyətə dözən mətanətli bu zavallı qaçqınlar bataqlıqdan içdikləri sudan kütləvi şəkildə qırıldılar.

Bu hadisənin şahidi olan S.Əfəndiyev qeyd edir ki, Şamaxıda meyid əlindən tərpənmək mümkün deyildi. Hər addımbaşı müsəlmanların vəhşicəsinə öldürülmüş meyidlərini görürdüm. Bir yerdə gördüyüm dəhşətli mənzərə heç vaxt yadımdan çıxmayacaqdır. İki nəfər insanın-öldürülmüş kişi və qadın meyidləri üzərində yarıya bölünmüş 3-4 yaşlı uşaq meyidi qoyulmuşdur.

Erməni cəlladları neçə-neçə ailənin, nəslin kökünü bax beləcə kəsmiş, nə uşağa, nə qadına rəhm etməmişdilər.

Tarixi araşdırmalar göstərir ki, bu hadisələrdə Şamaxının kəndləri daha dəhşətli soyqırımına məruz qalmışdır. Şamaxının Ərəbqədim kəndində 200 nəfər kişi, 100 nəfər qadın, 78 nəfər uşaq, Dilman kəndində 300 nəfər kişi, 235 nəfər qadın, 50 nəfər uşaq, Tağılı kəndində 360 nəfər kişi, 412 nəfər qadın, 152 nəfər.uşaq vəhşicəsinə öldürülmüşdür. Eyni vəziyyət başqa kəndlərin də başına gətirilmişdir. Bütövlükdə yalnız Şamaxının kəndlərində 5000 nəfərdən çox kişi və qadın, 1000 nəfərə yaxın uşaq qətlə yetirilmişdir. 1918-ci ilin mart ayında aparılan hesablamalara görə Şamaxının 58 kəndində soyqırımının həyata keçirilməsi nəticəsində 7 min nəfərdən çox azərbaycanlı öldürülmüşdür.

Lakin qeyd etməliyik ki, bu həmin faciənin bütün tam mənzərəsini açıb göstərən rəqəm deyildir. Çünki Şamaxıda və onun ətrafında ermənilərin törətdiyi soyqırımı sonralar da həyata keçirilmişdir ki, bu hadisələr, qətllər o vaxt hökumət dairələri tərəfindən müfəssəl uçota alınmamışdır.

Stepan Lalayevin dəstəsi 1918-ci ilin aprel ayında da Şamaxının kəndlərinə basqın etmiş, qırğından canlarını birtəhər qurtarmış azərbaycanlılar üçüncü dəfə soyqırımına məruz qalmışlar.

Şamaxı qəzasının Qalaybucurt kəndinin sakinləri Məmmədzər Qəhrəman oğlu, Mustafa və Əbdüləli Əbdüləzim oğlu 1918-ci il aprelin 25-də başlarına açılan müsibət barədə belə məlumat vermişlər: "Şamaxı faciəsindən bir neçə gün sonra kəndimizə 100 nəfərlik bir silahlı dəstə gəldi. Molokanlardan və ermənilərdən ibarət olan bu dəstəyə Stepan Lalayev başçılıq edirdi. Bu, dəstəd Çuxuryurd kəndinin sakinləri Baros-Ovanes oğlu, Palanq və Semyon Qara İvan oğlu, Polovinkin və Yakov Qara İval oğlu, Semyon Popov və Matvey Qarayev və tanıdığımız başqa ermənilər də var idi. Stepan Lalayev özünü bizim padşahımız elan edib bildirdi ki, əmlakımız və özümüz ona məxsusuq. O, mal-qaranı, əmlakımızı və bütün varidatımızı bir yerə toplamaq barədə əmr verdi.

Sonra bizi heyvan sürüsü kimi qabaqlarına qatıb aparmağa başladılar. Meşəyə çatdıqda, S.Lalayev hamını güllələmək əmri verdi. Yüzlərlə günahsız, dinc əhali meşədə amansızcasına öldürüldü. Bu qırğından cəmi dörd nəfər xilas ola bildik".

Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Bakı, Quba və Şamaxıda erməni cəlladlarının törətdikləri qırğınları təhlil etmək məqsədilə dərhal təcili fövəladə komissiya yaradıldı. Bu komissiya öz dövrünə görə xeyli iş görməsinə baxmayaraq, onun tərtib etdiyi materiallar, sənədlər, şahidlərin dindirilmə protokolları, çox təəssüf ki, vaxtında işıq üzü görmədi, dünya ictimaiyyətinin diqqətinə çatdırılmadı.

Lakin onu da qeyd edək ki, bu komissiya yaradılana qədər dövrün bir sıra qəzetləri bu faciəyə öz qiymətini vermiş, ermənilərin vəhşi simasını açmış, törətdikləri qırğınlar barədə ətraflı materiallar dərc etmişdilər.

1918-ci il oktyabrın 21-də “Azərbaycan” qəzeti bu barədə yazırdı ki, biz Şamaxı əksinqilabçılarının başına nə gəldiyini bilmirik, amma onu bilirik ki, başda sosialist “Əmirov və Lalayev” olmaqla qırmızı sosialist dəstəsi Şamaxıda olan bütün müsəlman əhalisini kəsib doğramış, 40-a qədər kəndi dağıtmışdılar. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşiliklər bu müddət ərzində gördüklərimiz bütün dəhşətləri kölgədə qoyur.

Bu mətndən aydın olur ki, Şamaxıya göndərilən erməni silahlı dəstələri guya əksinqilabçıları cəzalandırmalı idilər. Əlbəttə, bu, gözdən pərdə asmaq, əsl həqiqəti ört-basdır etmək məqsədi daşıyırdı. Bu dövrdə Şamaxıda əksinqilabi qüvvələr yox idi. Şamaxı kəndlərinə gətirilən silah arabalarına görə əhalinin narazılığı əks inqilabi çıxışlar kimi irəli sürülmüşdür. Əvvəlcədən planlaşdırılmış bu qırğın guya sosialist qüvvələrinin əksinqilabçılara qarşı çıxışı kimi qələmə verilmişdi.

Lakin buna baxmayaraq ermənilərin Şamaxıda törətdikləri vəhşiliklər o qədər dəhşətli oldu ki, hətta o dövrdə bolşevik mətbuat orqanları belə baş vermiş bu faciələrə öz münasibətlərini gizlədə bilmədi. Qəddar S.Lalayevin hərəkətləri bircə cümlə ilə ifadə olundu: “Dinc əhaliyə qarşı da bəzi haqsızlıqlar törədildi”.

Göründüyü kimi, bolşevik mətbuatı minlərlə günahsız, dinc əhalinin vəhşicəsinə öldürülməsinə, evlərin yandırılmasına, işğal edilməsinə “bəzi haqsızlıq” aktı kimi yanaşmışdır.

Həmin dövrdə “Azərbaycan” qəzeti bu fakta vaxtında öz münasibətini bildirərək yazırdı ki, “müsəlman əhalisinin bütünlüklə qırğına məruz qalmasına, hamilə qadınların qarnının cırılması, ismətlərinin ayaqlar altına atılıb tapdanması, sonra isə diri-diri odda yandırılması və sair vəhşiliklərin daşnakların “bəzi haqsızlığı” kimi qələmə verilməsi nə dərəcədə düzgündür?

Ermənilər Zaqafqaziyada bütün müsəlman kəndlərinin əhalisini qırmaq üçün geniş proqram hazırlamışdılar. 1918-ci il noyabrın 9-10-da aparılan istintaq protokolunda qeyd edilmişdir ki, ermənilərin əsas nümayəndəsi Stepan Şaumyanın Tiflisdə niyyəti uğurla nəticələnmədiyindən, o, Bakı quberniyasında türklər gələnə qədər müsəlmanları qırdırmışdır, Şamaxı, Quba qırğınları da məhz onun bilavasitə rəhbərliyi altında həyata keçirilmişdir. Təsadüfi deyildir ki, 1918-ci ilin noyabr ayında Şamaxı qırğınını təhqiq edən Fövqəladə Komissiyanın protokolunda onun adı S.Lalayevə havadarlıq edən bir şəxs kimi hallanır.

1918-ci il noyabrın 29-da Bakı şəhərində yaşayan bir qrup Şamaxı sakini müttəfiq qoşununun ali komandanı Tomsona müraciət edərə yazırdılar ki, bizə məlum olduğuna görə hazırda Stepan Lalayev həbs edilərək sizin sərəncamınızda saxlanılır. Sizdən acizanə xahiş edirik ki, ədalət və insanpərvərlik naminə bu vəhşi insanın şamaxılılara vurduğu ziyanlara, vəhşiliklərə görə onu hərbi məhkəməyə verəsiniz. O, mart ayında öz dəstəsi ilə Şamaxıya gələrək yol boyu bütün kəndləri yerlə yeksan etdi, bütün əhalini qırdı.

Fövqəladə Hərbi İstintaq Komissiyasının başçısı Kocemyako Şamaxı hadisələrindən bir qədər sonra, yəni qırğından xilas olmuş şamaxılıların müraciətinə əsasən qatil Stepan Lalayevi həbs etmək istərkən, o, Kocemyakonu söymüş, elə onun yanından Stepan Şaumyana zəng vurub əhvalatı ona danışmışdır. Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan elə oradaca Kocemyakonu telefona çağırıb demişdi: "Lalayevi həbs etmək yaxşı iş deyil, bu nə deməkdir?".

Beləliklə, S.Lalayev həbs olunmamış və öz mühafizəçiləri ilə birgə Bakı küçələrində yenə var-gəl edərək müsəlmanlara qarşı yeni cinayətlər törətməyə başladı. Bir neçə gün sonra isə hərbi İstintaq Komissiyası ləğv edildi ("Azərbaycan" qəzeti, 30 mart 1919-cu il).

Bu məlumatdan göründüyü kimi, 1918-ci ildə Bakı bolşeviklərinin rəhbəri S. Şaumyan erməni daşnaklarının Azərbaycan xalqına qarşı törətdyi cinayətləri ört-basdır etmiş, bu qırğınların törədicilərini, əsl təşkilatçılarını xalq cəzasından qorumuş, hətta həbs olunmasına belə razılıq verməmişdir. Məhz buna görə də xalqımızın S.Lalayev kimi düşmənləri vaxtında öz layiqli cəzalarına çata bilməmişlər. Xalqımızın böyük oğlu, görkəmli ictimai xadim Nəriman Nərimanov Şamaxıda mart qırğını barədə 1918-ci ilin iyulunda ürək ağrısı ilə yazırdı:" Mən Şaumyana yazdım: "Siz Azərbaycan xalqını göstərməlisiniz ki, mart hadisələri bizim iradəmizlə, yəni Sovet hakimiyyətinin iradəsiylə baş verməyib. Bu hadisələr xainlər və Sovet quruculuğunun düşmənləri tərəfindən törədilib..,". Ancaq bədbəxtlikdən, mənim sözlərimə əhəmiyyət verilmədi". ("Odlar yurdu" qəzeti, 8-9 aprel 1990-cı il).

Məşədi Əzizbəyov Şamaxı qırğınını eşidən kimi dərhal ora getmiş və dəhşətli faciələri öz gözləri ilə görmüşdü. N.Nərimanov həmin məktubda bu haqda belə yazmışdır: "Şamaxıdan qayıdandan sonra mənim əziz yoldaşım M.Əzizbəyov göz yaşı içində şahidi olduğu faciəni mənə danışdı. T.Əmirovun və S.Lalayevin əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər; onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirir, adamları məscidə toplayıb gerosin töküb yadırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda Sovet hakimiyyəti daşnaklardan, asılıdır. Bu da aydındır ki, erməni bandaları tərəfindən azərbaycanlı əhaliyə edilən bu qədər zülmdən sonra Azərbaycan proletariatının Sovet hakimiyyətindən üz döndərməyə öz burcuaziyasının hamiliyi altına keçərək, ondan və Türkiyədən kömək gözləməyə haqqı, var idi". ("Odlar yurdu" qəzeti 8-9 aprel, 1990-cı il).

Şamaxı qırğınından xeyli müddət keçməsinə baxmayaraq, hələ də onun vurduğu yaralar qəlblərdə qövr eləyir. Çox təəssüf ki, xalqın başına açılan bu müsibətlər, faciələr indiyədək ətraflı tədqiq olunmayıb. Erməni müsəlman qırğınının qurbanlarına bu günədək heç bir abidə qoyulmayıb.

Şübhə yoxdur ki, tədqiqatçılarımız bu qanlı faciədən daha geniş yazılar, kitablar yazacaq, əsl həqiqəti olduğu kimi xalqa çatdıracaqlar.

Bunu tarix tələb edir.

## QUBA QIRĞINI

Rusiyanın himayədarlığı ilə istədikləri əməlləri həyata keçirən ermənilər, Qafqaza gəlmə bir xalq olmalarına baxmayaraq, bu qədim və zəngin ərazidə yurd salmaq, dövlət yaratmaq üçün hər cür yola-hiyləyə, fitnə-fəsada əl atmışlar.

Bu haqda rus tarixçiləri İ.Dyakonov və N.Şavrov belə demişlər: "Qədim ermənilər, təxminən bizim eradan əvvəl birinci minillikdə, Fərat çayının yuxarı vadisi zonasında meydana gəlmişlər" (İ.Dyakonov. Erməni xalqının ilkin tarixi. Yerevan, 1968, s. 237). "XX əsrin başlancığında Zaqafqaziyada yaşayan 1 mln. 300.000 ermənidən 1 milyondan artığı bu rayonun yerli əhalisi deyildir: onlar buraya bizim tərəfimizdən köçürülmüşlər" (N.Şavrov. Zaqafqaziyada rus mənafeyi üçün yeni təhlükə. Sankt-Peterburq. 1911, s. 61).

"Ermənilər, əsasən, müsəlman mülkədarların torpaqlarında yerləşmişlər»- deyən vəzri-muxtar, diplomat və dramaturq A. Qriboyedovun "Ermənilərin İrandan bizim əyalətlərə köçməsi - haqqında qeydlər"ini oxumaq kifayətdir (A. Qriboyedov. Seçilmiş əsərləri, II c., Moskva, 1977, s. 399-444).

Ermənilərin Qafqazın aboroken xalqı olmamaları barədə vaxtilə mənşəcə erməni alimlərinin özləri də etiraf etmişlər.

Tarixçi B. İşxanyan "Qafqaz xalqları" əsərində yazır: "Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada, yəni Rusiyadan kənarda yerləşirdi" (B. İşxanyan. Qafqaz xalqları. Petroqrad, 1916, s. 18).

Məhşur alim, Ermənistan SSR EA-nın ilk prezidenti İ.Orbelinin qeydinə diqqət yetirək: "İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonradan erməni feodalları tərəfindən zəbt edilmişdir" (İ.Orbeli. Seçlmiş əsərləri. Yerevan, 1963, s. 358).

Ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqlarını fikrimizcə onların tanınmış alimi Manuk Abeqyan daha dəqiq və düzgün ifadə etmişdir: "Erməni xalqının əsli nədir; necə və nə vaxt, haradan və hansı yollarla o, buraya (İrəvan torpaqlarına - V. A.) gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları subuta yetirən aydın və dəqiq dəlillər yoxdur". M. Abeqyan. Erməni ədəbiyyatı tarixi. Yerevan, 1975, s. 11.

Hansı dona, hansı cildə istəsən girməyi bacaran erməni daşnakları 1917-ci ildə belə bir plan hazırlamışdılar ki, istər Şimali Azərbaycanda, istər tarixi Azərbaycan torpaqlarında, istərsə də Qafqazın digər ərazilərində yaşayan azərbaycanlıları bütünlükdə məhv etsinlər. Ermənilərin əsas məqsədi bir xalq və millət kimi azərbaycanlıların ən dəhşətli soyqırımını təşkil etmək idi.

Daha doğrusu, erməni daşnak partiyasının liderləri 1918-ci ilin ilk aylarından etibarən Bakıdan başlayaraq Tiflisə qədər məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Qubadan Astarayadək yaşayanları isə Xəzər dənizinə tökməyi planlaşdırmışdılar.

Həmin plana uyğun olaraq 1918-ci ilin mart-may aylarında Bakıda, Şamaxıda, Qubada və Göyçayda ermənilər yerli əhaliyə qarşı kütləvi qırğın tədbirlərinə əl atdılar.

Həmin günlərin acı həqiqətlərini qocaman müəllim Məmmədhüseyn Axundov belə xatırlayır: "Ermənilər azərbaycanlıları qıra-qıra Göyçaya çatmışdılar. Onlar görülməmiş vəhşiliklər törədir, hamilə qadınların qarnını yarıb uşağı nizəyə keçirir, divara sancır, camaatı məscidə doldurub yandırır, qız və gəlinlərin kürəyinə qaynar samovar bağlayır və başqa vəhşiliklər edirdilər".

1917-ci ildə Rusiyada çar hökuməti devrildikdən sonra alman və Avstriya cəbhələrində xidmət edən minlərlə" erməni əsgəri öz silahları ilə (o vaxtlar rus ordusuna azərbaycanlılar hərbi xidmətə çağırılmırdı.Əvəzində dövlətə vergi verilirdi) daşnakların niyyətlərini həyata keçirmək üçün Bakıda cəmləşdilər.

Göründüyü kimi, ermənilərin iştahası çox böyük imiş. Bu da təsadüfi deyildi. Çünki onların Rusiyada V.İ.Lenin kimi himayədarları, Qafqazda isə S.Şaumyan və A.Mikoyan kimi arxaları vardı.

## STEPAN ŞAUMYANIN GÖSTƏRİŞİ İLƏ

1918-ci ilin mart ayının son günləri Azərbaycan xalqının qanlı və faciəli günləri kimi tarixə düşmüşdür. Azərbaycanın istiqlaliyyəti tarixinin görkəmli araşdırıcısı Cahangir Zeynaloğlu mart hadisələri barədə belə yazır; "Daşnak" firqəsi xüsusi bir proqram daxilində müntəzəm şəkildə Bakıda müsəlmanları qırdı. Bu qırğına "bolşevik-müsavat firqə mübarizəsi" adı verildi və qətl edilənlərin malları yağma edildi və yandırıldı. Martın 31-də başlayan bu qırğın üç gün davam eylədi... "İsmailliyyə" deyilən böyük və gözəl milli saray yandırıldı. "Təzə pir" və sair camelər də bombardman edildi, Şəhidlərin miqdarı 35 minə qədər təxmin edilməkdədir. Qətllərdən qurtulan müsəlmanlar ətraf göylərə və da çəkildilər" (Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992 s.110).

Bakıda azərbaycanlıların kütləvi qırğınından sonra oyuncaq hökumətin (daşnakların və ermənipərəst komissarların daxil olduqları Bakı kommunasının) başçısı S.Şaumyan özünün Baş planını (azərbaycanlıların bir millət kimi məhvi barədə) həyata keçirmək məqsədilə Quba, Şamaxı, Salyan və Göyçay bölgələrində törədiləcək qırğınları həyata keçirməyə başladı.

Ermənilərin Bakıda qazandığı uğurlar S.Şaumyana qol-qanad verdi. Öz hərəkətlərinə haqq qazandırmağa çalışan daşnak lideri Rusiya proletariatının başçısından da xeyir-dua almışdı. O vaxtlar V.İ.Lenin S.Şaumyana yazdığı xüsusi məktubda Bakıda mart qırğınında S.Şaumyanın möhkəm və qəti siyasətinə məftun olduğunu bildirir və həmin siyasəti davam etdirməyi məsləhət görürdü. Daha sonra bolşeviklərin rəhbərləri tapşırırdı ki, bu siyasəti çox ehtiyatlı bir diplomatiya ilə birləşdirmək unudulmamalıdır. V.İ.Leninin fikrincə belə etdikdə qələbənin təmin olunacağına böyük inam bəsləmək olar.

1918-ci ilin aprelində Bakı şəhəri və Bakı quberniyası bolşeviklərin əlinə keçdiyi bir vaxtda S.Şaumyanın tapşırığı ilə Quba əyalətində hakimiyyəti ələ keçirmək üçün tədbirlər görülməyə başlandı.

## QUBA CAMAATI BOLŞEVİK HAKİMİYYƏTİNİ İSTƏMİR

Aprelin ortalarında S.Şaumyan özünün sadiq məsləkdaşı David Gelovanini iki yüzə yaxın silahlı əsgərlə (ermənilərdən ibarət) Qubaya göndərir. Burada özünü Quba Qəza Komissarı elan edən D.Gelovank yerli əhaliyə bildirir ki, onlar mütləq bolşeviklərin hakimiyyətini tanımalıdırlar. Vəziyyətin çox ağır olduğunu dərk edən qubalılar bu təkliflə razılaşırlar. Bir neçə gündən sonra Qubada sakitliyin yarandığını görən D.Gelovani yerli camaatın tərksilah, edib həbsxanada saxladıqları iki yüzdən artıq ermənini azadlığa buraxdırır.

D.Gelovaninin Qubada bolşevik idarə üsulu uzun çəkmir. Bir neçə gündən sonra şəhərin özünün və ətraf kəndlərin camaatı bolşevik komissara silahlı müqavimət göstərib onun ya Qubanı tərk etməsini, ya da təslim olmasını təklif edirlər. Arxadanköməyə gələn toplu-pulemyotlu xüsusi hərbi dəstə belə D.Gelovaniyə kömək edə bilmir.

D.Gelovani Qubanı tərk etmək məcburiyyətində qalır. Şəhərdən çıxarkən, o, buradakı erməniləri də özü ilə aparır. Qubalılar bu hadisələr zamanı həm şəhərdə yaşayan, həm də D.Gelovaninin əsgərlərindən olan ermənilərdən az da olsa Bakı qırğınının hayıfını çıxırlar.

## DAŞNAK AMAZASPIN QUBA MAHALINA HÜCUMU

D.Gelovani Qubadan qovulduqdan iki həftə sonra xəbər gəlir ki, bolşeviklərin bu mahala yeni və güclü təcavüzü hazırlanır.

May ayının 1-də məhşur daşnak zabiti Amazaspın başçılığı ilə ancaq ermənilərdən ibarət olan böyük hərbi dəstəsi Qubanı mühasirəyə alaraq şəhəri toplardan və pulemyotlardan atəşə tuturlar.

Məlum olduğu kimi, Amazaspın dəstəsi elə belə adi əsgərlərdən ibarət olmamışdır. Onlar xüsusi “Cəza dəstəsi” adı altında birləşən, vəhşilikləri ilə seçilən ermənilərdən ibarət qoşun hissələri idi.

Amazaspı “Cəza dəstəsi” ilə Qubaya şəxsən S.Şaumyan göndərmiş və bu barədə o, digər komissarlarla heç məsləhətləşməmişdi. Bu dəstəni tərtib edən yalnız hərbi komissar Qriqori Korqanov olmuşdur. Q.Korqanov S.Şaumyanın təklifi ilə Amazaspın dəstəsinə yalnız “Daşnaksütyun” partiyasının üzvü olan əsgərləri (iki min nəfər) daxil etmiş və ona qatı millətçi Venuntsu dəstə komissarı, Nikolay adlı hərbiçini isə köməkçi təyin etmişdi.

Amazaspın Qubanı işğal etdikdən sonra şəhər camaatına hədə-qorxu müraciətində onun dəstəsinin bu yerlərə hansı məqsədlə göndərildiyi açıq şəkildə

ifadə olunur. O vaxt Amazasp demişdir: “Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya-Qubaya xüsusi cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq üçün, Sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm.

Bu yerlərdə erməniləri qırdığınıza görə Xəzər dənizinin sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək barədə mənə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın qanının intiqamını almaq tapşırılıb”.

## QUBADA ERMƏNİ VƏHŞİLİKLƏRİ

Amazaspın dəstəsi istər Qubaya gələrkən bütün yol boyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində olarkən çox dəhşətli və qansız hərəkətlər etmişlər. Ermənilər, qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaqları qəddarcasına qətlə yetirirdilər. Qubada bir-bir evlərə girib bəzən butün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayı Məmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsinin, Məhəmməd Rəsul oğlunun 5 nəfərlik ailəsinin başlarını kəsmiş, Hacı Dadaşbala Qasım oğlunun arvadı Məşədi Bibixanımın və oğlu Abdul Qasımı diri-diri oda ataraq yandırmış, Kərbəlayı Abuzər Məstan oğlunu və iki qızı - Hökuməni və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramış, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışlar.

Qubanın o vaxtkı ağsaqqallarından Molla Şahbaz, Usta Məhəmməd Rəsul Bayram oğlu, Məşədi Musa Zeynal oğlu, Məşədi Əli Məşədi Feyzulla oğlu, Kərbəlayı Dadaş Bağır oğlu, Cabbar Məmməd Əli oğlu, Səfərli Məşədi Talıb oğlu və onlarca digər ailə başçısı qətlə yetirilmişdir.

Hər cür vəhşilik və talanlarla yanaşı, ermənilər ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan çəkinmirdilər. Belə ki, qansız erməni əsgərləri şəhərin hörmətli ağsaqqallarına əmr etmişlər ki, onlara əylənmək üçün müsəlman qadın və qızları gətirsinlər. Bununla qəti şəkildə razılaşmayan Əlipaşa Kərbəlayı Məhərrəm oğlu və onun oğlu yerindəcə vəhşicəsinə güllələnmişlər. Bəzən ermənilər onların əmrlərini yerinə yetirməyən kişilərin gözlərini çıxarmış, qarınlarını xəncərlə doğram-doğram etmişlər. O vaxt şəhərdə iki mindən artıq kişini öldürən azğın erməni əsgərləri yüzə yaxın qadın və qızı zorlamış, namusuna toxunmuşlar...

Şəhər əhalisinin əmlakı tar-mar edilərək oğurlanmışdır. Təkcə Qubanın özündə Amazaspın əsgərləri dörd milyon manat nəğd pul, xeyli qızıl pul, qızıl və qiymətli daş-qaş-və beş milyon manatlıq əşya-mal, iyirmi-beş milyon manatlıq ərzaq ehtiyatı ələ keçirmişdilər. (Xatırladaq ki, həmin qızılların və qızıl pulların bir

hissəsi sonralar S.Şaumyan öz məsləkdaşları ilə birlikdə həbs edilərkən onun yük çamadanlarındakı 80 milyon məbləğindəki qızıl pulun içərisində olmuşdur).

Təkcə Qubanın özündə Amazaspın dəstəsi 105 ev yandırmışdır. İbrahim bəy Şıxlarlıya, Məşədi Əli Hüseynova, Orucəli Məmmədova, Bəkir Mehrəliyevə, Səttar Məmmədyarova, Hidayət Əmirbəyova, Qafar Orucova, Əlibəy Zizikliyə, Rəcəb Orucova, Yusif bəy Abdulsəlimbəyova, İsgəndər Abdullayevə məxsus böyük mülk evlərin, şəhərdəki məscidlərin, bir sıra idarə və digər inzibati binaları yandırılıb külə döndərillməsi əhaliyə olduqca ziyan vurmuşdur.

## DAĞIDILMIŞ VƏ YANDIRILMIŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Amazaspın "Cəza dəstəsi" Qubaya gələrkən Bakı-Xaçmaz dəmiryolunun sağ və sol tərəflərində yerləşən kəndləri dağıtmış, yandırmış, əmlakını qarət etmiş, qaçıb canını qurtaranla bilməyənləri isə qətlə yetirmişdi. Bəzən, hətta olub ki, bu və ya başqa yaşayış məntəqəsində camaat ermənilərlə dil tapmağa, danışıqlar aparmağa cəhd göstərmiş, lakin əvəzində düşmən güllələrinin qurbanı olmuşlar. Məsələn, Dəvəçi icmasının Dəvəçi bazar və Qızılburun camaatı 15 nəfərdən ibarət ağsaqqallar heyətini erməniləri duz-çörəklə qarşılamağa göndərmiş, lakin Amazaspın göstərişi ilə onların hamısı güllələnmişlər.

Ermənilər bütün kəndlərdə ki, məscidləri dağıdaraq müqəddəs Quran kitablarını təhqir etmək məqsədilə ayaqlar altına atmış və yandırmışlar. Bütünlüklə Quba mahalında daşnaklar yüz iyirmi kəndi dağıtmış, yandırmış, viran qoymuşlar. Həmin yaşayış məntəqələri bunlardır: Dəvəçi, Sədan Çalxana, Dəvəzarat, Sağolcan, Eynibulaq, Ağasıbəyli, Kolanı, Uqah, Nardərə, Siyəzən, Rəhimli, Çurlaq, Aygünlü, Qaraqurdlu, Qaraçı, Nərəcan, Xudat, Aşağı Buduq, Xaçmaz, Təzə və Köhnə Xaçmaz, Mürşüdoba, Xaspoladoba, Babalı, Mehralıqışlaq, Bəyqışlaq, Canaxır, Qobuqırıq, Mürsəlliqışlaq, Çarxı, Xırdaoymaq, Qaraçallı, Yergüc, Hülövlü, Həsənəfəndi, Ərəbqarabağlı, Çaxmaqlı, Cığatay, İlxıçı, Avaran, Xuray Çiləgir, Həzrə, Əcəxur, Dütahir, Həsənqala, Urva, Aşağı Əlik, Aşağı Ləkər, Köhnə Xudat, Əvəcük, Zeyxur, Kuzunqışlaq, Gədəzeyxur, Yasab, Nügədi, Əmsar, İqrıq, Əski İqrıq, Daşlıyataq, Təkyə, Qımılqışlaq, Əlibəyqışlaq, Əniq, Aşağı Xuc, Alpan, Digah, Zizik, Mirzəməmmədkənd, Üçgün, Hacıqaib, Susay, Xucbala, Cimi, Rustol, Yenikənd, Güləzi, Çiçi, Söhüb, Nohurdüzü, Zərqova, Afuruca, Xəlfələr, Cek, Qırızdəhnə, Nabran, və s. O vaxtlar ermənilərin Quba mahalında yandırdıqları bir sıra kəndlər Əlixanlı, Ərəbəbəlməmməd, Ərəb-Xəmvə, qulamlar, Butbud, Tura, Əzizlər, Bişbişi, Aşalı, Kürəşqışlaq, Yusifqışlaq, Dəndəlik, Xızı, Fəriz, Ərəb Sofu, Qərəblər, Əbilə, büsbütün dağıdılmış, heç sonralar da dirçələ bilməmişdir. Bəzi kəndlərdə, məsələn, Nardərə, Qarabulaq, Nığır düzü kimi qədim yaşayış məskənlərində hətta indinin özündə 3-5 ev qalıb. Adları çəkilən məntəqələrdə elə bizim günlərdə təzə binaların özülü qazılarkən 75 il əvvəl ermənilərin yandırdıqları binaların külü üzə çıxır.

Daşnaklar Quba mahalında yandırmaqla yanaşı, həm də qadın və uşaq da qırmış yerli camaatın bütün əmlakını tar-mar etmişlər.

## QUBA QIRĞINI İLƏ BAĞLI DAHA BİR NEÇƏ SÖZ

Ermənilərin Quba mahalında törətdikləri vəhşilikləri öz gözləri ilə görən, yaralanan, həm də təsadüf nəticəsində salamat qalan adamlar da olmuşdur. Onların söylədikləri daşnak əməllərinin necə dəhşətli və qansız hərəkətlər olduğunu bir daha sübut edirdi. Sonralar Quba şəhəri sakinlərindən, eləcə də mahalın digər yerlərində yaşayan əhalinin nümayəndələrindən Quba hadisələrinin tədqiq edən, öyrənən Fövqəladə İstintaq Komissiyası bir sıra ifadələr almışdır. Həmin komissiyanın üzvü A.Novatskinin hazırladığı məruzə erməni vəhşiliklərini kifayət qədər əks etdirmişdir. O, hətta məruzəsinin sonunda Quba qırğınını törədənlərin ən ağır cəzalara layiq olduqlarını da qeyd etmişdir. Lakin belə bir qiymətli sənəd uzun müddət xalqdan gizlədilmişdir...

1918-ci il hadisələrinin çoxu qəsdən unuduldu. Xüsusən Şimali Azərbaycanda bolşeviklər hakimiyyət başına gəldikdən sonra ermənilərin Bakıda, Şamaxıda və Qubada törətdikləri vəhşiliklər barədə heç danışılmadı da. Azərbaycanda ən məsul vəzifələrə irəli çəkilən ermənilər və ermənipərəst “azərbaycanlılar” olub keçənləri çox böyük ustalıqla ört-basdır edə bildilər. Xalqdan gizlədilən həqiqətlər xatirələrdən, silindi.

Vaxtilə, görkəmli ədibimiz Üzeyir bəy Hacıbəyli 1918-ci ilin mart-may aylarında ermənilərin qansız və vicdansız hərəkətləri ilə bağlı yazırdı ki, əgər Osmanlı turk qəhrəmanları vaxtında köməyə gəlməsəydilər, azğınlaşmış ermənilər nəinki Bakıda, Şamaxıda, Qubada, bəlkə də bütün Azərbaycanda daşı daş üstə qoymazdılar... Bəli, o vaxt erməni vəhşiliklərinin qarşısına türklər Göyçay bölgəsində sədd çəkdilər, daşnakların bütün dəstələri darmadağın edildi.

Daşnaklar Şimali Azərbaycanın bütün bölgələrindən qovulub çıxarıldı. Qarşıdan isə 28 may günü gəlirdi...

Bakıda mart hadisələri, Qubada və Şamaxıda törədilən qırğınlar tarixçilərimiz tərəfindən bir-birinə zidd mövqedən qiymətləndirilmişdir.

Bunun da bəzi səbəbləri var. Hələ o vaxtlar qeyri-bolşevik partiyaların əksəriyyəti bu hadisələri bütünlüklə milli qırğın hesab edir, bolşevikləri, erməni millətçilərinin müsəlmanlara qarşı törətdikləri cinayətdə təqsirləndirirdilər. Bolşeviklər isə mart-may hadisələrini, əsasən, sinfi düşmən qüvvələrinə qarşı mübarizə, Sovet hakimiyyətinin möhkəmləndirilməsi yolunda əksinqilab üzərində böyük qələbə, vətəndaş müharibəsi hesab edirdilər.

Lakin bu gün-qanlı faciələrdən 75 il keçdikdən sonra bizim üçün hər şey aydınlaşır. Törədilən vəhşiliklərin, cinayətlərin başbilənləri, əlləri qana bulanmış düşmənlərimiz haqqında çox şey bilirik,

Tarix necə də təkrar olunurmuş. Əgər 1918-ci ildə yenicə çarizm əsarətindəi yaxasını qurtarmış azərbaycanlılar erməni vəhşiliklərinə qarşı mübarizədə duşmənə qalib gəlməyə çətinlik çəkirdisə, 1988-ci ildən başlayaraq Sovetlər İttifaqının cəngindən zorla qoşmağa nail olan, müstəqillik və demokratiya yollarında addımlar atmağa başlayan suveren Azərbaycan Respublikası da bizim günlərdə erməni təcavüzünə qarşı mübarizədə çox böyük sıxıntılar keçirir. Lakin an yaxşı ibrət tarixin dərsləridir. Əgər xalqın müstəqillik, suverenlik uğrunda mübarizəyə böyük inamı varsa, onu heç nə və heç kim qıra bilməz. Bu gün Azarbaycan xalqının müstəqillik və demokratiya uğrunda mübarizə ruhu, yenilməzliyi həmişəkindən qat-qat güclüdür, tukənməzdir.

## QARABAĞ FACİƏSİ

Qarabağ torpaqlarının Ermənistana birləşdirilməsi üçün hələ 1918-1920-ci illərdə ən müxtəlif cəhdlər göstərilmiş, ən iyrənc vasitələrə əl atılmışdır. Bu məqsədlə azərbaycanlı əhalini qorxutmaq üçün çoxsaylı quldurluq hərəkətləri törədilmişdi. Təbii ki, bu hərəkətlərin çoxu cinayət xarakterli olmuşdur. Heç də təsadüfi deyildir ki, Azərbaycan Demokratik Respublikası hökuməti Bakıya köçdükdən sonra onun ilk qərarlarından biri Birinci dünya müharibəsi başlanandan sonra Zaqafqaziyanın müsəlman (azərbaycanlı) əhalisinin başına gətirilmiş müsibətlərin tədqiq edilməsi və dəymiş zərərin müəyyənləşdirilməsi üçün Fövqəladə İstintaq Komissiyasının yaradılmasından ibarət olmuşdur.

Sənəd və materialların nəzərdən keçirilməsi bir daha təsdiq edir ki, Qarabağ ətrafında söz-söhbət həm 1918-ci ildə, həm də sonrakı illərdə erməni liderlərinin separatçı hərəkətləri nəticəsində kəskinləşmiş və hər dəfə də Azərbaycan tərəfinin dərindən düşünülmüş tədbirləri ilə nizama salınmışdır. Hər dəfə erməni daşnakları bu diyarın azərbacyanlı sakinlərini qan dəryasında boğmağa cəhd göstərmiş, lakin bu qədim torpağımızı Azərbbaycandan qoparıb Ermənistana birləşdirmək arzusu ürəklərində qalmışdır. Araşdırmalar göstərir ki, Rusiya Qafqaz cəbhəsində hərbi əməliyyatları dayandırmazdan xeyli əvvəl cəbhə bölmələrindən qaçan çoxsaylı erməni əsgərləri Qarabağdakı kəndlərinə qayıdarkən özləri ilə çoxlu miqdarda tüfəng, puleymyot və hər cür döyüş sürsatı gətirmişdilər. Bu cinayətkar hərəkətlərə yerli erməni cəmiyyətlərinin nümayəndələri kömək edir, rus hakimiyyət orqanları isə göz yumurdular. Qarabağ azərbaycanlıları isə öz qonşularına çox inandıqlarından (1905-ci il erməni müsəlman toqquşmaları unudulmuşdu) heç ağıllarına da gətirmirdilər ki, bu silahlar nə vaxtsa onlara qarşı çevrilə bilər və buna görə də erməni kəndlərinə silah gətirilməsinin dayandırılması üçün heç bir tədbir görmürdülər.

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra erməni kəndlərinə silah daşınması açıq-aşkar artdı və elə o zamandan da “mehriban” ermanilər birdən-birə dəyişərək azərbaycanlı əhaliyə düşmən kimi yanaşmağa və zorakılıq etməyə

başladılar. Həm də ermənilər özlərinin çirkin ənənələrinə sadiq qalaraq məhz o yerlərdə fəal zorakı hərəkətlərə başlayırdılar ki, orada onlar mütləq çoxluq təşkil edirdilər, yaxud da azərbaycanlı kəndləri erməni kəndlərinin əhatəsində qalırdı. Daha doğrusu, ermənilər. o yerdə "qəhrəman"a dönürdülər ki, orada onlara qarşı silahsız azərbaycanlılar dururdu. Misal üçün, Cavanşir qəzasının Kolanı kənd cəmiyyətini götürək. 12 azərbaycanlı kəndiidən ibarət olan və əsasən dağətəyi ərazidə yerləşən bu cəmiyyət hər tərəfdək erməni, kəndləri ilə əhatə olunmuşdu. Buna görə də kolanlılar başlıca olaraq aran zonasında yerləşən azərbaycanlı kəndləri ilə yalnız erməni kəndlərindən keçməklə əlaqə saxlaya bilirdilər. Bu vəziyyət onların özlərini qorumaq üçün vaxtında silah tədarük etmək işini də xeyli çətinləşdirmişdi. Elə bu səbəbdən də ilk əvvəl Kolanı cəmiyyətinin kəndləri ermənilər tərəfindən basqın və talanlara məruz qalmışdı. Hələ 1917-ci il dekabrından erməni silahlı quldur dəstələri bu kəndlərə soxularaq sakinlərin evlərindən keşikçilər qoymağa, onlardan ermənilərə tabe olmağı tələb etməyə başlamışlar. Ermənistan Respublikası yarandıqdan (1918, 29 may) sonra vəziyyət daha da pisləşmişdi. Bu dəfə də Qarabağ erməniləri "Qarabağ Respublikası" yaratmaq eşqinə düşürlər. Azərbaycan kəndlərinin talan edilməsi, mal-qaranan sürülüb aparılması, dinc adamların döyülməsi, şikəst edilməsi, qətlə yetirilməsi və sair vəhşiliklər adi hal almışdı. Ermənilərlə barışığa girmək səyləri heç bir nəticə vermirdi. Beləliklə, kolanlılar 1918-ci ilin payızınadək (bəzi kəndlərdə hətta dekabradək) əsl mənada erməni asılılığı, şəraitində yaşamağa məcbur edilmiş, yalnız böyük itkilər hesabına mühasirəni yara bildikdən sonra birtəhər canlarını qurtarmışdılar. Toqquşmalar zamanı bir çox qaçqınlar, xüsusilə qocalar, qadınlar və uşaqlar halak olmuşdu. Bir neçə kənd (İmarət Qərvənd, Umudlu)  ermənilərin təqibindən yaxa qurtarmaq üçün qarlı Murovdağın keçilməz yollarına üz tutmuş və daha çox itki vermişdilər.

Danışıqlar vaxtı erməni nümayəndəsinin həyasızlıqla dediyi: "bunlar nədir ki, görün hələ sizi qabaqda nələr gözləyir"- sözləri bu vəhşiliklərin planlı qaydada aparıldığına dəlalət etmirdimi? Sənədlərin birində oxuyuruq "... dekabrın 2-də Gülyataq ermənilərinin quldur dəstəsi Sırxavənd kəndinə hücum edib, 122 baş qaramal və 45 keçi aparmışlar. Həmin quldur dəstəsi Gülyataq, Canyataq, Kasapet ermənilərindən ibarət daha üçlü tərkiblə iki dəfə Qalayçılar kəndinə hücum etmiş və 105 baş qaramal sürüb aparmışlar, belə bir şayiə gəzir ki, Andronik Şuşa tərəfdən öz qoşunları ilə hücuma keçir, ermənilər isə bu qüvvələr peyda olana kimi buraları darmadağın etməklə müsəlmanları dağlıq hissədən sıxışdırıb erməni rayonu yaratmaq fikrindədir, bununla da buranı Azərbaycandan ayırmaq istəyirlər... Quldur dəstəsinin başçıları siyahısına Cavanşir qəzasının üçüncü sahəsi üzrə keçmiş xalq komissarı (kursiv bizimdir - K. M.) Karapet, ağdərəli Andresbek, Moses qardaşları və sairə daxil idi. Bu quldur dəstələrində Andronik tərəfindən göndərilmiş Türkiyə və İrəvan erməniləri də vardı" ("Gənclik", 1989, № 3, səh. 5-6). Bu sənəddə, zənnimizcə, hər şey deyilmişdir.

Qarabağın aran kəndləri də daşnakların quldur hərəkətlərindən böyük ziyan görmüşdülər. Cavanşir. qəzasında onlar Tərtərsu hovuzuna tökülən kiçik çayların yolunu bağlayaraq axarını dəyişmiş, nəticədə azərbaycanlı kəndlərinin nəinki tarlaları və bağları suvarmaq üçün lazım olan sudan, hətta içməli sudan belə məhrum etmişdilər, su dəyirmanları dayanmışdı.

Ermənilər, həmçinin, azərbaycanlı kəndlərinə öz mal-qarasını yaylaqlara çıxarmağa imkan verməmiş, Şuşa şəhərinə və qəzasına gedən yolu bağlayaraq aran zonasının əhalini daim gərginlikdə saxlamışdılar, təsərrüfat işləri tamam pozulmuşdu. Qəribə də olsa, azərbaycanlıları belə gərgin vəziyyətdə yaşamağa məcbur edən ermənilər özləri azərbaycanlı kəndlərindən sərbəst keçib gedir, hər həftə Tərtər bazarında ticarət edir, hətta azərbaycanlıların özlərindən oğurladıqları mal-qaranı onlara satmağı da unutmurdular (Azərb. EA Xəbərləri, 1989, № 3, səh. 132).

Cəbrayıl qəzasında da ermənilərə inam bəslənilməsi onun sakinlərini çətin vəziyyətdə qoymuşdu. Beləki, cəbrayıllılar hər dəfə qonşu qəzalarda erməni vəhşilikləri barədə məlumatlar alanda, burada yaşayan ermənilər onları arxayın salırmışlar. Bu arxayınçılıq əhval-ruhiyyəsi 1918-ci ilin dekabrına kimi davam etmişdi. Dekabrda isə ermənilər vahid mərkəzdən verilən komanda ilə qəzanın azərbaycanlı kəndlərinə basqınlar etməyə, talanlar düzəltməyə, adamları öldürməyə, yandırmağa, mal-qaranı sürüb aparmağa başlamışdılar.

Dekabrın 2-də erməni silahlı quldur dəstəsi Aşıq Məlikli kəndini yandırmış, kənd əhalisinin əmlakını talan etmiş, mal-qarasını isə sürüb aparmışdılar; dekabrın 5-də Qarakollu kəndinə basqın edilmiş və kənd sakinlərinin qoyunları sürülüb aparılmışdı; dekabrın 7-də Arış kəndi belə bir hücuma məruz qalmışdı; dekabrın 18-də Sirik kəndi dağıdılmış və yandırılmışdı. Əlbəttə, bu siyahını uzatmaq mümkündür. Lakin, zənnimizcə, erməni riyakarlığına misal üçün bunlar da kifayətdir.

Sənədlər erməni quldurlarının Qarabağ torpaqlarında törətdikləri qanlı cinayətlər barədə də müfəssəl məlumat verir. Məsələn, Cavanşir qəzasının Umudlu kəndində ermənilər Süleyman Qazaxaslan oğlunu, Məmməd Məşədipaşa oğlunu və Kazım Atam oğlunu öldürmüş və tikə-tikə doğramışdılar, həmkəndliləri onları bu vəziyyətdə tapmışdılar, Hacı Qərvənd kənd sakini Zeynəb Şirin qızının meyidi döşləri kəsilmiş halda tapılmışdı. Sırxəvənd Bollu Qaya kənd sakini Soltanəli İman oğlu Qazançı kəndi yaxınlığında saxlanmış, vəhşicəsinə öldürülmüş və yandırılmışdı; güney Qaya Sırxavənd kənd sakinləri Şərif İsmayıl oğlu və Rəcəb Novruzəli oğlunun başları kəsilmiş və aparılmışdı; Cəbrayıl qəzasına mənsub Hadrutun Muxan və Noromanik kəndlərinin erməniləri Balyand kənd sakinləri Cəfər Ələkbər oğlunu və Nəsir Məhərrəmoğlunu qarət etmiş, sonra isə öldürmüşdülər, ölənlərin meyidləri çılpaq vəziyyətdə tapılmışdı; Axıllu kəndində 2 kişi, 3 qadın və 1 uşaq öldürülmüş, 1 kişi yaralanmışdı; Evatlı kəndində 1 kişi, Məzrə kəndində 6 kişi, Sirik kəndində isə 11 kişi, 10 qadın və 14 uşaq

öldürülmuşdü... Əlbəttə, erməni quldurları öz arxalarında Ermənistan Respublikası rəhbərlərinin və tayqulaq general Andronikin nəfəsini duymasaydılar, belə qanlı, niyətlər törətməyə heç vaxt çəsarət etməzdilər. Bunu sübut edən faktlar isə istənilən qədərdir.

Məlumdur ki, hələ 1918-ci il avqustun əvvəllərində Andronik öz başkəsənləri ilə qəflətən Zəngəzur və Qarabağ torlaqlarında görünmüş və dinc azərbaycanlı əhaliyə qanlı divan tutmağa başlamışdı. Bu münasibətlə Azərbaycan mokratik Respublnkası hökuməti özünün 1918-ci il 15 qust tarixli 461 №-li rəsmi məktubu ilə Erlmənistan hökumətinə müraciət edərək bu rüsvayçılıqlara son qoymağa və Andronikin quldur dəstəsini Azərbaycan ərazisindən geri çəkməyi tələb etmişdi. Ermənistan hökuməti həmin məktuba cavabında riyakarlıqla bildirmişdi ki,”...general Andronik, həm də onun dəstəsi artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısındandır, bundan sonra onlar Ermənistan rəhbərliyinə, onun vəzifəli şəxslərinə tabe olmaqdan imtina etmişlər.

Beləliklə, general Andronik və onun dəstəsinin Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxdur və Ermənistan Respublikasının hökuməti onların məsuliyyətsiz hərəkətlərinə çavabdeh deyildir” (“Gənclik”, 1989, № 11, səh. 5).

Bu çavab həqiqətən də riyakarlıq nümunəsi sayıla bilər. Əgər Androniklə rəsmi Ermənistan arasııda doğrudan da heç bir əlaqə yox idisə, bəs o zaman niyə Azərbaycan torpaqlarına basqın edərək günahsız adamların qanını axıdan bu tayqulaq quldurun azərbaycanlılara ilk müraciəti Ermənistan Respublikasına tabe olmaqdan ibarət olurdu? Axı, sirr deyildir ki, məhz tabe olmayanlar ilk növbədə təhqir olunur, qətlə yetirilir, yaxud da ən yaxşı halda doğma yurdlarından qovulurdular.

Digər tərəfdən, Azərbaycan hökuməti öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə müvafiq tədbirlər görməyə başlayan kimi, bunlar Ermənistanda böyük narazılıqla qarşılanır və onun ərazi hüquqlarına qəsd kimi qiymətləndirilirdi? Məsələn, 1919-cu ilin əvvəli üçün Azərbaycan hökuməti öz ərazi bütövlüyünü vətəndaşlarının hüquqlarını qorumaq məqsədilə Şuşa, Cəbrayıl və Zəngəzurda general-qubernatorluq təsis etmişdi. Onun fəaliyyəti ermənilərin işğalçılıq və seperatçılıq planları qarşısında ciddi sədd yarada bilərdi.

Vəziyyəti belə görən Ermənistan hökuməti yubanmadan üzündən “müqəddəs əzabkeş” maskasını kənara atmış və utanmadan adları çəkilən qəzaların ərazisinin böyük hissəsinin guya Ermənistan ərazisi olduğu üçün general qubernatorluğun təsis olunmasına qəti etiraz etmişdi. Azərbaycan hökuməti öz cavabında tamamilə haqlı olaraq bildirmişdi: “Sizin hökumətli Azərbaycqn Respublikasının Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur rayonlarında müvəqqəti genzral-qubernatluğun təsis edilməsinə etirazı əsasızdır. Çünki bu rayonlar Azərbaycanın ayrılmaz, hissəsidir. Ali idarəetmə qaydasında Azərbaycan hökumətinin təkcə hüquqi deyil, hətta mənəvi borcu qayda-qanunun bərpası üçün

ölçü götürmək və milliyyətindən asılı olmyaraq öz ərazisində yaşayan vətandaşların həyatını, şələfini, əmlakını məsuliyyətsiz şəxslərin zorakılığından qorumaqdır. Buna görə də general-qubernatorluğun təsis edilməsi barədə bizim hökumətin qərarı heç cür ermənistanın ərazi hüquqlarına əl atmaq hesab edilə bilməz və Sizin hökumətin bununla əlaqədar etirazını bizim suverenliyimizə qəsd daxili işlərimizə qarışmaq cəhdi hesab etmək olar”. (“Gənclik” 1989, № 11, səh. 14-15).

Görürsünüzmü, əgər 1988-ci ilin fevralında da Dağlıq Qarabağdakı bir ovuc avanturist seperatçıları müdafiə edən Ermənistan rəhbərlərinə belə qəti cavab verilsəydi və müvafiq tədbirlər görülsəydi, yəqin ki, son səkkiz ildə şahid olduğumuz faciələr başımıza gəlməzdi...

1918-ci ildə Qarabağda baş vermş qanlı hadisələrdən bəhs edərkən Şuşa haqında ayrıca danışmamaq olmaz. Axı, Andronikin agentləri Qarabağda erməni əhalisinin qiyama təhrik etdikdən sonra Şuşa daşnaklar tərəfindən “Qarabağ Respublikası”nın (“Kiçik Ermənistan”) paytaxtı elan edilmişdi. Andronik şəxsən üç dəfə bu qalaşəhəri tutmağa cəhd göstərmiş və hər dəfə də burnu ovularaq böyük itkilərlə öz yuvasına - Gorusa geri çəkilməyə məcbur olmuşdu. (Bax: Aydın Balayev. Azerbaydcanskoye nasionalno-demokratiçeskoye dviceniye. Bakı, 1990, səh. 51). Bəs qəhrəman Şuşa əhli 1918-ci ildə buna necə nail olmuşdu?

1918-ci ilin qanlı hadisələri, bütün Qarabağda olduğu kimi, Şuşada da mürəkkəb vəziyyət yaratmışdı. O zaman 40 minlik Şuşa əhalisinin təqribən yarısı azərbaycanlılardan, yarısı isə ermənilərdən ibarət idi. Şəhər hər tərəfdən 12 erməni kəndi ilə əhatə olunmuşdu. Onların arasında yeganə azərbaycanlı kəndi Malıbəyli idi.

1918-ci ilin mayında Zaqafqaziyada üç müstəqil respublikanın yaranması ilə Şuşada da erməni-azərbaycanlı münasibətləri gərginləşdi. Ermənilər, “Qarabağ Respublikası” yaratmaq planı ilə azərbaycanlıların razılaşmasına nail olmaq üçün şəhərə gələn bütün yolları bağlamışdılar. Əsgəran, vasitəsilə Ağdamla əlaqələr kəsilmişdi. 4 ay ərzində şəhərə ərzaq daxil olmamış, şəhərdən çıxmaq istəyənlər gülləyə tutulmuşdu. Andronikin qoşunlarının şəhərə yaxınlaşması xəbəri Şuşa ermənilərinin xüsusilə həyasızlaşmasına səbəb olmuşdu. Onlar silahlanmış halda şəhərin azərbaycanlı hissəsinə sərbəst gəlib-gedir, lakin erməni hissəsinə gedən azərbaycanlıları tərksilah edirdilər. Aclıq təhlükəsi yaranırdı. Ermənilər məhz aclığın köməyi ilə azərbaycanlıları “Qarabağ Respublikası”nı tanımağa məcbur etmək niyyətində idilər. Bu vaxt Azərbaycan hökuməti çox müdrik bir addım ataraq Həsən Bəsri bəyi Şuşaya, Kazım bəyi Qaryaginə (indiki Füzuli), Fəxri bəyi isə Ağdama komendant təyin etdi. Ermənilər komendantların hakimiyyətini, tanımayaraq iki həftə ərzində qurultay keçirmiş, “Qarabağ Respublikası”nın yaradıldığını bəyan etmiş və bu “respublikanın” bütün inzibati vəzifələrini daşnaklar arasında bölüşdürmüşdülər.

Belə ağır zamanda Şuşa azərbaycanlılarının müdafiə sahəsində gördüyü işlər xüsusilə təqdirəlayiqdir. Onlar 4 könüllü dəstə yaratmış, 15 yaşından 60 yaşınadək bütün silah tuta bilən kişiləri siyahıya almışdılar. Gənclər dəstələrə cəlb edilmiş, 45 yaşından yuxarı olanlar isə ehtiyata götürülmüşdü. Əhalini silahlandırmaq üçün komitələr yaradılmışdı. Şuşada olan zabitlərin başçılığı ilə gənclər hərbi işi öyrənirdilər, bu məqsədlə qərargah yaradılmışdı. Ətrafdakı erməni kəndlərdən gözlənilən hücumun qarşısını almaq üçün tədbirlər görülmüş, şəhərin azərbaycanlı hissəsi dörd tərəfdən səngərlərlə əhatə olunmuşdu, səngərlərdə gecə-gündüz keşikçilər qoyulmuşdu. Şəhərdə ərzağın, suyun çatışmadığı bir zamanda Bakının türk və Azrbaycan qoşunları tərəfindən azad edilməsi xəbəri onun müdafiəçiləri arasında böyük ruh yüksəkliyi ilə qarşılanmışdı. Onlar bu böyük qələbəni vəziyyətin bütün mürəkkəbliyinə baxmayaraq bayram kimi qeyd etmişdilər.

Bu zaman Şuşa azərbaycanlılarını sevindirən ikinci bir hadisə baş vermişd. Həmin sevinci onlara bu dəfə ermənilər "bəxş etmişdilər". Şuşaya yaxınlaşan və təbii dayaq məntəqəsi olan Qaladərədə Şahnazaryanın quldur dəstəsi burada Şuşadan gələn erməni dəsdələri ilə birləşməli, sonra isə Şuşa üzərinə yeriməli idilər. Bu plan kürd süvarilərinə məlum olmuş və onlar Şahnazaryanın dəstəsinə hücum edərək onu pərən-pərən salmışdılar. Bunu görən Şuşa erməniləri tələsik geri dönərək, səhvən onları azəzbaycanlı dəstələri hesab etmiş öz erməniləri tərəfindən gülləyə tutulmuşdular.

Bəli, 1918-ci ildə Şuşa azərbaycanlılarının qətiyyətli hərəkətləri şəhərin düşmən tapdağı altına düşməsinə yol verməmiş, onu ləyaqətlə qorumuşdu. Tezliklə şuşalıların bu fədakarlığı layiqincə qiymətləndirildi. İsmayıl Həqqi bəyin başçılığı altında şəhərə yaxınlaşan türk və Azərbaycan qoşunları 1918-ci il sentyabrın 25-də Şuşanı ermənilərin mühasirəsindən xilas etdilər. "Qarabağ Respublikası rəhbərləri"nin itaət göstərməkdən və Azərbaycan dövlətini tanımaqdan savayı yolu qalmadı. Şuşanı 4 ay müddətində qoruyub saxlamış müdafiəçilərinin fədakarlığı əsl mərdlik nümunəsi sayıla bilər və heç şübhəsiz, milli tariximizin şanlı səhifələrindən birini təşkil edir.

## ZƏNGƏZUR QIRĞINLARI

Azərbaycan üçün, doğma xalqımızın müsibətləri baxımından faciələrlə dolu bir il - 1918-ci il əzəli türk torpaqları, olan Zəngəzur qəzasından da yan ötməmişdir. Lakin Zəngəzurun faciəsi və bəlalarının daha ağrılı tərəfi budur ki, bunlar təkcə 1918-ci ildə bitməmişdir, bu və ya başqa formada sonrakı illərdə də davam etdirilmişdir. Əlbəttə bunlara da dözmək olardı. Təki bu torpağın Azərbaycan Demokratik Respublikası başçılarının səyi və milli ordumuzun fədakarlığı sayəsində Azərbaycanın, ayrılmaz hissəsi kimi qorunaraq saxlanması bolşevik rejimi tərəfindən də təmin edilə idi. Lakin təəssüf ki, belə olmadı. Rus

silahının gücü ilə hakimiyyətə gətirilən Azərbaycanın bolşevik hökuməti bu məsələdə xəyanətkarcasına hərəkət etdi. Xalqın qanı bahasına qorunub saxlanmış bu müqəddəs torpaqlar "uf da deyilmədən" Ermənistana peşkəş edildi. Görünür, elə bu "alicənablığımızın" nəticəsidir ki, onsuz da əzəli Azərbaycan torpaqları hesabına özlərinə ərazi və "respublika" düzəltmiş daşnaklar bu gün bir daha öz dişlərini Azərbaycan torpaqlarına qıcamış və həmin xülya uğrunda "mübarizə"də hələ ki, güclü hamilərin hesabına "parlaq nəticələr" əldə etməkdədirlər.

Zəngəzur torpaqlarında daşnakların 1918-ci ildə törətdiyi qanlı cinayətlərin mərkəzində yenə də qəddar cani və qatil, bu gün isə rəsmi Ermənistan, erməni lobbisi və diasporu tərəfindən "erməni xalqının milli qəhrəmanı" kimi dünya ictimaiyyətinə təqdim edilən tayqulaq general Andronik durur. Bu cinayətlərin başlanğıcı Ərzurumda qoyulmuş, Naxçıvanda, Göyçə mahalında, İrəvanda daha amansızlıqla davam etdirilmiş, Zəngəzur və Qarabağda əsl mənada vəhşilik səviyyəsinə çatdırılmışdı. Nəticədə on minlərlə azərbaycanlı, kürd əhalisi dəhşətli əziyyətlərə, məhrumiyyətlərə məruz qalmış, həlak olmuş və yaralanmışdı. Həlak olanların əksəriyyəti yalnız azərbaycanlı, yaxud müsəlman olduqlarına görə qətlə, yetirilmişdilər. Bu da məlumdur ki, ölənlərin böyük əksəriyyətini qadınlar, qocalar və uşaqlar təşkil etmişdi. Bəli, yaxın tariximizin acı təcrübəsi və həqiqətləri belədir.

Əldə olan sənəd və materialların hətta ötəri də olsa nəzərdən keçirilməsi belə bir nəticə çıxarmağa əsas verir ki, 1918-ci ildə Azərbaycanın şərqində (Bakı, Quba, Şamaxı, Lənkəran və s.) Bakıdakı Şaumyan hökumətinin tam razılığı və Amazasp, Tatevos Əmirov və başqaları kimi daşnak cəlladların əli ilə törədilmiş qanlı cinayətlərlə, onun qərbində (Naxçıvan, İrəvan Zəngəzur və Qarabağ) baş vermiş vəhşiliklər arasında üzvi bir əlaqə vardır. Bu qanlı cinayətlərin bir, məqsəd-"Böyük Ermənistan" sərsəmləməsi naminə törədildiyi və vahid mərkəzdən-Rusiyadan idarə olunduğu arxiv, sənədləri işıq üzü gördükcə daha çox aşkara çıxır. Əks təqdirdə, "Türkiyə Ermənistanı haqqında" Rusiya Sovet hökumətinin 29 dekabr 1917-ci il tarixli-dekreti ilə "türklərin zülmü altında inləyən" erməni qardaşlarının dadına çatmaq, Qərbi Ermənistanın muxtariyyatı məsələsini həll etmək üçün hətta Lenindən müvafiq mandat almış Şaumyan niyə Bakıda qalıb burada yerli sovet (əslində daşnak-bolşevik) hökumətinə başçılıq etməli idi? Məgər onu əvəz edəcək başqa bir adam yox imiş? Niyə Lenin Şaumyana hamıdan çox inanırdı? Bəlkə ona görə ki, o, on minlərlə azərbaycanlını məhv etmək hesabına Bakı neftini Rusiyaya axıtmaqda davam etmişdi? Əlbəttə, Şaumyanı əvvəldən də tanıdığı, onun millətçilik mərəzinə mübtəla olduğunu bildiyi halla, ona Azərbaycanın ürəyinin başında belə böyük səlahiyyətlər verməsi, heç şübhəsiz, qarşılıqlı, güzəştlər hesabına olmuşdu: Leninə-neft, Şaumyana -Böyük Ermənistan.

Yaxud, tarixdən məlumdur ki, xəyanətinə görə türklər tərəfindən tayqulaq edilmiş general Andronik 1917-ci il dekabrın 19-da erməni milli şurasının iclasında həyasız bir bəyanat vermişdi: "Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən

günü sabah Ərzuruma yola düşərəm... türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün öz rəşadətli dəstəmlə gedərəm və məni heç kəs dayandıra bilməz" (Arif Mansurov. Belıyepyatna istorii i perestroyka. Bakı, 1990, səh. 128). Bəlkə elə Apdronikin də dilini, açan, qulağının birinin kəsik olduğunu ona unutduran Türkiyə və Azərbaycan torpaqları hesabına yaradılacaq "Böyük Ermənistan" vədi olmuşdur?

Məlum olduğu kimi, Şaumyan və onun ətrafında hərlənən hər cür erməni tör-töküntüləri Bakıda azərbaycanlıların qırğınına hazırlıq görməyə məhz elə 1918-ci ilin əvvəllərindən başlamşdılar. Andronikin "müzəffər" yürüşlərinin başlanğıcı da elə həmin vaxtda qoyulmuşdu. Bakıda daşnakların "bolşevikləşməsi" prosesi də həmin dövrdən başlanmışdı və az bir vaxtda Azərbaycan xalqına nifrətini gizlətməyən çoxlu daşnak, qisasçı və başqa riyakarlar birdən-birə dönüb "bolşevik" olmuşdular. Andronik də 1917-ci ilin oktyabrında guya daşnak partiyasından çıxmışdı. Görünür, hadisələrin əlverişli gedişi onu da "bolşevikləşdirmişdi". Halbuki bəşəriyyətə qarşı törətdiyi cinayətlərə görə ən azğın faşist cəlladları ilə bir cərgədə duran bu adam bütün - ömrü boyu daşnakların mənfur siyasətinin üzüyola və qəddar icraçısı olmuşdur. Sonra, Tiflisdə elə o dövrdə dərc olunan erməni qəzetlərindən birində yazılmışdır ki, general Andronik 1920-ci ilədək xaricdə daşnak hökumətini təmsil etmişdir. Bu faktın özü bir daha təsdiq etmirmi ki, o, ömrünün sonunadək cinayətkar daşnak siyasətinin sadiq icraçısı olaraq qalmışdır? ("Odlar yurdu" qəzeti, № 11. iyun, 1990-cı il). Bu fikri təsdiq edən daha bir misal. Akadmik Ziya Bünyadov göstərir ki, Azərbaycanda Sovet hakimiyyəti qurulması və XI Qızıl Ordu hissələrinin Bakıya daxil olması ərəfəsində 40 minlik Azərbaycan ordusu kimi ciddi bir təhlükə mövcud idi. Ordunun Bakını tərk etməsinə nail olmaq məqsədilə A. Mikoyan köhnə şefi, daşnak briqadasının komandiri Amazaspla (Mikoyan onun yanında komissar olmuşdu) və hələ onda Maku xanının xidmətində olan Androniklə əlaqə yaratdı və onlar öz briqadalarını Zəngəzurdan keçirib Qarabağa tərəf yönəltdilər. Yolüstü, daşnaklar Zəngəzur və Qarabağ kəndlərində azərbaycanlıları (qadınları, uşaqları, qocaları) insafsızcasına öldürürdülər. Onda Azərbaycan ordusu Bakıda 2000-ə yaxın əsgər saxlayaraq daşnakların üzərinə yeridi və Əskəran yaxınlığında Amazaspda Andronikin daşnakları məğlub olaraq qaçmağa üz qoydular ("Elm" qəzeti, 1 noyabr 1988-ci il).

A. Bukşanın "Bakı kommunası - kommunarlarının son günləri" (Bakı, 1928) kitabında verilmiş Suren Şaumyanın məhkəmə ifadəsi də bu mənada əhəmiyyətlidir. O, ifadəsində bildirmişdi: "Həbsxanadan çıxmazdan əvvəl mən yoldaş Stepanla (BXKS-nin sədri S.Şaumyan nəzərdə tutulur. - K.M.) danışa bilmişdim. O, çox fikirli halda dedi:- Sonuncu cəhd göstərmək istəyirəm, bilmirəm nə alınacaqdır. Mən istəyirəm daşnaklar, ingilislərin onları aldatdığına əmin olduqdan sonra, snlarla yenidən əməkdaşlıq haqqında məsələ qaldıram. Mən buna az inanıram, lakin ola bilər ki, biz bu yolla Bakını xilas edə bilərik" (Arif Mənsurov, göstərilən kitab, səh. 108).

Bu məqsədlə o, daşnaksütyun partiyasının banilərindən biri, o zaman Bakıda olan Rostom Zoryanın adına məktub yazmışdı. Erməni milli şurasından öz təklifinə rədd cavabı alan S.Şaumyan təəssüflə demişdi: "Aydındır ki, onlar bizim üçün və ümumi məqsədlər naminə heç nə etmək istəmirlər" (yenə orada, səh. 108).

Heç şübhəsiz, "ümumi məqsədlər naminə» əməkdaşlıq dedikdə Azərbaycanın hesabına "Böyük Ermənistan" yaratmaq ideyasını davam etdirmək nəzərdə tutulmuşdur.

Bundan başqa, istər Şaumyanın, istərsə də Mikoyanır Andronikə necə böyük ümidlər bəslədiyi, ona necə inandıqları da yaxşı məlumdur. Məgər Androniki "xalq qəhrəmanı" kimi təbrik edən və onu bu adla da Leninə təqdim edən Şaumyan deyildimi? Şaumyanın həbsxanada olarkən Sentrokaspi hökumətinə verdiyi təklifləri barədə yəqin ki, çoxları bilmir. Həmin təkliflərində isə Şaumyan Andronikin dəstəsinin Bakıya dəvət edilməsini də irəli sürmüşdü (guya Bakının müdafiəsi üçün).

Yaxşı ki, Sentrokaspi hökumətində bu hiyləyə uyanlar, tapılmamış və məsələnin ilkin müzakirəsindən sonra Şaumyanım nümayəndəsi V.Sturuaya haqlı olaraq bildirilmişdi ki, Şaumyan və onun həmfikirləri Androniki Bakıya dəvət etməklə burada 1918-ci ilin mart hadisələrini təkrar etmək, yəni azərbaycanlıların qırğınını davam etdirmək istəyirlər, buna isə heç vəchlə yol vermək olmaz. Beləliklə, Şaumyanın Azərbaycanın şərqində və qərbində fəaliyyət göstərən daşnak quldur dəstələrinin səylərini birləşdirmək cəhdləri xoşbəxtlikdən baş tutmamışdı.

Sənədlər göstərir ki, Andronikin quldur dəstələrinin saxlanmasına birbaşa Bakıdan maliyyə yardımı da göstərilirmiş, 1919-cu il yanvarın 29-da "Qruziya" qəzetində maraqlı bnr sənəd dərc edilmişdir. Bu, əlahiddə erməni zərbə dəstəsi rəisinin (Andronikin) general mayor Biçeraxovun adına göndərilmiş 10 dekabr 1918-ci il tarixli minnətdarlıq məktubu idi. Məktubda bildirilirdi ki, Zəngəzur erməni milli şurasının üzvləri Arşak Şiranyan və Nikolay Osipov Bakıdan qayıdaraq özləri ilə bir milyon manat pul gətirmişlər. Sənədin altında rus dilində "erməni zərbə dəstəsi" sözləri yazılmış və ikibaşlı. qartal-təsvirli möhür vurulmuşdur (Azərb. EA xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, № 4. səh.95).

Başqa bir sənəddə isə Azərbaycan kəndlərinə basqınlar edərək qanlı cinayətlər törədən quldur dəstələrində vaxtilə bolşevik hərbi dəstələrində xidmət etmiş erməni zabitlərinin də vuruşduğu göstərilir. Məsələn, Zəngəzur zərbə dəstəsinin öldürülmüş zabitlərinin-Andrey Tevosovun və Bahan Komarovun adlarına verilmiş sənədlərdən aydın olur ki, onlar əvvəllər Lənkəran bolşevik dəstəsində xidmət etmişlər (yenə orada, səh. 146).

Əlbəttə, belə sənədlərin sayını artırmaq mümkündür. Bu sənədlər istər Şaumyanın istərsə də Andronikin eyni ideallara xidmət etdiyini yalnız təsdiq edir və buna olan şübhələrli yoxa çıxarır. Məhz belə "qəhrəman" və "rəhbərlərini" azğın fəaliyyətləri nəticəsində hər dəfə azərbaycanlıların yeni soyqırım faktları

aşkara çıxırdı. N. Nərimanovun haqqlı olaraq göstərdiyi kimi, hər dəfə ölənlərin 99%-ni yalnız müəyyən mllləti (yəni azərbaycanlıların) nümayəndələri təşkil edirdi.

1918-ci ilin yayından başlayaraq Zəngəzurda baş verən qanlı hadisələr erməni cəlladların belə qeyri-insani əməllərdə nə qədər səriştəli olduqlarını bir daha dünyaya məlum etdi.

Andronik Zəngəzur qəzasına hücum etməzdən əvvəl, necə deyərlər, Göyçə mahalında "zəngin təcrübə qazanmış", Naxçıvanda "(Sovet hakimiyyəti elan etmiş", məhz Leninin gözündə "xalq qəhrəmanı kimi" yüksəldikdən sonra o zaman Azərbaycanın ayrılmaz hissəsi olmuş Zəngəzura hücum etməyə cəsarət göstərmişdir. Törətdiyi cinayətlər üçün heç kəs qarşısında məsuliyyət daşımaması onu daha, da azğınlaşdırmışdır. Naxçıvanda törədilmiş vəhşiliklərdən ayrıca söhbət açılacağını nəzərə alaraq, biz Andronikin Göyçə mahalının təkcə Basarkeçər bölgəsindəki "qəhrəmanlıqları" üzərində bir qədər ətraflı dayanmaq fikrindəyik.

1918-ci ilii əvvəllərində Andronikin quldur dəstələri Basarkeçərə gəlmiş və burada 6 erməni kəndi istisna olmaqla Azərbaycan kəndinin hamısında hərbi postlar qoymuşdular. Andronikin sağ əli rotmister Silikov qardaşlarının və mayor Vahramın başçılıq etdiyi qərargahın tapşırığı ilə Azərbaycan kəndləri üçün xərac müəyyən olunmuşdu. Andronik vəhşiliklərinə xas olan belə, bir səciyyəvi cəhəti də göstərmək lazımdır, ki, onlar məhz camaatın var-yoxunu əlindən aldıqdan sonra kəndlərdə kütləvi qırğınlara başlayırdılar. Burada da belə olmuşdu. Əvvəlcə kəndlər arasında gediş-gəliş qadağan olunmuş, sonra isə bölgənin erməni əhalisi arasında Andronikin xüsusi əmrini yaymışdılar ki, hansı erməni türkə kömək etsə, onu gizlətsə, yerindəcə güllələnəcəkdir. Bundan sonra daşnaklar özlərinin bədxah niyyətlərini birbaşa həyata keçirmiş və Novruz bayramına bir gün qalmış azərbaycanlıları kütləvi surətdə qırmağa, onların evlərini yandırmağa başlamışdılar. Həmin məsum gecədə Andronikin cəlladları təkcə Şişqaya kəndində 640-nəfəri yandırmış və güllələmişdilər (onlardan 380 nəfəri uşaq, qadın və qoca olmuşdur). Erməni yaraqlıları Kiçik Məzrə kəndində 90 nəfəri öldürmüş, iki qadını əsir götürmüş, Hüseynquluağalıda 30, Daşkənddə isə 21 adamı öldürmüş, evləriii yandırmışdılar. 40 mindən artıq adam öz doqma yurdlarını tərk edərək Kəlbəcər-Qumlubulaq aşırımı ilə Azərbaycana qaçmışdılar ("Vətən səsi" qəzeti, 4 iyul 1990-cı il). Şişqayada azərbaycanlı ağsaqqalların bir qrupu daşqalaq edilmiş, adamların belinə qaynar samovar bağlamaqla onların qətlə yetirilməsi kimi vəhşiliklər törətmişdilər. Heç şübhəsiz ki, tarix belə qeyri-insani ölüm hallarının "kəşfi üçün" erməni "xalq qəhrəmanı" Andronik barədə öz obyektiv sözünü deyəcəkdir.

Lakin bu heç də o demək deyildir ki, erməni cəlladlarının azğınlığı həmişə "zəfərlə" başa çatmışdı və necə deyərlər, onların burunları heç yerdə ovulmamışdı. Ayrı-ayrı yerlərdə işğalçılar ciddi müqavimotə rast gəlmişdilər. Məsələn, Zod kəndində toqquşma zamanı erməni dəstə komandiri rotmistr Silikov qardaşları,

kornet Xaçaturov, adyutant və daha 15 daşnak məhv edilmişdi, (Azərb. EA Xəbərləri, 1989, 4, səh. 91-92).

Andronikin Göyçə mahalında törətdiyi cinayətlər nəticəsində Çamırlı, Mədinə, Bığlı, Anağızoğlu, Qışlaq, Qulalı, Küsəcik, Alçalı, Kiçik Qaraqoyunlu və Dəliqardaş kəndləri yerlə yeksan edilmiş, xarabazarlığa çevrilmişdi. Basarkeçərdə "qəhrəmanlırı" ilə xususi fərqlənmiş Andronikin yaxın silahdaşı, mayor Vahramın aşağıdakı sözləri bu cinayətkarların əsl simasını və məqsədini necə də aydın ifadə edir: "Mən heç nəyə fərq qoymadan Basarkeçərin turk əhalisini məhv etdim. Lakin bəzən gülləyə heyfim gəlir. Bu itləri qırmaq üçün ən yaxşı vasitə odur ki, döyüşdən sonra sağ qalanların hamısını yığıb quyulara doldurasan və üstündən ağır daşlar qoyasan ki, onlar bu dunyada qalmasınlar. Mən belə də etdim: bütün kişiləri, qadınları və uşaqları yığıb quyulara tökdüm, quyuların ağzını daşlarla bağlayaraq onların işini bitirdim" (A.Lalayan-Kontrevolyutsionnıy daşnaksutyun i imperialastiçeskaya voyna 1914-19181q. Azərb. EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, №4 səh. 50).

Bəli, insanlıq simasını itirmiş bu insanabənzər yırtıcıların yeganə məqsədləri ondan ibarətdi ki, hansı vasitələrlə olursa-olsun, Azərbaycan torpaqlarını azərbaycanlılardan təmizləsinlər və onu gələcəkdə Ermənistan elan etsinlər. "Azərbaycan" qəzetinin 1919-cu il 14 (1) yanvar tarixli sayında tamamilə haqlı qeyd edildiyi kimi, məhz - bu məqsədlə "... Ermənilər minlərlə müsəlmanı doğrayır, qanımız sel kimi dağlara, səhralara axıdılır, yüzlərlə kənd yerlə yeksan edilir, ermənilərin ayaqları altında namusumuz tapdalanır. Hara baxırsansa bax, hər yerdə musəlman qaçqınlarıdır, hər yerdə qadınların, qızların ağlaşması eşidilir… Ermənilər bu torpaqları müsəlmanlardan təmizlədikdən sonra bizim xalqdan artıq burada bir iz də qalmayacaq..."

Apdronikin əsl cəllad siması 1918-ci ilin yayında özünü büruzə verdi. Bu vaxt türk, ingilis və almanlar arasında Zaqafqaziya respublikalarına münasibətdə baş verən ziddiyyətlərdən istifadə etməyə çalışan, Bakıda Şaumyanın erməni hökumətinin ağır vəziyyətə düşməsindən sonsuz dərəcədə məyus olan Andronik öz quldur dəstələri ilə Azərbaycan sərhədlərini keçərək qəflətən Zəngəzura hücum etdi. Onun quldur və başkəsənləri çoxlu sayda Azərbaycan kəndlərini dağıdıb yandırdılar, əhalini qırıb məhv etdilər, yurdlarından didərgin saldılar. Onların yalnız bu hucumları zamanı Zəngəzur qəzasında 20-ə qədər kəndin əhalisi öz doğma yurdunu tərk edib İrana, Qarabağa və İrəvana qaçmaqla canlarını xilas etdilər. ("Gənclik", 1989, № 11 səh. 7.)

1918-ci ilin sentyabr ayından Andronikin quldur dəstələrinin Zəngəzur qəzasına hücumları sistemli şəkildə həyata keçirilməyə başlandı. Nəticədə Zəngəzur bölgəsinin Rut, Darabe, Aqadu, Baqudı kəndləri talan edildi: Arxalı, Şyakur, Məlikli, Pulkənd, Şəki, Qızılcıq azərbaycanlı kəndləri, habelə Qarakilsə, İrlik, Pəhlulu, Dərəbas, Qurdlar, Kotanan, Sisiyan və Zəbəzdur kəndlərinin azərbaycanlılar yaşayan hissələri yandırıldı, bu zaman qaçıb xilas olmağa imkan

tapmamış 500 nəfər kişi, qadın və uşaq öldürüldü. (Azərb. EA xəbərləri; 1989, № 4 səh. 85).

1918-ci il sentyabrın sonundan Andronikin dəstələri Zəngəzurun birinci bölgəsinin azərbaycanlı əhalisini ardıcıl olaraq qətlə yetirmiş, bir çox kəndləri tamamilə dağıtmışdılar. Tarixin lal şahidləri - rəngləri solmuş arxiv sənədləri Andronik cəlladlarının keçib getdiyi Azərbycan kəndlərinin dəhşətli vəziyyətindən xəbər verir. Bu sənədlər inkaredilməz şəkildə təsdiq edir ki, dinc azərbaycanlı əhalinin hər yerdə kütləvi surətdə qırılması əsl milli fəlakət səviyyəsinə çatdırılmışdır. Andronikin hər yerə ölüm, səfalət, dilənçilik gətirən cəlladlarının alçaq əməlləri 1918-ci il noyabr ayının ortalarında daha geniş miqyas almış və Zəngəzurun əksər bölmələrini əhatə etmişdir.

Onu da qeyd etmək lazımdır ki, Zəngəzur qəzasının təbii coğrafi şəraitinin mürəkkəbliyi də onun müdafiəsinin təşkili üçün təcili tədbirlər görülməsini xeyli çətinləşdirirdi. Yüksək dağlıq ərazidə yerləşən qəzanın Şuşa qəzası ilə tamamilə, Cəbrayıl qəzası ilə isə əsasən əlaqəsi kəsilmişdi. Xüsusilə erməni kəndlərinin arasında qalan Azərbaycan kəndləri ağır vəziyətə düşmüşdü. Əlverişli mövqedə yerləşmələrindən və əksəriyyət təşkil erməl追rindən cəsarətlənən ermənilər təşəbbüsü ələ alaraq Azərbaycan kəndlərini üzük qaşı kimi əhatəyə aldıqdan sonra öz bəd əməllərinin icrasına başlayırdılar. Məsələn, 1918-ci il dekabrın 14-ə olan məlumatda deyilirdi ki, Andronikin dəstəsi yerli ermənilərlə birlikdə 9-cu bölmənin Nüvədi kəndini mühasirəyə almışlar, müsəlmanların qırğını gedir. Qaladərəsi kəndi ətrafında öyüşlər getməkdədir. Başqa bir məlumatda isə göstərilirdi ki, ingilis-fransız nümayəndə heyətinin xəbərdarlığı əsasında müsəlmanlar öz mövqelərini tərk etdikdən sonra ermənilər Andronikin komandanlığı altında qəflətən müsəlman kəndlərinə basqın etmişlər. Onlar cinsə yaşa fərq qoymadan azərbaycanlıları vəhşicəsinə öldürür, onların meyitlərini təhqir edirlər, təkcə dekabrın 9-da 12-dən artıq kənd yandırılmışdır (Yenə orada, s. 86). Azərbaycanın digər qəzaları ilə müqayisədə Zəngəzur qəzasının vəziyyətinin ağır olması, həm də onunla əlaqədar idi ki, deyildiyi kimi, burada yerli erməni kəndlilərinin silahlı quldur dəstələrindən başqa, general Andronikin komandanlığı altında yaxşı təşkil olunmuş qoşun hissəsi də var idi.

Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylovun məlumatlarına görə, sərəncamında əhəmiyyətli hərbi qüvvə və silahlı erməni kəndlilərinin və yəqin ki, Ermənistan Respublikasının müvafiq direktivləri olan Andronik Azərbaycan hüdudlarına soxulduqdan sonra, müsəlman əhalisinə ultimatum verərək onlardan erməni hökumətinə tabe olmağı, yaxud da qəza ərazisini tərk etməyi tələb etmişdi; o, bu ərazini Ermənistan Respublikasının tərkibinə daxil etmək istəyirdi. Qəza müsəlmanları öz kəndlərində bütün dünyadan təcrid olunmalarına, heç yerdən müdafiə və kömək gözləmdiklərinə, ayrı-ayrı kəndlərin zəif silahlanmalarına baxmayaraq, yenə də ermənilərin tələblərinə tabe olmamışdılar. Ermənilər isə bunun müqabilində müdhiş qəddarlığa əl atmışdılar.

Öz respublikalarının ərazisini genişləndirməyə cəhd göstərərkən ermənilər, hətta müsəlmanlar könüllü surətdə doğma ocaqlarını tərk etdikdə belə, onlara rəhm etmir, kəndləri yandırır, yerlə yeksan edir, sakinləri vəhşicəsinə öldürür, mal-qaranı sürüb aparır, onların əkin sahələrini şumlayırdılar. Bu vəhşiliklər nəticəsində 918-ci ilin yalnız yay və payızında Zəngəzurda 115 Azərbaycan kəndi məhv edilmiş, dağıdılmış və yandırılmışdı (A. Balayev, Azerbaydcanskoye nasionalno-demokratiçsskoye dviceniye, Baku, 1990, s. 50). Lakin bu rəqəmin özü də vəziyyəti tam əks etdirmirdi. Çünki 2-5 evdən ibarət olan 10-a yaxın xırda yaşayış məntəqəsi bura daxil edilməmişdi. 1918-ci ilin yay və payız talanlarından sonra qəzada aşağıdakı acınacaqlı vəziyyət yaranmışdı: Qəzanın Sisiyan mahalının 1-ci polis məntəqəsinin bütün Azərbaycan kəndləri, 2-ci məntəqənin böyük hissəsi, 3-cü, 4-cü və 5-ci məntəqələrinin xeyli hissəsi tamamilə məhv edilmişdi. Bəzi kəndlər tam mənada yerlə yeksan edilmiş, biri isə ermənilər tərəfindən hətta şumlanmışdı. 50 min nəfərədək azərbaycanlı doğma ocağını tərk edərək qəzanın 4-cü məntəqəsində və Cəbrayıl qəzasında yerləşmişdi (Azərb. EA xəbərləri, 1989, № 3, səh. 137).

Andronik cəlladlarının Zəngəzur qəzasında törətdikləri vəhşiliklər xüsusi təhqiqat mövzusudur. Bu barədə vaxtilə də xeyli təhqiqat aparılmış, müvafiq akt və sənədlər tərtib edilmişdir. Yəqin ki, bu sənədlərin araşdırılması və dərc olunması gələcəkdə də davam etdiriləcəkdir. Lakin elə vəhşiliklər vardır ki, onların barəsində susmaq, danışmamaq, sadəcə olaraq, bundan sonra da milləti yuxuya vermək demək olardı. Buna görə də kiçik həcmli məqalənin imkanları nəzərə alınmaqla bu vəhşiliklər barəsində müxtəsər bəhs etmək, zənnimizcə, yerinə düşər.

Zəngəzur qəzasının kəndlərində tam olmayan məlumatlara görə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Beləliklə, qəzadan hər iki cinsdən ölənlərin, yaralananların və şikəst olanların sayı 10068 nəfərə çatmışdır. Lakin bu rəqəmin özü də erməni vəhşiliklərini yalnız qismən əks etdirir, çünki daşnak quldurların ölüm gətirən, rəhm, əfv nə olduğunu bilməyən hucumlarından sonra qəzada yaranan dəhşətli qarışıqlıq şəraitində azərbaycanlıların vahiməyə düşərək qaçması nəticəsində verilmiş bir çox qurbanlar, əlbəttə, aydınlaşdırılmamış qalmışdı.

Mixaylovun məlumatlarında göstərilən, xüsusilə fərqləndirilmiş vəhşiliklərin bəzilərini oxucuların nəzərinə çatdırmaq istərdik. Bəlkə, vaxtilə başımıza gətirilmiş bu müsibətlərdən düzgün nəticə çıxarmadığımıza görə, üstündən 70-75 il keçdikdən sonra təkrarən həmin bəlalara düçar olmağımızın səbəblərini araşdırmaqda bunun müəyyən köməyi dəyər bağışlayan Allah bizi bir daha bu cür bəlalara düçar etməz. 1) Baqudı, kəndində erməni əsgərlərinə verilmiş 15 gözəl qız şərəfsizlik azabına və həmçinin, cismani ağrılara dözməyərək tələf olmuşdular. 2) Yenə həmin kənddə 400 nəfər azərbaycanlı talan vaxtı məscidə toplaşmışdılar, ermənilər məsciddən çıxış yollarını bağlamış, əvvəlcə onun pəncərəsindən içəri əl qumbaraları atmış, sonra isə məscidi içəridəki bütün

adamları ilə birlikdə yandırmışlar. 3.) Yenə həmin kəmddə azərbaycanlı Qadama Tahir qızı xəncərlə doğranmışdır, onun döşünü kəsmiş və yanında uzanmış körpə balasının ağzına dürtmüşdülər. 4) Həmin kənddə Yolçu Şıxhüseyn oğlunu öldürərkən ermənilər onun cinsiyyət üzvünü kəsərək, öldürülmüş bir başqasının ağzına keçirmişdilər. 5) Yenə həmin kənddə gənc qızlar Nisə Əmin qızı, Əcəb Nuhbala qızı, Sona Cəfər qızı və Şahnulu Cəlal qızı can verənə kimi zorlanmışlar. 6) Yenə həmin kəndin yaxınlığında Gülməstə Qasım qızı öldürülmüşdür, onun döşləri kəsilmiş, onurğa sütununa nal vurulmuşdur. 7) Nüvədi kəndində yatağında hərəkətsiz uzanmış yüz yaşlı qoca Əsəd bəy Məlikabbasov süngü ilə deşik-deşik edilmişdir. 8) Yenə həmin kənddə ermənilər qılınc və xəncərlə küçələrdə qaçan qadın və uşaqların başlarını kəsmişlər. 9) Şəki kəndinin küçələrində döşləri kəsilmiş qadın və tən ortadan ikiyə bölünmüş uşaq meyitləri qalmışdı. 10) İyirmi kənddə talan vaxtı ermənlər körpə uşaqları süngüyə keçirmişdilər, parça-parça doğranmış qadın meyitləri tapılmışdı. 11) Aqudı kəndində ermənilər azərbaycanlılardan xristianlıq dininə keçməyi tələb etmiş, qadınların döşlərini kəsmiş və uşaqların ağzına soxmuşlar. 12) Aqudı kəndində ermənilər Qulaməli Şəkər oğlunun gözləri baxa-baxa topuğunu kəsmiş, sonra isə süngü və qamçı ilə öz qanını axıdıb ölənə kimi ayaq üstə yeriməyə məcbur etmişlər. 13) Həmin kənddə bütün gözəl qızları əvvəlcə zorlamış, sonra isə öldürmüşlər. 14) Çullu kəndində ermənilər yataqda uzanmış 9 nəfər xəstəni qılıncdan keçirmişlər. 15) Bağırbəyli kəndində erməiilər 7 nəfər kişi və qadını bir evə toplamış və evə od vuraraq onları diri-diri yandırmışlar. 16) Müsəlmanlar kəndində meyitlər o qədər eybəcərləşdirilmiş və tanınmaz hala salınmışdı ki, əllərin, ayaqların, başların kimlərə məxsus olduğunu müəyyənləşdirmək mümkün deyildi. 17) Qatar kəndində hörmətli ağsaqqal Məşədi Qələndər Məşədi Qulu oğlunu öldürmüş, üstünə ağ neft töküb yandırmışlar. 18) Yeni kənddə ermənilər Kərbəlayı Allahverdi Hüseynəli oğlunun əllərini və ayaqlarını bağlayaraq boğazını kəsmişlər. 19) 1-ci Vartanazur kəndində xüsusilə çox sayda qadın və uşaqlar xəncərlə doğranmışdır. 20) İrəvan quberniyası Yeni Bəyazid qəzasının Rəhman əfəndi kəndində İbrahim Hacı Hüseyn oğlu adlı qocanın gözlərini çıxarmış, sonra isə onu öldürərək meyitini yandırmışlar.

Deyildiyi kimi, bu vəhşiliklər Andronik cəlladlarının o zaman Azərbaycanın ayrılmaz hissəsi olmuş Zəngəzur qəzasında törətdikləri ağır cinayətlərin yalnız cüzi bir hissəsidir. Belə cinayətlərin sayı isə yüzlərlə, minlərlədir.

1918-ci ildə Azərbaycanın Zəngəzur qəzasının yüzdən çox kəndi dağılsa da, bağları, tarlaları məhv edilsə də, yüz minlərlə mal-qarası, qoyun-quzusu sürülüb aparılsa da, ən sadə hesablamalarla respublikaya dəymiş zərər milyard manatı ötsə də, biz qonşularımızın bu "yaxşılıqlarını" çox tez unutmuş, üstəlik də Zəngəzuru onlara hədiyyə etmişik.

İnanırıq ki, bu dəfə belə olmayacaq, artıq biz öz yaddaşımızı bərpa etməyə başlamışıq.

# İRƏVAN QIRĞINLARI

Əsrlər boyu türk xalqları geniş ərazidə yaşamışlar. Qədim Oğuz yurdu olan indiki Ermənistan ərazisi də belə yaşayış məskənlərindən biridir. Bu elə bir tarixi həqiqətdir ki, həmin ərazidə mövcud olan türk mənşəli coğrafi adlar, bu ərazinin müxtəlif bölgələri ilə əlaqədar olaraq xalq arasında geniş yayılmış əfsanə və rəvayətlər, bir çox tarixi hadisələr, əsrlərin sınağından çıxmış möhtəşəm qalalar, qədim Oğuz qəbirləri, kurqanları bu fikri tam təsdiq edir. Daha çox Azərbaycan türklərinin məskunlaşdığı bu əraziyə ermənilər, əsasən, Türkmənçay müqaviləsindən sonra kütləvi şəkildə köçməyə başlamışlar. Lakin buna baxmayaraq, iyirminci əsrin birinci rübünə qədər Ermənistanda azərbcanlılar başqa xalqlara nisbətən böyük üstünlük təşkil etmişlər. Belə ki, hələ keçən əsrdə Türkmənçay müqaviləsi bağlandığı ərəfədə İrəvanda 1807 ailə, yəni 7331 nəfər azərbaycanlı yaşayırdısa, burada 567 erməni ailəsi, o cümlədən, 2369 nəfər erməni məskunlaşmışdı. Onu da qeyd edək ki, bu ermənilərin müəyyən qismi İrandan və Türkiyədən təzəcə köçüb gəlmişdi. Həmin dövrdə İrəvanda 4 xan, 41 bəy və sultan ailəsi, 50 axund və molla olubsa, burada cəmi 8 məlik və 13 keşiş yaşayıb fəaliyyət göstərmişdir. Həmin vəziyyət əsrimizin birinci rübündə də dəyişməmişdir. 1916-cı ilin yanvar ayına olan məlumata görə azərbaycanlılar İrəvan ərazisində əhalinin etnik tərkibində böyük üstünlük təşkil etmişlər. Belə ki, həmin dövrdə İrəvan qəzasında 74,2 min nəfər, yaxud əhalinin 48 faizi, Zəngəzur qəzasında 119,5 min nəfər, yaxud 53,3 faiz, Yeni Bəyazid qəzasında 50,7 min nəfər, Sürməli qəzasında 45 min nəfər azərbaycanlı yaşayıb (Bax: İ.Məmmədov, S.Əsədov. “Ermənistan azərbaycanlıları və onların acı taleyi”. Bakı, 1992, səh. 423). Hətta 1938-1939-cu illərdə belə Ermənistanın bəzi rayonlarında mənşəcə türk olan azərbaycanlılar ermənilərə nisbətən, demək olar ki, tam üstünlük təşkil edirdilər. Məsələn, Zəngibasar rayonunda həmin illərdə kəndlərin 95 faizi Azərbaycan kəndləri idi (Bax: “Elturan”. “Milli məsələlər”, 1992, № 1, səh. 15).

Bu gün Ermənistan ərazisində bir nəfər belə azərbaycanlının qalmaması, öz dədə-baba yurdlarını, Oğuz məskənini tərk edib didərgin, qaçqın vəziyyətində yaşamasının kökü əsrimizin əvvəllərinə, tarixin dərinliklərinə gedib çıxır. Zaman-zaman bu ərazidə ermənilər tərəfindən soyqırımı siyasətinin həyata keçirilməsi nəticəsində azərbaycanlıların bir qismi öz yaşayış məskənlərini qoyub qaçmış, bir qismi isə bu mənfur siyasətin qurbanına çevrilmişdir. 1905-1907-ci illər və 1918-1920-ci illərdə bu ərazidə azərbaycanlılara qarşı ən dəhşətli soyqırımı siyasəti həyata keçirilmişdir.

Tarixi araşdırmalar artıq çoxdan sübuta yetirmişdir ki, iki xalq arasında bu cür mənfur soyqırımının tətbiq olunması həmin dövrdə üçüncü bir qüvvənin-çar Rusiyasının böyük hegemonçuluq siyasətinə, müstəmləkəçilik mənafeyinə tam uyğun idi. Xüsusilə həmin illərdə rus ordusunda hərbi xidmətdə olan rus zabitlərinin xatirələrində bu məsələ tam çılpaqlığı ilə öz əksini tapmışdır.

Birinci dünya müharibəsi başlandıqdan sonra çar Rusiyasının Osmanlı imperiyasına qarşı yeritdiyi siyasət Türkiyə ərazisində yaşayan ermənilərin baş qaldırmasına və öz hökumətlərinə qarşı xaincəsinə çıxışlarına səbəb oldu. Ermənilər rus ordusu vasitəsilə Türkiyə ərazisinin bir hissəsini ələ keçirməyə və bununla da uydurduqları "Böyük Ermənistan" ərazisini yaratmağa dərin ümid bəsləyirdilər. Xüsusilə Türkiyənin Ermənistana yaxın əraziləriidə yaşayan ermənilər arasında güclü təbliğat işi aparılır, hazırlıq görülürdü. Onlar 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibəsində nail ola bilmədikləri bu məqsədə bu dəfə maneəsiz çatacaqlarına tam əmin idilər.

Lakin Türkiyə hökuməti ermənilərin bu xəyanətindən vaxtında xəbər tutdu. Daha doğrusu, ermənilər silahsız, dinc türk əhalisinin başına min bir oyun açıb, onlara qarşı əsl soyqırımı tətbiq etdikdən sonra hakim dairələr qəti qərar qəbul etmək məcburiyyəti qarşısında qaldı. Ermənilər bu addımı atmaqla arxa cəbhədə və orduda ixtişaşlar törətmək, rus qoşunlarının irəliləməsinə şərait yaratmaq məqsədi güdürdülər.

Türkiyə hökuməti daha bu xəyanətə göz yuma bilməzdi. Həm döyüşən ordu sıralarında, həm də arxa cəbhədə böyük xəyanətlər törədən Türkiyə erməniləri tezliklə öz layiqli cəzalarına çatdılar, müharibə zonalarından milliyətcə erməni olan bütün Türkiyə vətəndaşları vaxtında sürgün edildi.

Beləliklə, öz törətdikləri xəyanətlərin qurbanına çevrilən ermənilər həm Türkiyə ərazisində, həm də qədim İrəvan torpağında əsl soyqırımı siyasəti həyata keçirməyə başladılar. Hesablamalar göstərir ki, ermənilər təkcə Türkiyə ərazisində həmin dövrdə təxminən 2-2,5 milyona yaxın türk vətəndaşını öldürmüşlər.

Vəhşicəsinə, insan ağlına sığmayan ölüm üsulları ilə qocaların, qadınların, uşaqların öldürülməsi təkcə Türkiyə ərazisində deyil, eləcə də Ermənistanda, habelə Azərbaycanın bir çox yerlərində amansızcasına həyata keçirilirdi. "Daşnaksütyun" partiyasının geniş proqramı əsasın, da həyata keçirilən bu qırğın, əsasən, etnik təmizləmə məqsədi daşıyırdı.

1924-cü ildə İstanbulda çap olunan "Müxtəsər Azərbaycan tarix" kitabında Cahangir Aslanoğlu bu qırğınlar ilə əlaqədar olaraq yazmışdır: "Bakıda mart hadisəsini törədən və Şərqi Azərbaycanı tamamilə dəmir və atəşdən keçirən daşnaklar Cənubdada sakit oturmadılar. İrəvan vilayətinin bütün kəndləri Andronik, Dro və sair sərkərdələr tərəfindən yer ilə yeksan və əhalisi məhv edildi.

Bu qırğından qurtulanların hamısı Gəncəyə döndülər. İrəvan hadisəsi Seymin 5, 7, 19, 20 fevral iclaslarında böyük gurultulara səbəb, olmaqla İrəvana heyətlər göndərildi. Bu heyətlər tədqiqat apararaq qayıtdı və İrəvan vilayətində 211 türk göyünün (Azərbaycan kəndinin - V. H.) təxrib və yüz minə qədər əhalisinin məhv edildiyini isbat etdilər. Beləcə, İrəvan vilayətində olan müsəlman türklər məhv edildilər və çarizm zamanında İrəvan vilayətində üç yüz min türkdən indi üç min belə qalmamışdır"..

Bu faktlar heç də əhaliyə qarşı tətbiq edilən vəhşilikləri hələ tam, açıb göstərmir. Qırğın rayonlarından başını birtəhər götürüb qaçmış azərbaycanlalar Gəncə əhalisi tərəfindən böyük ürək ağrısı ilə qarşılanırdı. Əksəriyyəti ayaqyalın, başıaçıq, ac vəziyyətində olan bu məzlum insanların hər biri erməni qırğınında öz əzizini itirmişdi. Qaçqınların bu vəziyyəti barədə sonralar Daxili İşlər Nazirinə məlumat göndərən Gəncə qubernatoru bu haqda belə yazmışdır: "Erməni vəhşiliyi yanında orta əsrlərdə törədilmiş vəhşiliklər, cinayətlər çox solğun görünür. İnsan inana bilmir ki, iyirminci əsrdə bütün Avropada öz mədəniyyətindən dəm vuran bir xalq köməksiz, dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq etmiş olsun. Hər gün quberniyanın hər yerindən alınan raportların, məlumatların yaratdığı dəhşətlərlə bu sətirləri yazmaq çətindir: qadınlar zorlanır, uşaqlar odda yandırılır, dillər, qulaqlar kəsilir, işgəncələr, təhqirlər..." (Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı, 1990, səh. 192-194).

Ermənistan ərazisində 1918-1920-ci illərdə müsəlmanlara qarşı həyata keçirilən soyqırımı, zorakalıq və cinayətlər sonrakı dövrdə ayrı-ayrı erməni tarixçiləri tərəfindən də etiraf edilmişdir. Belə ki, A.A.Lalayan "Daşnaksütyun" partiyasının əksinqilabi rolu" məqaləsində bu məsələyə toxunaraq yazırdı ki, "Daşnaksütyun" partiyası hakimiyyətdə olduğu otuz ay müddətində Zaqafqaziyada erməni əhalisinin otuz beş faizini və türk (azərbaycanlı) əhalisinin altmış faizini məhv etmişdir.

"Daşnaksütyun" Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı silahlı mübarizə apararaq, dövlət tələblərinin yerinə yetirilməsi bəhanəsi ilə dinc əhalini talayır və öldürür, bütöv kəndləri məhv edirdilər" (Bax: Cəmil Həsənov. "Ağ ləkələrin qara kölgəsi" Bakı, Gənclik, 1991, s.76).

Tədqiqatlardan aydın olur ki, Ermənistanda daşnakların hakimiyyəti dövründə azərbaycanlıların sayı yetmiş yeddi faiz, kürdlərin sayı 98 faiz, yezidlərin sayı isə 40 faiz azalmışdır (Yenə orada, s. 77) yəni bu əhalinin böyük əksəriyyəti ermənilər tərəfindən öldürülmüşdür.

Qeyd etmək lazımdır ki, Ermənistan ərazisində azərbaycanlılara qarşı təkcə 1918-ci ildə deyil, əvvəlki dövrdə də soyqırımı siyasəti həyata keçirilib. Jurnalist Qulu Kəngərli "Erməni lobbisi, Azərbaycan faciəsi" kitabının giriş hissəsində bu mənfur siyasətin hələ bir qədər də əvvəl başladığını bildirir. Dərələyəz mahalında bir çox kəndləri ermənilər hələ 1916-cı ildə yandırmışlar. 1917-1918-ci illərdə isə bu mahalın bir sıra kəndlərinin əhalisi ermənilər tərəfindən amansızcasına qırılmışdır.

Dərələyəz mahalında quldurluqda, azərbaycanlıların qanına susamaqda ad çıxarmış Yaponun dəstəsi Zeytə, Qabaqlı, Qurdqulax, Yengicə, Əmağu kəndlərinin əhalisinə hiylə işlədərək qalib gəlmişdi. Kənd camaatının birliyini qıra bilməyən Yapon onlarla barışıq etdiyini, daha vuruşmayacağını bildirmiş və bütün kəndlərdən silahları yığdırmışdı.

Sadəlövh kənd camaatı silahları təhvil verdikdən sonra aldandıqlarını başa düşür. Yapon verdiyi barışıq vədini pozur, qadınları və uşaqları kişilərdən ayırır, onlara işgəncələr verdirməyə başlayır.

Qulu Kəngərli həmin hadisələrin şahidlərinə isnad edərək göstərir ki, "ermənilər qadınları soyundurub musiqi sədaları altında yallı getməyə məcbur eləyiblər. Oynamayanları yerindəcə doğrayıblar. Kişiləri soyundurub sağ və sol nahiyyələrdən budunu kəsib əlini də kəsilən yerə qoydurub soruşurmuşlar: hə, necədi təzə şalvarın?

Kişilərin və qadınların böyük bir hissəsini kəndin ayağında olan qayadan aşağı töküblər (Arpa qayası təxminən 200 metr hündürlüyündədir). 2 min adamdan, deyildiyinə görə, iki nəfər sağ çıxıb. Bir kişi və bir qadın. Onları qayadan atanda qadının tumanı, kişinin isə şineli çətir kimi onları əzilməkdən qoruyub. Beləcə qırıblar beş para kəndin camaatını" (Q.Kəngərli, Erməni lobbisi, Azərbaycan faciəsi, səh. 10-11).

Qaraxaça kəndinin aqibəti daha ağır olub. Ermənilər 500-dən artıq kənd sakinini bir yerə yığıb qılıncdan keçiriblər, zavallı, müdafiəsiz əhalinin bir qismini isə böyük bir dama dolduraraq od vurub yandırıblar.

Samson və Matos Qazaryan qardaşlarının vəhşilikləri bu günə qədər Ermənistan camaatının dilindən düşməyib. Bu vəhşilər körpə uşaqları süngüyə, keçirir, göyə qaldıraraq yerə çırpırmışlar.

Bəzi erməni quldurları müsəlmanlar üzərində yeni işgəncə metodlarını tətbiq etməklə öz iyrənc əməllərindən həzz alırdılar. Kişiləri öldürməzdən əvvəl onlara müxtəlif işgəncələr verir, sonra isə kürəklərinə qaynar samovarı bağlayaraq insan əzablarından həzz, ala-ala deyirmişlər ki, için bu çaydan, axı sizin çay içməklə aranız çox yaxşıdır" (Bax: Yenə orada, səh. 11).

Erməni vəhşiləri azərbaycanlılara qarşı törətdikləri cinayətlərdə çox vaxt gülləyə belə qənaət edirdilər. Onlar azərbaycanlıları silahla yox, təbii üsullarla öldürmələri ilə fəxr edir, hətta öz aralarında bu metodu geniş tətbiq etməyi quldur həmkarlarına tövsiyə edirdilər.

Ermənilərin törətdiyi bu vəhşilik faktı son vaxtlarda Türkiyə ərazisində tez-tez aşkar olunur. Bu qanlı faciələrin törətdildiyi vaxtdan az qala bir əsrə yaxın müddətin keçməsinə baxmayaraq hələ də insan cəsədləri ilə doldurulmuş quyular üzə çıxır. Erməni vəhşiliyinin iyrənc simasını ifşa edən bu quyularda uşaq cəsədlərinin çoxluğu az qala insanın damarlarında qanını dondurur. Bəşəriyyət görəsən erməni qədər rəzil, qəddar, insan qanına susamış nkinci bir məxluq, millət tanıyırmı? Şahidlərin dediyinə görə ermənilərin bir qismi öldürülmüş müsəlmanların gözlərini yığır, onları ipə düzərək qurudur, qulaqları kəsərək özləri üçün kolleksiya düzəldir, bir sözlə, insanlıq adına yaraşmayan bu vəhşilikləri törətdiklərinə görə öyünür, həzz alırdılar.

İrəvan quberniyasının ərazisində müsəlmanlara qarşı həyata keçirilən soyqırımı siyasətini bir neçə mərhələyə bölmək olar. Əgər Azərbaycanın başqa-

başqa regionlarında ermənilər - tərəfindən tətbiq edilən soyqırımı, əsasən, 1918-ci ilin mart-aprel aylarını əhatə edirsə, qədim Oğuz yurdu olan İrəvanda bu vəziyyət bir qədər başqa cürdür. Ermənilər öz arxalarını çar ordusuna dayayaraq bu ərazidə hələ xeyli əvvəllərdən başlayaraq, müsəlmanlara qarşı müxtəlif soyqırımı siyasəti həyata keçirirdilər. Dəfələrlə öz evlərindən didərgin düşən əhali müvəqqəti olaraq dağlara qaçır, yaxın yaşayış yerlərində məskunlaşmış qohumlarının yanında sığıncaq tapır, ara sakitləşdikdən sonra isə yenidən öz ev-eşiyinə, yurduna sahib olmaq üçün geri qayıdır. Beləliklə, 1918-ci il erməni-müsəlman qırğınları genişlənib hər tərəfi bürüyənə qədər bu ərazidə yaşayan bəzi kəndlərin zavallı sakinləri öz acı taleləri ilə barışmalı olmuşlar. 1918-ci ildə isə Ermənistan azərbaycanlıları daha böyük fəlakətə düçar olmuş, Türkiyə ordusunun, habelə vaxtilə Rus ordusunda xidmət edən erməni silahlılarının qəzəbinə gələrək ev-eşikləri yandırılmış, var-yoxları əldən çıxmış, uşaqları, ailə üzvləri işgəncə ilə öldürülmüşdür. Bu dövrdə Andronikin, Xmbapet Dronun və Yaponun quldur dəstələri bütün Ermənistan ərazisində müsəlmanlara qarşı böyük soyqırımı həyata keçirirdilər. Tarixi məlumatlara isnad etdikdə, aydın olur ki, 1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında müsəlmaların qırğını Xmbapet Dronun rəhbərliyi altında yerinə yetirilib. Onun göstərişi sayəsində azərbaycanlıların yaşadığı 60-dan çox kənd dağıdılmış, yandırılmış, əhalisinə qarşı ən qatı tədbirlər görülmüşdür. Bu quldur işğal etdiyi, əhalisini qırdığı kəndlərdə kişiləri ağır işgəncələrlə öldürtdürər, qəşəng qadınları isə seçib öz əsgərlərinə verərdi. “Azərbaycan” qəzeti həmin dövrdə Ermənistanın Şorca kəndində başına min bir müsibət gətirilmiş bir qadının məlumatına əsaslanaraq yazır ki, ermənilər bu kənddə bütün kişiləri qırmış, uşaqları təndirə ataraq yandırmış, sonra isə bütün kənddək 8 nəfər qadın seçərək özləri ilə aparmışlar. Bu zavallıları 20 gün saxlayıb şərəfini alçatdıqdan sonra buraxmışlar (Bax: “Azərbaycan”, 1919, 9 fevral).

Qeyd etməliyik ki, İrəvan azərbaycanlıları bu dövrdə erməni təcavüzünə qarşı bacardıqları kimi mübarizə aparmışlar. Xüsusilə türklər Zaqafqaziya ərazisindon çəkildiyi vaxt erməni qoşunları boşalmış rayonları dərhal ələ keçirir, burada yeni qırğınlar törədirdilər. Bu da müsəlman əhalisinin bu təcavüzkarlığa qarşı ayağa qalxmasına, birgə mübarizə aparmasına səbəb olurdu.

Bu dövrdə Vedibasarlı Abbasqulu bəy Şadlinski öz ətrafına yığdığı silahlı dəstə ilə ermənilərin müsəlmanlara qarşı törətmək istədikləri bir çox planları alt-üst etmiş, minlərlə insanın həyatını xilas eləmişdi.

Lakin buna baxmayaraq, ermənilərin nizami silahlı dəstələri, demək olar, Ermənistanın bütün əyalətlərində müsəlman kəndlərinə basqınlar edir, xalqın başına min bir fəlakət gətirirdilər. Bəzi kəndlərdə türk qoşunları getdikdən sonra müsəlman əhalisi erməniləri mehribanlıqla qarşılasalar da, müəyyən vaxtdan sonra yenidən güclü təzyiqə məruz qalırdılar. Belə olduqda müsəlman əhalisi başqa kəndlərdə olduğu kimi, qırğına düçar olmamaq üçün öz yaşayış yerlərini

dəyişirdilər. Müsəlman əhalisinin böyük əksəriyyəti Böyük Vedidə yaxşı silahlanmış Abbasqulu bəy Şadlinskinin yanına gedirdilər.

Ermənilər dəfələrlə Böyük Vedi üzərinə hücuma keçsələr də, Abbasqulu bəyin yaratığı "Qırmızı tabor"un döyüşçüləri azğın düşmənə aman vermirdilər. Hətta sinəsinə döyüb fəxrlə "Abbasqulu bəyə mən qalib gələcəyəm" deyən Dro belə Böyük Vedi üzərinə hücum zamanı 1000-dən, artıq itki verərək geri çəkilmişdi.

Lakin Ermənistanın heç də hər yerində vəziyyət belə deyildi. Əhalinin böyük əksəriyyəti köməksiz, silahsız olduğundan amansız düşmənin əlində rəhmsizcəsinə öldürülür, ev-eşiyi dağıdılıb yandırılırdı. Düşmən əlinə keçməmək üçün dağlara qaçan müsəlman əhalisi soyuqdan, şaxtadan, aclıqdan tələf olurdu. Onların çox az bir hissəsi hər cür məhrumiyyətlərə dözərək üzülmüş halda, ölümü görə-görə başqa müsəlman kəndlərinə güclə gəlib çıxırdılar. Bu insanların bütün əkinləri, varidatları əllərindən çıxmış, yalnız quru canlarını götürərək erməni təcavüzündən qaçıb gəlmişdilər. Göyçə gölünün şimal sahilində yaşayan Azərbaycan kəndlərinin dağıdılması barədə əldə olunan məlumatlar xüsusilə ürək ağrıdır. Həmin dövrdə Ermənistanda daşnak hökumətinin yeritdiyi siyasətdən narazı qalan Q.Muradyan qeyd edir ki, bizim hökumətin gördüyü tədbirlər nəticəsində bu kəndlərin əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orada bir pişikdən, sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə hürüşməsini gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək". (Bax: İ. Məmmədov, S. Əsədov. "Ermənistan azrbaycanlıları və onların acı taleyi", səh. 41).

Müsəlman əhalisinin boş qalmış, kəndləri Türkiyədən qaçqın vəziyyətinə düşmüş ermənilər tərəfindən zəbt edilib mənimsənilirdi. Təhlükə sovuşandan sonra geri qayıdan bir çox müsəlman kəndlərində yenidən ermənilər və müsəlmanlar arasında savaş başlayırdı. Ermənistanda qaçqınların vəziyyəti məsələsi ilə məşğul olan nazirliyin məlumatında göstərilir ki, Ermənistanda baş verən hadisələr, xüsusilə 1919-cu ilin yayında Sürməli, Eçmiədzin, Vedibasar qəzalarında müsəlmanların vəziyyəti çox pisləşmişdir. Bu regionda yaşayan müsəlmanların böyük əksəriyyəti bu hadisələrlə əlaqədar olaraq qaçqına çevrilmişdir. Onlar öz kəndlərinə qayıtdıqda isə Türkiyədən qaçmış ermənilər tərəfindən döyülmüş, öldürülmüş, evləri və torpaqları ələ keçirilmişdir. Ermənistanda Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında belə qaçqınların miqdarı 200 min nəfərə çatmışdır (Azərbaycan tarixi: sənədlər və nəşrlər üzrə, Bakı, 1990, səh. 176).

Nəzərə almaq lazımdır ki, bu məlumat Ermənistanda daşnak hökumətinin vaxtında verilib. Yəni Ermənistan müsəlmanlarının vəziyyəti o qədər ağır, dözülməz olub ki, hətta daşnak hökumətinin üzvləri belə bunu etiraf etmək məcburiyyətində qalıb. Həmin nazirliyin başqa bir məlumatında qeyd edilir ki,

İrəvan quberniyasında müsəlman əhalisinin vəziyyəti çox ağırdır. Onların nə ehtiyat taxılları, nə toxumları, nə də mal-qaraları yoxdur, Ev-eşikləri dağıdılmış, hər şeydən məhrum olmuş vəziyyətdə yaşayırlar. Quberniyada müsəlmanlar aclıqdan xeyli vaxt tədricən tələf olurlar (Bax: Yenə orada, səh. 176).

Erməni quldurlarının yaratdığı bu ağır vəziyyət təkcə burada deyil, qədim İrəvan ərazisinin, demək olar ki, hər yerində belə idi. Məsələn, Sisyan mahalında polis sahələrinə daxil olan xeyli müsəlman kəndi dağıdılmış, əhalisinin böyük əksəriyyəti qırılmışdır. Tədqiqatçılar İ. Məmmədov və S. Əsədovun hesablamalarına görə kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 3000-ə qədər insan isə yaralanmışdır. Bütün qəza üzrə isə 10 min nəfərdən çox müsəlman erməni vəhşiliyiiin qurbanı olmuşdur.

Bu dövrdə "Azərbaycan" qəzeti İrəvan müsəlmanlarının soyqırımı ilə əlaqədar bəzi materialları dərc edir, Azərbaycan Demokratik Respublikası hökumətinin diqqətini bu məsələlərə yönəldirdi. Qəzet 1919-cu il 17 may tarixli sayında yazırdı ki, artıq aprelin 13-də Ararat respublikasının qoşunlarının Yeni Bayazid qəzasınıi Göyçə rayonundakı müsəlman kəndləri üzərinə hücumu olmuşdur. Bu hücumun əsas məqsədi Göyçə gölünün şərq və şimal sahillərində yaşayan müsəlman əhalisini həmin ərazidən qovub çıxarmaqdır. Hazırda bu vəhşilik aktı yerinə yetirilmiş, 60 mindən çox əhalisi olan 22 kənd dağıdılmış və yandırılmışdır.

Qəzet həmin faciə barədə ətraflı məlumat verərək ürək ağrısıyla bildirmişdi: bədbəxt müsəlman əhalisi erməni qoşunlarının top atəşi altında amansızcasına öldürülür. Erməni hökuməti öz müsəlman təbəələrinin heç bir xahişinə, yalvarışına baxmayaraq vəhşicəsinə onları qırır. Erməni qoşunlarının əlinə keçən müsəlmanlara daha ağır işgəncələr verilir, uşaqları, qadınları və qocaları ağlasığmaz işgəncələrlə öldürür, cavan qadınlara və qız uşaqlarına isə dəyməyib əsir götürürlər.

Erməni quldurları qırğından xilas olub qaçan müsəlman əhalisini izləyib öldürürdü. Göyçə, qırğınından xilas olan əhalinin çox bir qismi Gəncə qəzasının ərazisinə pənah gətirir, başlarına açılan soyqırımını danışırdılar.

Beləliklə, tarixi mənbələr aydın göstərir ki, bu dövrdə Ararat respublikası Göyçə rayonunda bütün müsəlman kəndlərini məhv etmişdi. Yeni Bayazid qəzasında isə 84 müsəlman kəndi bütünlüklə dağıdılmış, əhalisi amansızcasına qırğına məruz qalmışdı. Aprel ayının 13-20 arasında bu qəzada Daşkənd, Qoşabulaq, Baş Şorca, Zod, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Cay, Əhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Böyük Məzrə, Şişqaya və 15 mindən çox ev-eşiyi olan başqa kəndlər taleyin ağzına atılaraq sərgərdan vəziyyətinə düşdülər.

Ermənistanda yaşamış, həmin dövrdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımın, erməni vəhşiliklərinin şahidi olmuş Hüseyn Abbas oğlu Dərvişzadə xatırlayır ki, 1919-cu ildə Yerevandakı qırğın zamanı şəhərin bütün müsəlman

camaatı qaçıb Göy məscidə dolmuşdu. Məsciddə o qədər adam var idi ki, qadınlar, ailələr bir-birindən həya etdikləri üçün aralarına pərdə tutmuşdular. Bu dövrdə vəziyyət o qədər qorxulu idi ki, adamlar məsciddən çıxmaq istəmirdilər. Hamı elə güman edirdi ki, ermənilər əgər şəhərə daxil olarlarsa, Allah evinə sığınmış müsəlmanlara qarşı heç bir soyqırım həyata keçirməzlər. Lakin ermənilər həmin məscidi yandırıb hamını tələf etdilər.

Dünya görmüş, əsrimizin yaşıdı olan Hüseyn baba bildirir ki, daşnaklar Üçkilsə, yəni indiki Eçmiədzinin Qarxun kəndinin əhalisinin başına daha müsibətli oyunlar açmışdılar. Azərbaycana gedən qatarın dörd vaqonunda qaçıb gizlənmiş müsəlman əhalisinin hamısı bir nəfər kimi daşnaklar tərəfdən vəhşiliklə öldürülmüşdü. Həmin vaxt İrəvanın köhnə qəbiristanlığında dəfn edilmək üçün gətirilən meyidləri basdırmağı çatdırmırdılar. Bu vəziyyəti belə görən İran konsulu Mirzə Cavad xan meyidləri basdırmaq üçün öz əsgərlərinə göstəriş verməli oldu. Əsgərlər böyük bir çala qazaraq bu qırğının bütün qurbanlarını bir çalada basdırdılar.

Bundan əlavə, Sərdarabad ərazisində ermənilərin törətdikləri vəhşiliklər o dövrdə ağızdan-ağıza gəzirdi. Ermənilər Xeybəyli, Bağçağıq kəndlərinin əhalisinə qarşı elə vəhşiliklər törətmişdilər ki, bu hadisənin şahidi olmuş və çox çətinliklə qırğından xilas olub, İrəvanda sığınacaq tapan müsəlmanları sakitcə dinləmək mümkün deyildi. Bu azğın cəlladlar, insan cildinə girmiş vəhşilər körpə uşaqların başlarını kəsib həyətlərdəki payalara keçirtmişdilər. Bəzi kəndlərdə isə körpə uşaqlar payalara taxılmışdı.

Erməni-müsəlman qırğını başa çatdıqdan sonra sağ qalan əhalinin bir qismi tədricən öz yurdlarına qayıtmağa başladılar. Əhalinin böyük əksəriyyəti bu qırğın zamanı məhv edilmişdi. Sağ qalanların müəyyən qismi isə öz qədim dədə-baba yurdlarına qayıtmadı, Türkiyənin şəhər və kəndlərində, habelə Azərbaycanın muxtəlif bölgələrində məskunlaşdılar.

1923-cü ildə “Zarya Vostok” qəzeti bu hadisələri təhlil edərək bildirirdi ki, ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlamışdı, özü də bu, dövlət səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmış bir siyasət idi. Yalnız Ermənistanda daşnak hökuməti özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918-ci il-noyabr 1920-ci il) Azərbaycan əhalisinin 60 faizini qırmışdır.

Göründüyü kimi, gürcü mətbuat səhifələrində göstərilən bu rəqəmin üzərinə qaçqın vəziyyətinə salınmış, soyuqda-şaxtada dağlarda məhv olmuş müsəlman əhalisinidə əlavə etsək, çox dəhşətli bir mənzərə yaranır. Ermənilər 1918-ci ildə bu qədim Oğuz yurdunda tarixən yaşayan, öz qoynunda xaçpərəstlərə yer verən İrəvan ərazisindən ümumiyyətlə, müsəlman əhalisinin qovulması, öz dədə-baba torpağını tərk etmələri üçün bütün sivilizasiyalı dövlətlər tərəfindən ittiham olunan soyqırımı siyasətini həyata keçirmişlər. Bu gün bütün dünyaya özlərini mədəni bir xalq kimi tanıtdırmaq üçün quzu cildinə girmiş bu yırtıcı vəhşilər öz törətdikləri

cinayətlərdən danışmayaraq türklər tərəfindən guya soyqırımına məruz qaldıqlarını aləmə car çəkir, mötəbər məclislərdə, dövlət parlamentlərində məsələ qaldırırlar. Lakin dünya ictimanyyəti onuda bilməlidir ki, ermənilərin həyata keçirtdiyi bu siyasət sayəsində təkcə Türkiyədə 2,5 milyondan çox türk öldürülmüşdür. İrəvanda, Naxçıvanda, Şamaxıda, Qubada, Bakıda və Azərbaycanın digər şəhər və kəndlərində ermənilər tərəfindən qırılmış zavallı insanları da bu siyahıya, yəni bu rəqəmin üzərinə gəlsək, onda özlərini sivilizasiyalı adlandıran və dünya ictimaiyyətinin gözünə kül üfürməyə çalışan erməni vəhşilərinin bəşəriyyətə qarşı, insanlığa qarşı necə böyük təhlükə törətdiyi tam aydınlaşır.

Bu gün Dağlıq Qarabağ adı ilə həyata keçirilən soyqırımı da məhz ermənilərin "Böyük Ermənistan" yaratmaq planının tərkib hissəsidir.

Bütün türk dünyasına, insanlığa qarşı çevrilmiş bu təhlükəli siyasətin qarşısı alınmasa, gələcək nəsillər bu siyasətin ağırlığını, acısını çox çəkəcəklər.

## NAXÇIVAN QIRĞINLARI

1828-ci ildə Rusiya-İran müharibəsinin qələbəsindən, yəni Türkmənçay müqaviləsindən sonra yaradılmış İrəvan vilayətinə Naxçıvan xanlığı ərazisinin də daxil olması ermənilərin torpaq iştahasını xeyli artırmış və onları öz məkrli məqsədlərini daha qətiyyətlə irəli sürməyə, nəyin bahasına olursa-olsun, bu yurda sahib olmağa sürükləmişdir. Ermənilər bu gün məhz tarixi ədalətsizliyin mahiyyətinə varmayaraq, daha doğrusu, bu faktın üzərindən sükutla keçərək "Naxçıvan ərazisi Ermənistanın olmuşdur" tələbi ilə çıxış etməklə, öz mənfur siyasətlərini irəli sürməkdə davam edirlər.

1918-ci il Milli Komitənin sədri Mir Hidayət Seyidzadənin verdiyi məlumata görə erməni silahlı qüvvələri Naxçıvan üzərinə iki istiqamətdən hücum etməyi planlaşdırmışdılar. Məlumatda göstərilir ki, ermənilər həmin dövrdə Sədərək, Qəməriyyə kəndlərinə basqın edərək bu yaşayış məntəqələrini məhv etmiş, sonra isə Şərur və Naxçıvan qəzası istiqamətində hərəkət eləməyə başlamışlar. Erməni silahlı qüvvələrinə bu kömək İrəvandan və Aleksandropoldan, yəni Gümrü şəhərindən edilmişdi.

İkinci quldur dəstəsinin isə Zəngəzur istiqamətindən gəlməsi gözlənilirdi. Məlumatda həyacanla bildirilirdi ki, əgər on beş gün ərzində tədbir görülməsə, Ordubad düşmən ayaqlarının tapdağı altında qalacaq, hər iki istiqamətdən hücum edən düşmənə cavab verə bilməyəcəyik.

Daşnak hökuməti Zəngəzur, Şərur, Naxçıvan, Ordubad qəzalarında yaşayan müsəlmanları qırmaqla bu torpaqları Ermənistan ərazisinə birləşdirməyi planlaşdırmışdı.

Çünki qarşıdan gələn ildə Fransada xalqların sülh konfransının keçirilməsi nəzərdə tutulurdu. Ermənilər bu konfransda məhz həmin ərazilərdə müsəlmanların yaşamadığını bildirməklə bu qədim türk torpaqlarını Ermənistana birləşdirmək

məqsədi daşıyırdı. Erməni siyasətbazlarının fikrincə, konfransda dünya xalqlarının nümayəndələri yuxarıda adları çəkilən ərazilərdə müsəlmanların yaşamadığını, həmin ərazilərin tamamilə boş olduğunu görüb bu torpaqların Ermənistana verilməsi barədə razılığa gələcəklər.

Göründüyü kimi erməni siyasətbazlarının bu uzaqgörənliyi həmin dövrdə xalqımıza çox böyük faciələr gətirdi. Onların qızışdırıb dinc əhali üzərinə göndərdiyi quldur dəstələri minlərlə əhalini vəhşicəsinə öldürdü, qan su yerinə axdı, əhali dağlara, meşələrə qaçdı, min cür əziyyətə qatlaşmalı oldu.

Həmin dövrdə Azərbaycanın iri sənaye şəhərlərinə böyük ümidlə baxan, onlardan imdad diləyən Naxçıvan əhalisinin ürək ağrıdan tələbləri "Azərbaycan" qəzetində dərc edilirdi:

"Düşmənlərimiz mürgüləmirlər, onlar öz xalqlarının ideyalarını həyata keçirmək yolunda heç bir əlverişli imkanı əllərindən vermirlər. Onlar Ararat dövdəti sərhəddinin Türkiyə sərhədlərindən tutmuş Şuşaya qədər uzadılmasını və bu ərazidə bir nəfər olsun belə müsəlmanın, turkün yaşamamasını istəyirlər. Bu niyyətlərini həyata keçirmək üçün hər bir əlverişli hadisədən istifadə edirlər"..

1919-çu ilin ortalarına yaxın Naxçıvanda ermənilərin təzyiqi daha da artmağa başladı. Onu da qeyd edək ki, artıq bu vaxta qədər ermənilərin tayqulaq Androniki Naxçıvan ərazisindən keçərək Zəngəzur üzərinə getmişdi. Bu zaman onun qoşununun keçdiyi kəndlər bütünlüklə dağıdılmış, əhalisi isə öldürülmüşdü.

Naxçıvan və ona bitişik ərazilərdə ermənilərin azğın hücumları, vəhşilikləri başladığı dövrdə əli silah tutmağı bacaran əhalinin çox hissəsi ayağa qalxmış, öz doğma torpaqlarını, ana və bacılarının, uşaqların namus və qeyrətini mərdliklə qorumuşlar. Doğrudur, ermənilər silahsız, köməksiz Naxçıvan kəndlərinə hücum edərək burada çox vəhşiliklər törətmişlər, amma heç də hər yerdə onlar öz istədiklərinə nail ola bilməmişlər. Vedibasarda Abbasqulu bəy Şadlinskinin yaratdığı özünümüdafiə dəstələri daşnakların uzun müddət qarşılarını ala bildi, onların neçə-neçə Azərbaycan kəndləri üzərinə hücumuna, soyqırımı keçirməsinə yol vermədi. Bu özünümüdafiə dəstələri Naxçıvanın müəyyən hissəsini də mərdliklə qoruyurdu.

Erməni vəhşiliklərinə qarşı Naxçıvanda Kəlbalı xan Naxçıvanski də öz dəstəsi ilə mətanətlə vuruşurdu. Andronikin Naxçıvan qəzasında iki yüzdən artıq kəndi yandırması xəbərini eşidən bu el qəhrəmanı əyalətdə ümumi səfərbərlik keçirərək durmadan irəliləyən və qarşılarında bütün dinc əhalini qılıncdan keçirən erməni-daşnak dəstələrinin qabağına çıxmışdı. Onun dəstəsi böyük mətanətlə vuruşaraq bu azğın daşnak qüvvələrinin qarşısını almışdı.

Ermənilərə qarşı həmin vuruşda bir çox Naxçıvan oğulları fərqlənmişdilər. Onlardan biri də Kəlbalı xanın yaxın silahdaşı Hacı Xəlil ağa İmanov olmuşdur. Nehrəm kəndindən olan bu şəxsi Kəlbalı xan piyada hissələrinin başçısı təyin etmişdi. Hüseyn ağa Novruzov isə süvari qoşunlarına başçılıq edirdi. Hər iki

hissənin sıralarında qəhrəmanlıqla vuruşan igidlərin səyi nəticədə Şıx-Mahmud və başqa kəndlər tezliklə ermənilərdən təmizləndi.

Lakin buna baxmayaraq Naxçıvan şəhəri özü ağır vəziyyətə düşmüşdü. Düşmən qüvvələri artıq şəhərin “Xoşulu” məhəlləsini tutmuşdu. Şəhərdə olan erməni sakinləri də daşnaklara yaxından kömək göstərir, küçə və dalanları ələ keçirmək işində öz dindaşlarına bələdçilik edirdilər.

Naxçıvanın, demək olar, bütün əli silah tutan kişiləri bir nəfər kimi silaha sarılmış, ümumi düşmənə qarşı mərdliklə vuruşurdu. Güllə və silah çatmasa da, bu, onları qorxutmurdu. Hamı azğın düşmənin qarşısını almaq, tutulmuş məhəllələri azad etmək, itirdikləri qohumlarına, əzizlərinə görə düşməndən qisas almaq umidilə döyüşə atılmışdı. Hər bir kəs bacardığı köməyi əsirgəmirdi.

Hacı Xəlil ağanın dəstəsi də başqa özünümüdafiə dəstələri kimi düşmənin qabağında mərdliklə dayanıb vuruşurdu. O, şəhərin “Əriklik gədiyi” deyilən yerində səngər qazdırıb öz dəstəsilə ermənilərə qarşı möhkəm müqavimət göstərirdi. Hacı Xəlil ağa Qəmər adlı atın belində bütün səngərboyu düşmənə qarşı vuruşan döyüşçülərə baş çəkir, onları ruhlandırır, ümumi döyüşə başçılıq edirdi. Onun dəstəsində Səfi, Rəfi və Naxçıvanın başqa mərd oğulları mərdliklə vuruşurdular.

Lakin heç də hamı erməni silahlı qüvvələrinin güclü təzyiqinə davam gətirə bilmədi. Qüvvələrin qeyri-bərabər olması özünü tezliklə büruzə verdi. Hüseyn Ağa Novruzov heç bir göstəriş almadan cəbhəni boş qoydu, öz süvari dəstəsinə geri çəkilmək əmri verdi.

Bu xəyanət Naxçıvan döyüşçülərinə, xüsusilə Xəlil ağanın dəstəsinə ağır başa gəldi. Ermənilər bu xəyanətdən istifadə edərək, “Əriklik gədiyi”ni mühasirəyə aldılar. Hacı Xəlil ağanı dəstəsilə birlikdə əsir götürüb vəhşicəsinə güllələdilər.

Sonralar türklər Naxçıvana daxil olduğu vaxt bu xəyanəti eşidərək, Hüseyn ağa Novruzovu cəzalandırdılar. Türk qoşunlarının Naxçıvandakı komandanı mayor Xəlil bəy Hüseyn ağanı evində güllələdi. (Bax: “Oğuz eli”, 14 may, 1992-ci il).

Beləliklə, 1918-ci ilin yayında Naxçıvan iki tərəfdən məngənə arasında qalmışdı. Bir tərəfdən ermənilər artıq Naxçıvanın yaxınlığında, hətta bəzi məhəllələrində vuruşurdu, şəhər uğrunda ölüm-dirim mübarizəsi gedirdi, digər tərəfdən isə ingilislərdən böyük yardım alan daşnaklar Andronikin başçılığı ilə Naxçıvanın içərilərinə doğru hərəkət edirdi. İngilis, fransız müstəmləkəçilərinin əlaltısı olan Andronik bu dövrdə türklərə qarşı mübarizə pərdəsi altında Naxçıvanın şəhər və kəndlərini talan edir, insanları kütləvi şəkildə qırırdı. Süst, Çeşməbasar, Tümbul və sairə kəndlər məhz Andronikin basqını nəticəsində dağıdılmış, əhalisinin böyük əksəriyyəti isə öldürülmüşdü (Bax: Q. Mədətov. “Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili” Azərnəşr, 1958, səh. 39).

Türkiyə hökuməti belə bir vaxtda Zaqafqaziyada baş verən hadisələri diqqətlə izləyirdi. Artıq Şərur-Dərələyəz və Yerevan - Culfa dəmir yolu

istiqamətində hərəkət edən türk qoşunları Kazım Qarabəkirin komandanlığı altında Naxçıvan üzərinə yeriyirdi. Belə bir dövrdə Fransa yenə daşnakların fəaliyyətini müdafiə edirdi. Belə ki, Fransanın Yerevandakı nümayəndəsi Antanta bloku adından bildirirdi ki, Anatanta Naxçıvanda, Zəngəzurda və Qarabağda daşnakların hərbi əməliyyatına hər cür yardım göstərəcəkdir (Yenə orada, s. 39).

Türklərin qoşunla köməyə gəlməsi xəbərini eşidən Naxçıvan qəzasının kəndləri heç bir yardım gözləmədən öz kəndlərinin müdafiəsinə qalxdılar. Nehrəm kəndi sanki azərbaycanlıların qərargahına çevrildi. Bütün qonşu kəndlərin əhalisinin iştirakı ilə burada xalq qoşunu dəstələri yaradıldı. Erməni vəhşiliyinə qarşı qəzəbini nifrətə, silaha çevirmiş Azərbaycan kəndliləri Nehrəmin yaxınlığında Andronikin quldur dəstəsi ilə qarşılaşdı və onun qoşununu qeyri-bərabər döyüşdə məğlubiyyətə uğratdı. Andronik vəziyyəti belə görüb, daha öz yürüşünü davam etdirməyin mümkün olmadığını başa düşüb Qarabağ dağlarına qaçdı. Və burada yenidən qoşun toplamağa başladı.

Bu xəbəri eşidən Kazım Qarabəkir paşa dərhal türk qoşunlarına Naxçıvanı, Ordubadı və Culfanı ələ keçirmək barədə əmr verdi. Bütün xalq türk qoşunlarını, öz xilaskar qan qardaşlarını duz-çörəklə qarşıladılar.

Yaşlı əhalinin dediyinə görə əgər türk qoşunları vaxtında Naxçıvan, Ordubad qəzalarına qoşun yeritməsəydilər, daşnak tör-töküntüləri, başda Andronik olmaqla erməni quldur dəstələri Naxçıvan əhalisini bütünlüklə qırıb məhv edər, yaxud da dədə-baba yurdlarından didərgin salardılar.

Erməni quldurlarının əlindən qaçan Ordubad sakinləri əhaliyə qarşı vəhşicəsinə törədilən qırğınlar barədə xeyli məlumat vermişlər. 1919-cu il iyunun, 15-də Tiflisə gəlmiş Ordubad sakini Əhməd Hacı Əli oğlunun verdiyi məlumat da bu cəhətdən maraqlıdır. Onun dediyinə görə erməni quldur dəstəsinin başçılarından biri olan Aşot Məlik Mosesyants həmin il iyunun 1-də bir neçə zabitlə Ordubada gəlib, danışıq aparmaq üçün 3 nəfər müsəlmanın yanlarına göndərilməsini tələb etmişlər. Ordubadlılar bu tələbi yerinə yetirərək öz aralarından 3 nəfəri Aşotun yanına göndərmişlər. Erməni qulduru həmin şəxslərə hökmlə bildirib ki, artıq bundan sonra Vedibasar, Şərur, Naxçıvan, Ordubad və Şuşaya qədər olan bütün Zəngəzur qəzası Ermənistana birləşdirilmişdir. Aşot Məlik Mosesyants da Ordubad rayonunun rəisi təyin olunmuşdur.

Ordubadın səlahiyyətli nümayəndələri olan bu üç nəfər elə həmin an Aşotdan onun sözlərinin düzgünlüyünü təsdiq edən mandatın göstərilməsini tələb etmişlər. Lakin Aşot heç bir mandat göstərməyərək, "mənim sözlərim sizin üçün qanun olmalıdır", - deyə cavab vermişdir. Lakin ordubadlı nümayəndələr qəti bildirmişdilər ki, Aşot Azərbaycan respublikasından, yaxud da müttəfiqlərin komandandığından rəsmi sənəd gətirməsə, bütün əhali ona tabe olmayacaqdır.

Bu hadisədən hiddətlənən Aşot çıxıb getmiş, sonra müsəlmanların silahları toplayıb onun səlahiyyətli nümayəndəsi Nikolay Alışevskiyə verilməsi barədə göstəriş vermişdi.

Aşotun bu ultimatumu müsəlmanlara çox pis təsir göstərmişdir. Onlar artıq yeni bir qırğına hazırlıq görüldüyü barədə şayiələr yaymağa başlamışlar.

Tezliklə ətraf kəndlərin erməni sakinləri Aşota qoşulmuşlar. Halbuki, onlar uzun müddət müsəlmanlar tərəfindən qorunurdular. Aşotun dəstəsinə daxil olan yerli ermənilər tez-tez müsəlman yaşayış məskənlərinə hücum edir, hər gün bir neçə nəfər öldürülür, ev-eşiyi quldurlar tərəfindən talan edilib aparılırdı (Bax: Azərbaycan tarixi: sənədlər və nəşrlər üzrə. Bakı, Elm, 1990, səh. 317-318).

Bu dövrdə İrəvan quberniyasından Şeyxov familiyalı bir nəfər Azərbaycan Respublikasının baş nazirinə vurduğu teleqramda da bu ərazidə yeni qırğınların baş verdiyini xəbər verirdi. Teleqramda göstərilirdi ki, Naxçıvandan, Şərur və Ordubaddan verilən xəbərlərə görə müsəlman xadimlərinin erməni hökuməti tərəfindən həbsləri başlayıb. Burada addımbaşı yoxlamalar aparılır, müsadirələr olunur. Erməni hökumətini nizami qoşunları Naxçıvandan bir qədər kənarda olan müsəlman kəndlərini top atəşinə tutur. Əhali hazırda təşviş içində çöldə yaşayır.

Teleqram vuran şəxs dərhal Ermənistan hökumətinə bu barədə xəbər verməyi, əhalinin qırılmağının qarşısını almaq üçün qəti tədbirlər görməyi təkidlə tələb edirdi.

Teleqramın sonunda isə o, bir daha xatırladır ki, bu işdə gecikmək müsəlman kəndlərinin, dinc əhalinin məhv olması deməkdir ("Azərbaycan" qəzeti, 29 iyun 1919-cu il).

Türklərin Naxçıvandan, o cümlədən, Zaqafqaziyadan getməsi ermənilərin əl-qolunu açmışdı. Onlar Naxçıvan torpaqlarında yenidən hökmranlıq etməyə, bu əraziləri yaratdıqları daşnak hökumətinin ərazisinə qatmaq niyyətində idilər.

Ermənilər bu məqsədlərini həyata keçirmək üçün müttəfiq qoşunlarının komandanlığından istifadə edirdilər. Müxtəlif vasitələrlə ermənilər tərəfindən ələ alınmış müttəfiq qoşunlarının komandanlığı və zabitlər təbiidir ki, bir çox məsələlərdə erməni daşnaklarının tərəflərini saxlayırdılar. Hətta general Devi 1919-cu ilin may ayında Naxçıvana gələrək, Naxçıvan və Şərur qəzalarının müsəlman əhalisini toplayaraq bildirmişdi ki, onlar bundan sonra erməni hökumətinə tabe olmalıdırlar.

Lakin general Devinin bu təklifi müsəlman əhalisi arasında çox böyük narazılıqla qarşılandı. Naxçıvan və Şərur qəzalarının əhalisi erməni hökumətinin son ildə müsəlman əhalisinə qarşı soyqırımı siyasətini tətbiq etdiyini nəzərə alaraq general Devinin təklifini rədd etdi və bu qərara gəldi ki, onlar Azərbaycan respublikasının tərkibindədir və heç bir qüvvə onları bu respublikanın tərkibindən alıb Ermənistan respublikasına verə bilməz..

Həmin qərardan sonra silahlı müsəlman dəstələri "Qurd qapısı" qəzasının ərazisinə erməni silahlı qüvvələrini buraxmamağı qərara aldılar.

Azərbaycanda və eləcə də Ermənistanda Sovet respublikasının yaradılması ərəfəsində müttəfiq qoşunlarının komandanlığı bu ərazilərdə yaşayan xalqlar arasında milli qırğınların daha da qızışdırılmasına xüsusi diqqət yetirirdilər. İngilis

komandanlığının bu işdə böyük marağı vardı. Onların məhz yaxından köməyi sayəsində daşnak qoşunları 1919-cu ilin iyun ayında Naxçıvanı ələ keçirə bildilər. Əhaliyə amansız divan tutan daşnaklar Naxçıvanda yeni general-qubernatorluq yaradaraq general Şelkovnikovu başçı qoydular. Bir qədər sonra isə bu qubernatorluq qəddar daşnak Varşamyana həvalə edildi.

Qeyd etmək lazımdır ki, 1919-cu ilin yayında ingilislər və daşnaklar yalnız Naxçıvan şəhərinə və Naxçıvan-Yerevan dəmir yolu xəttinin ətrafına hakim idilər.

Bu dövrdə erməni daşnaklarına və ingilislərə qarşı xalqın mübarizəsini təşkil edən Kəlbalı xan, Cəfərqulu xan və Xəlil bəy düşmənin planlarını alt-üst edir, bütün əli silah tutan kişiləri öz ətrafına toplayırdılar.

Zaqafqaziya regionunda yaranmış hərbi siyasi vəziyyətin getdikcə kəskinləşməsi, Rusiyanın Azərbaycana qarşı hərbi müdaxiləsi həm daşnak hissələrinə, həm də bu hissələrə qarşı mətanətlə vuruşan əhaliyə öz təsirini göstərirdi.

Artıq 1920-ci il avqust ayının 10-da Qızıl Ordu ilə daşnaklar arasında atəşin dayandırılması haqqında barışıq imzalandı. Bu barışığa görə bütün Şərur qəzası və Naxçıvan qəzasının şimal-qərb məntəqələrinin bir hissəsi daşnakların əlində qaldı. Daşnak hökuməti isə Naxçıvandan, Qarabağdan və Zəngəzurdan müvəqqəti də olsa əlini çəkdi.

Lakin daşnak hökuməti bu barışığa məhəl qoymayaraq öz hərbi hissələrini Ordubad qəzasının şimal-qərb hissəsində əməliyyat keçirən Dro və Njdenin köməyinə göndərirdi. Bu quldur dəstələri Ordubad qəzasının kəndlərində özbaşınalıqlar edir, əllərinə keçən müsəlmanları ağır işgəncələrə məruz qoyurdular.

Əlbəttə, daşnaklar Naxçıvanın əldən verilməsi ilə heç cürə barışa bilmirdilər. Odur ki, onlar həm ingilislər, həm də qonşu İranda Maku sərdarı ilə sıx əlaqəyə girərək Naxçıvanın yenidən geri qaytarılması üçün müvafiq tədbirlər görməyə başladılar. Onlar bu məqsədlə 1920-ci ilin sentyabr ayında Naxçıvan üzərinə hücum etmək üçün Ordubad qəzasının cənub kəndlərinə hərəkət etdilər.

Lakin bundan xəbər tutan rus ordusu daşnak quldur dəstələrinin hücumunu dəf edib Ordubad şəhərini azad etdi.

Beləliklə, 1920-ci ilin payız və qış aylarında bütün Naxçıvan torpaqları rus qoşunlarının köməyilə daşnaklardan təmizləndi.

Tariximizin bu qaranlıq səhifələri hələ də öz tədqiqatçısının yolunu gözləməkdədir.

## GƏNCƏ HADİSƏLƏRİ

Bakıda törədilən qırğınlar Erməni Milli Şurasının "qələbəsi" sayılsa da, Müsəlman Milli Şurasının ağır məğlubiyyətə uğraması heç də daşnakların qələbəsi deyildi. Düzdür, Bakıda axıdılan günahsız qanlar nə qədər faciəli olsa da, o

dövrdəki müvəqqəti məğlubiyyətlər azərbaycanlıları heç də həvəsdən salmadı, mübarizlik ruhunu qıra bilmədi.

Əksinə, “Mart günlərindən sonra azərbaycanlı rəhbərlər artıq muxtariyyətdən deyil, ayrılmaqdan danışır və öz ümidlərini rus inqilabına yox, Türkiyənin köməyinə bağlayırdılar” (“Qafqaz Azərbaycanı Respublikası”. Paris, 1919, s. 21).

Faciəli Mart qırğınından sonra Bakıda yerləşən Müsəlman Milli Şurası və azərbaycanlıların digər siyasi təşkilatları müvəqqəti olaraq Gəncəyə və Tiflisə köçmək məcburiyyətində qaldılar.

Azərbaycanın müxtəlif ərazilərində daşnakların törətdikləri vəhşiliklərin dalğaları tədricən Gəncə və onun ətraf yerlərində də hiss olunmağa başlayırdı.

Əslində Gəncə və onun ətraf ərazilərində azərbaycanlıların qırğınlarını həyata keçirmək üçün - Bakının “bolşevik” daşnakları ilə Qarabağ erməniləri əl-ələ verməli, qüvvələrini vahid məqsədə yönəltməli idilər. Daha doğrusu, daşnaklar Göyçayı, Yevlağı, Goranboyu zəbt etdikləri vaxt Qarabağ erməniləri də cənubdan Gəncə istiqamətində öz planlarını həyata keçirəcəkdilər. Hətta o vaxtlar Azərbaycan demokratik qüvvələrinin məqsədini lağa qoyan daşnak lideri S. Şaumyan və digər erməni liderləri mətbuat səhifələrində azərbaycanlılara rişxəndlə bildirirdi ki, “Siz muxtariyyət deyil, xarabazar alacaqsınız”. S.Şaumyan və onun əlaltıları bununla demək istəyirdilər ki, azərbaycanlılar öz ulu torpaqlarında heç vaxt nə milli dövlət yarada biləcəklər, nə də Qafqazda muxtariyyət əldə edəcəklər.

Erməni daşnaklarının niyyətləri çox dərin qatlarda Azərbaycanı erməniləşdirmək arzusu ilə nəfəs alırdılar. Belə ki, 1918-ci ilin aprelində təşkil olunmuş Bakı quberniyası Xalq Komissarları Sovetinin rəhbərləri nəinki Azərbaycanın Türk xalqına öz müqəddəratını təyin etmək hüququnu - rəva görmür, hətta başçıları Şaumyan “Azərbaycan” sözünü qəbul etməkdən imtina edir. Əmiryanın redaktoru olduğu “Bakinski raboçi” qəzeti bu sözü məsxərəyə qoymaqdan belə çəkinmirdi. “Bakı və Bakı quberniyasında milli qüvvələrə divan tutduqdan sonra, Bakı Soveti özünün əsasən erməni hərbi hissələrindən ibarət olan dəstələrini Gəncə üzərinə hücuma hazırlayırdı”. (“Mart qırğını”. “Azərbaycan” qəzetinin xüsusi buraxılışı. № 11, Mart 1993).

Ermənilərin Bakıda törətdikləri vəhşiliklər tədricən Azərbaycanın digər bölgələrində də təkrar olundu. Xüsusilə Şamaxı, Quba, Göyçay, Kürdəmir, Salyan və Lənkəran ərazilərində... Adları çəkilən yerlərdə azərbaycanlı qırğınlarını həyata keçirmək üçün S.Şaumyan və onun əlaltıları xüsusi planlar cızmışdılar.

Bakıdan sonra Şamaxı şəhərini odlara düçar edən ermənilər (erməni məhəlləsindən və iki kilsədən savayı Gəncə istiqamətində irəliləməyə başladılar.

M. Ə. Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” kitabında erməni daşnaklarının o vaxtkı əməlləri barədə yazır: “Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı. Bu təcavüzlər əsasında yaxılan xanimanların, qıyılan ərz və

namusların, kəsilən qarı qocaları, yağmaya gedən mal və məvaiminin təsviri qeyri-qabili təsəvvür bir faciə təşkil edir" (M. Ə. Rəsulzadə, "Azərbaycan Cümhuriyyəti". Bakı, "Elm", 1990, səh. 37).

Bakıda fəaliyyət göstərən Erməni Milli Şurası əsasən ermənilərdən ibarət bolşevik silahlı dəstələrini Hacıqabul, Kürdəmir və Göyçay, eləcə də Salyan və Lənkəran istiqamətlərinə göndərərək, yerli əhalini-azərbaycanlıları qırmaq barədə göstərişlər hazırlamışdı.

Məsələn, əsas məqsədi bu idi ki, "Bakı Komissarları Sovetinin rəhbəri erməni Şaumyanın başçılıq etdiyi bolşevik təşkilatları azərbaycanlılarla öz milli haqq hesablarını bolşevizm pərdəsi altında çəksinlər". (Əhməd Təbrizli. "Dağlıq Qarabağ tarixi və ona dair sənədlər". 1 c. Strasburq, 1989).

Şamaxı və Göyçay istiqamətində göndərilən erməni silahlı dəstələrinə S. Şaumyanın ən yaxın dostları Stepan Lalayan və Tatevos Əmirov başçılıq edirdilər.

Gəncədə azərbaycanlıların kütləvi qırğınlarını təşkil etmək üçün ermənilər çox böyük hazırlıq işləri aparırdılar.

Məsələn, V.İ.Leninin tövsiyyəsi və himayədarlığı ilə Bakıya xüsusi səlahiyyətlə fövqəladə bolşevik komissarı təyin olunan S. Şaumyan Bakı Sovetinin sədri kimi belə bir göstəriş verdi ki, Bakıda olduğu kimi, Gəncədə də hərbi alayların ixtiyarında olan bütün silahlar ermənilərin əlində cəmləşdirilsin,

Əslində o vaxtlar Zaqafqaziya Seymi belə bir qərar çıxarmışdı ki, Gəncədə yerləşən 216-cı və Bakıda yerləşən 219-cu alaylar özlərinin bütün silahlarını və sursatlarını müvafiq olaraq yeni yaradılan Gəncə və Bakı müsəlman alaylarına versinlər. Amma ermənilər bu işə heç cür yol vermək istəmirdilər. Onlar hər cür hiylə və üsuldan istifadə edərək 216 və 219-cu alayların silahlarını öz əllərinə keçirməyə müvəffəq oldular.

Gəncədə ermənilərin bu hərəkətləri çox böyük narazılıqlara səbəb oldu. Azərbaycanlarla ermənilər arasında qanlı toqquşmalar başlandı. Vəziyyətin getdikcə ağırlaşması həm Bakıda, həm də Tiflisdə ciddi narahatçılıq doğurdu. Yaranmış gərginlikdən çıxış yolu tapmaq məqsədilə Zaqafqaziya Seymindən müsəlman və erməni Milli Şuralarından, habelə "Müsavat" partiyasından səlahiyyətli nümayəndələr Gəncəyə göndərildi... Danışıqlardan sonra azərbaycanlılar Milli Ordunun yaradılması işində xeyli fəallıq göstərdilər. Ermənilərin hər cür maneçiliklərinə, fitnə-fəsadlarına baxmayaraq, qısa müddət ərzində həm Gəncədə, həm də Azərbaycanın digər yerlərində Milli Ordunun yaradılması sahəsində bir sıra konkret işlər görüldü.

Bütün bu məsələlərin müqabilində ermənilər həm gizlincə, həm də aşkar çoxlu əks-tədbirlərə əl atdılar. Daha doğrusu, "Daşnaklar yatmayıb xəlvətcə öz işlərini işləyirdilər. Həştərxandan, Petrovskidən, Krasnovodskidən gələn ermənilər bu bəhanə ilə Bakıda saxlanılırdılar ki, guya müsəlmanlar yollarda onlara hücum edirlər. İrandan və Krasnovodskidən paroxodlarda Şura hökuməti adına gətirilən

mühümmati-hərbiyyə və qeyri şeylər, həqiqətdə isə daşnakların əlinə keçirdi. Bu şeylər etibarlı yerlərə yığılırdı. O cümlədən, Maitaşovun zavoduna və qeyri yerlərə.

Bunların hamısı ilə bərabər, eyni zamanda, Şaumyan və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri vaqe oldu ("Azərbaycan", 31 mart 1919-cu il).

Şamaxıda ermənilərin törətdikləri vəhşiliklərlə bağlı S.Şaumyanın daşnaklara müraciətilə hazırladığı məktub Gəncə komendantının əlinə keçdi. Həmin məktubdan açıq-aydın görünürdü ki, həm Şaumyan, həm də Avakyan ən qatı daşnakdırlar.

S.Şaumyan Bakı Xalq Komissarları Soveti adından 1918-ci ilin iyun ayının 6-da ermənilərdən ibarət hərbi hissələrin Gəncə üzərinə hücumu barədə əmr hazırladı və daşnak əsgərlərinə xüsusi tapşırıqlar verdi.

Şamaxı şəhərini və onun ətraf kəndlərini viran qoyan, müsəlman əhalisini ucdantutma qıran vəhşi daşnaklar Gəncə istiqamətində irəliləməyə başladılar. Ermənilər silahlı qüvvələri əgər Bakıdan Şamaxıya üç günə gedib çıxmışdılarsa, onlar iki gün ərzində Ağsu və Göyçayı da zəbt etməyə imkan tapdılar.

Vəziyyət çox ağırlaşırdı. Bütünlükdə həm yeni yaradılmış ADR-in, həm də bir millət kimi azərbaycanlıların taleyi məsələsi ortaya çıxmışdı. Faciənin qarşısını almaq üçün qəti tədbirlər görmək vaxtı çatmışdı. Həmin günlər barədə qocaman müəllim M. Axundovun xatirələri çox maraqlıdır. O yazır: "Bu vaxt bizim milyonçular İrana müraciət edib kömək istəyirdilər. İran isə ancaq üçüncü müraciətdən sonra cavab verir ki, biz sizin daxili işinizə qarışmırıq. Bundan sonra H.Z.Tağıyev Türkiyəyə, Ənvər paşaya müraciət edir. Ənvər paşa dərhal İstanbul müdafiəsindən seçmə Türk diviziyalarını çıxarıb Azərbaycana köməyə göndərir. Bu zaman Tovuzda atamgil qiymətdən ağır, çəkidən yüngül əşyaları yığıb qaçmağa hazırlaşırlar. Bir azdan xəbər çatır ki, Türklər eşalonla köməyə gəlirlər Atamgil əllərində duz-çörək, gözlərində yaş türkləri qarşılamaq üçün vağzala çıxırlar.

Türk diviziyaları Göyçayda ermənilərin qarşısını kəsir, onları qova-qova Bakıya daxil olurlar. Hər stansiyada bir zabit, 5-6 əsgər qoyurlar ki, yerli azərbaycanlılardan özünü müdafiə dəstələri yaratsınlar.

Amma Türk diviziyalarının yerinə qoyulmuş ərəb diviziyalarının ingilislərə satıldığını görən Mustafa Kamal Paşa Atatürk Azərbaycandan diviziyaları geri çağırır (Bundan başqa ovyektiv və subyektiv səbəblər də olmuşdur. - Red). Beləliklə türklərin Göyçə gölünü və Dərbəndi Azərbaycana qaytarmaq planları yarımçıq qalır ("Vətən səsi", 26 mart, 1993-cu il).

Doğrudan da həmir ağır günlərdə qardaş Türkiyəni kömək əli vaxtında yetişməsəydi Azərbaycan torpağının və azərbaycanlıların taleyinin necə olacağını, bütün bunların nə ilə nəticələnəcəyini təsəvvür belə etmək çətindir.

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikası yarandı. İyun ayının 4-də, bir həftə sonra Azərbaycan Respublikası ilə Turkiyə dövləti

(Osmanlı İmperiyası) arasında dostluq və qarşılıqlı yardım barədə müqavilə bağlandı.

ADR hökuməti, daha doğrusu, Milli Şura Tiflisdə təxminən üç həftəlik fəaliyyətdən sonra iyun ayının 16-da Gəncə şəhərinə köçdü.

Azərbaycan milli dövlətinin yaradılması və hökumətin müvəqqəti olaraq Gəncədə yerləşməsi bu qədim şəhərdə ermənilərin daha geniş şəkildə əl-qol açmalarına imkan vermədi, onların hazırladıqları bir çox murdar planlarını alt-üst etdi.

1918-ci ilin yayında qatı daşnak generalı Andronik Ozanyan Avropada baş verən hadisələrdən, yəni türk, ingilis, alman və rus münasibətlərinin kəskinləşdiyi vaxtda Azərbaycan torpaqlarını zəbt-etməyə, azərbaycanlıları qılıncdan keçirtməyə başladı. O öz dəstələri ilə Gəncə vilayətinin sərhədlərini keçərək Zəngəzura hücum etdi. Bu zaman Gəncə vilayətinin bəzi kəndləri də talan edilərək yandırıldı.

Sonrakı hadisələr təxminən belə davam etdi. Azərbaycana Türkiyədən silahlı qoşun hissələrinin köməyə gəldiyini görən daşnaklar müttəfiqlər sorağında çox yollara əl atdılar. Lakin S.Şaumyan və onun tərəfdarları iyul ayının sonunda istefa verməyə məcbur oldular. Bakıda hakimiyyəti eser-menşevik və yeni daşnaklardan ibarət Sentrokaspi diktaturası ələ aldı.

Az keçməmiş özünün çox gücsüz olduğunu başa düşən, Sentrokaspi ingilisləri kömək üçün Bakıya dəvət etdi. Lakin Odlar yurdunda ağalıq etmək arzusu ilə yaşayan yad və qondarma hökuməti nə ingilislər qoruya bildi, nə də özünün 14-cü maddəsi ilə gənc ADR-ə arxadan zərbə vuran Brest-Litovsk müqaviləsi.

Avqust ayının ikinci yarısında Azərbaycan dövlətinin qoşunları, eləcə də Türkiyədən öz qan qardaşlarını müdafiə etmək üçün gəlmiş türk hərbi dəstələri Bakı üzərinə qəti hücum planları hazırladılar.

1918-ci il sentyabrın 15-də general leytenant Əliağa Şıxlinskinin rəhbərliyi altında Azərbaycan korpusu və üç gün sonra isə Nuru paşanın başçılığı ilə Türk qoşun hissələri Azərbaycan Demokratik Respublikasının paytaxtı Bakını menşevik, eser və daşnaklardan ibarət oyuncaq Sentrokaspi hökumətindən təmizlədi. İngilislər elə sentyabrın 15-də Bakını tərk etdilər. Öz xalqına sadiq döyüş sərkərdələrinin və kifayət qədər silahın olması bu ağır müharibədə igid Azərbaycan əsgərlərinə qələbə qazandırdı. 15 min nəfərlik qoşunla düşmənin 50 minlik ordusu tamamilə darmadağın olundu.

Azərbaycan hökuməti Bakıya köçdü.

**KİTABIN İÇİNDƏKİLƏR**

ÖN SÖZ ..... 3
BAKI QIRĞINI ..... 5
ŞAMAXI QIRĞINI ..... 15
QUBA QIRĞINI ..... 24
STEPAN ŞAUMYANIN GÖSTƏRİŞİ İLƏ ..... 25
QUBA CAMAATI BOLŞEVİK HAKİMİYYƏTİNİ İSTƏMİR ..... 26
DAŞNAK AMAZASPIN QUBA MAHALINA HÜCUMU ..... 26
QUBADA ERMƏNİ VƏHŞİLİKLƏRİ ..... 27
DAĞIDILMIŞ VƏ YANDIRILMIŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİ ..... 28
QUBA QIRĞINI İLƏ BAĞLI DAHA BİR NEÇƏ SÖZ ..... 29
QARABAĞ FACİƏSİ ..... 30
ZƏNGƏZUR QIRĞINLARI ..... 35
İRƏVAN QIRĞINLARI ..... 44
NAXÇIVAN QIRĞINLARI ..... 52
GƏNCƏ HADİSƏLƏRİ ..... 57

Vaqif Minad oğlu Arzumanlı
Vəli Həbib oğlu Məcidov
Kamil Yəhya oğlu Muxtarov

# 1918-ci il QIRĞINLARI

Tarixi araşdırmalar
“ÖYRƏTMƏN”-1995

Bədii redaktoru:
***Abdulla Ələkbərov***

Texniki redaktoru:
***Nisə Nağıyeva***

Korrektorları:
***Aləmzər Zabir qızı, Zəhra Paşayev***

Çapa imzalanmış 24.01.95.
Kağız formatı 60x84 1/16.
Yüksək çap. Məktəb qarnituru.
Mətbəə kağızı № 2. Fiziki çap vərəqi 5,75.
Şərti çap vərəqi 5,35. Uçot nəşr. vərəqi. 4,22.
Sif. 151. Tir. 2000. Müqavilə ilə.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
“Öyrətmən” nəşriyyatı, Bakı 370073, Şəhriyar küçəsi 6.